Deyə bilərəm ki, münaqişənin həlli işində Azərbaycan 2018-ci ildə çox ciddi mövqelərə malik oldu. Bildiyiniz kimi, Ermənistanda 20 il ərzində hakimiyyəti zəbt etmiş kriminal, rüşvətxor, xunta rejimi çökdü və bu, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı siyasətin tam iflasıdır. Onu da deyə bilərəm ki, bizim Ermənistana qarşı apardığımız çox düşünülmüş, məqsədyönlü və prinsipial siyasətimiz öz bəhrəsini verdi. Biz Ermənistanı bütün regional və beynəlxalq layihələrdən təcrid edə bilmişik, Ermənistan iqtisadiyyatının çökməsində bizim payımız da kifayət qədər böyükdür. Hesab edirəm ki, bu gün münaqişənin həlli üçün yeni vəziyyət yaranır. Ümid edirəm ki, 2019-cu ildə bu sahədə irəliləyiş ola bilər.

Bununla yanaşı, əlbəttə, hesab edirəm ki, bizim güclü hərbi potensialımız münaqişənin həlli üçün əsas amildir. Biz son illər ərzində öz hərbi qüdrətimizi böyük dərəcədə artıra bilmişik. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu il ölkəmizdə iki dəfə keçirilmiş hərbi parad bizim gücümüzü, bizim güclü ordumuzun potensialını göstərir. Ən müasir silahlarla, texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu çox yüksək döyüş qabiliyyətinə malikdir və biz bu il bunu bir daha təsdiq etdik. Azərbaycan Ordusu Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan istiqamətində uğurlu əməliyyat keçirərək 11 min hektar torpağa tam nəzarət edir. Strateji yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisindən keçən önəmli kommunikasiyalara və yollara tam nəzarət edək.

Biz bundan sonra da öz hərbi qüdrətimizi artıracağıq. Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik və danışıqlarda iştirakımız bunun əyani sübutudur. Ancaq hər kəs bilir və bilməlidir ki, münaqişənin həlli üçün hərbi amil xüsusi rol oynayır və bundan sonra da biz hərbi qüdrətimizi artıracağıq.

Bu il məcburi köçkünlər üçün çox böyük işlər görülüb. 5800 köçkün ailəsi üçün yeni evlər, mənzillər tikilib və onlara təqdim edilib. Bu, son illərdə rekord göstəricidir. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 626 mənzil verilmişdir və biz bu siyasəti gələn il də davam etdirəcəyik.

Əlbəttə ki, bütün bu işləri görmək üçün güclü iqtisadiyyat olmalıdır və bu iqtisadiyyat var. Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən asılı deyil. Azərbaycan iqtisadiyyatı müstəqil iqtisadiyyatdır və bizim müstəqil siyasətimizi gücləndirən amildir. Bu il ümumi daxili məhsul artır, qeyri-neft sektoru artır, sənaye istehsalı artır, qeyri-neft sənaye sektorunda isə artım 9 faizdən çoxdur. İxracımız təxminən 40 faiz artıb. Ölkə iqtisadiyyatına 10 milyard dollar sərmayə qoyulubdur. Dünya Bankının "Doing Business" proqramının son hesablamalarında Azərbaycan dünya miqyasında 25-ci yerə layiq görülüb. Yəni, bu, onu göstərir ki, apardığımız islahatlar, şəffaflıq, ciddi iqtisadi islahatlar öz nəticəsini verir və Dünya Bankı bunu yüksək qiymətləndirir.

Biz müasir texnologiyalara böyük əhəmiyyət veririk. Bu il bizim üçüncü peykimiz orbitə buraxılmışdır. Bu, böyük hadisədir. Azərbaycan dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür və bu sahədə öz mövqelərimizi möhkəmləndiririk.

Bu il Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. May ayında biz bu möhtəşəm tədbiri qeyd etmişdik. Bu, böyük tarixi nailiyyətdir. Eyni zamanda, bu ilin iyun ayında TANAP layihəsi də rəsmi olaraq açıldı və beləliklə, Cənub Qaz Dəhlizinin tam başa çatması üçün çox gözəl imkanlar yarandı. Bu, bizim tarixi nailiyyətimizdir və Azərbaycan xalqı bundan sonra onilliklər ərzində bu layihələrin faydasını görəcək.

Bu il Ələt Ticarət Limanının açılışını qeyd etdik. Bu da tarixi layihədir. Azərbaycan nəinki regionun, Avrasiyanın çox önəmli nəqliyyat mərkəzinə çevrilir. Şimal-Cənub, Şərq-Qərb dəhlizləri bizim ərazimizdən keçir. Çox güclü nəqliyyat infrastrukturu bizə imkan verəcək ki, tranzit imkanlarımızdan çox böyük səmərə ilə istifadə edə bilək.

Bildiyiniz kimi, ilin əvvəlində mənim Sərəncamımla 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə böyük təntənə ilə qeyd etmişik. Bugünkü Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, bu qədər azad olmamışdır.

Bu il ölkəmizdə prezident seçkiləri keçirilmişdir. Azərbaycan xalqı bir daha mənə yüksək etimad göstərmişdir, mənim fəaliyyətimə yüksək qiymət vermişdir. Mən son 15 il ərzində Prezident kimi çalışmışam ki, xalqa ləyaqətlə xidmət edim. Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim. Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək.

Bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Bu fürsətdən istifadə edərək, dünyada yaşayan bütün azərbaycanlılara, soydaşlarımıza öz salamlarımı çatdırıram, onlara uğurlar arzulayıram.

Əziz həmvətənlər, əziz bacılar və qardaşlar.

Mən sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 dekabr 2018-ci il.

# Baş Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

## Baş Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsi yad edilib



Dekabrın 10-da Baş Prokurorluqda Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, ümummilli lider Heydər Əliyevin xatirəsini yad edərkən bütün Azərbaycan xalqı kimi, prokurorluq orqanlarının hər bir əməkdaşı da bu dahi şəxsiyyətin zəngin irsinə, nəsillərə örnək olan həyat yoluna nəzər salaraq ehtiramlarını bildirir, Vətəni və xalqı üçün gördüyü nəhəng işlərin, milli dövlətçilik və müstəqillik ideyalarının gerçəkləşməsində xidmətlərinin hədsiz əhəmiyyətli olduğunu minnətdarlıq hissi ilə qeyd edirlər.

Bildirilmişdir ki, müasir Azərbaycanın şərəfli inkişaf tarixinin 30 ildən artıq bir dövrü fenomenal xüsusiyyətlərə, dərin təfəkkürə və güclü iradəyə malik ən böyük azərbaycanlının adı ilə bilavasitə bağlıdır. Məhz onun dəyanəti və cəsarəti, mətinliyi və zəkası, qətiyyəti və qüdrəti sayəsində xalqımız zamanın ağır sınaqlarından üzü ağ çıxaraq çətinliklərə sinə gərmiş, təzyiq və təhlükələrdən xilas olaraq ictimai-siyasi sabitliyin bərqərar olunmasına, milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə, vətəndaş



cəmiyyətinin əsaslarının formalaşdırılmasına nail ola bilmişdir.

Azərbaycanlı olması ilə hər zaman fəxr edən, milli mənsubluğundan hədsiz iftixar hissi keçirən ulu öndər Heydər Əliyev öz fəaliyyəti və misilsiz xidmətləri sayəsində xalqın qəlbində və yaddaşında həmişəlik həkk olunmuş və elə bir iz qoymuşdur ki, ölkəmiz özünün bu dahi rəhbəri ilə daim fəxr edəcəkdir. O, sovetlər dönəmində, eləcə də müstəqillik illərində xalqımızın müdafiəsi və rifahı, milli dövlətimizin qurulması və möhkəmləndirilməsi üçün elə bir yorulmaz və əzmkar fəaliyyət göstərmişdir ki, Azərbaycan xalqı onu özünün həmişəlik ümummilli lideri seçmiş, vətəndaşların ürəyində və qəlbində əbədi yer tutmuşdur.

Vurğulanmışdır ki, respublikada əfvetmə institutunun bərpası, ölüm hökmünün ləğv olunması, İnsan hüquqları üzrə Müvəkkil İnstitutunun yaradılması, hüquq mühafizə orqanlarında dövrün tələblərinə cavab verən mütərəqqi islahatların aparılması - bütün bunlar məhz ulu öndər Heydər Əliyevin qətiyyətli addımları sayəsində gerçəkliyə çevrilmişdir.

Nəzərə çatdırılmışdır ki, Heydər Əliyev ideyalarına və xalqına sadiqliyini əməli işləri ilə sübuta yetirən Prezident cənab İlham Əliyev tərəfindən həmin ideyaların reallaşdırılması istiqamətində məqsədyönlü və yeni məzmunlu daxili və xarici siyasət həyata keçirilir. Dövlət başçısının uğurlu fəaliyyəti bir daha göstərir ki, Heydər Əliyev ideyaları yaşayır və onların reallaşdırılması istiqamətində görülən işlər bu dahi şəxsiyyətin unudulmaz xatirəsinin əbədiləşdiləşdirilməsini və vətənimizin hərtərəfli tərəqqisini təmin edir. Dünya birliyinə sürətlə inteqrasiya olunan ölkəmiz regionun lider dövləti statusunu özündə saxlamaqla iqtisadi inkişaf göstəricilərinə görə dünyanın aparıcı ölkələri sırasında olan yerini qoruyub saxlamış, böyük enerji layihələrinin reallaşdırılması istiqamətində inamlı addımlar atmışdır.

Qeyd edilmişdir ki, Heydər Əliyev ideyalarını hər sahədə uca tutan, onları praktik şəkildə gerçəkləşdirən, mərkəzində Azərbaycan vətəndaşı, onun qayğı və maraqları dayanan sosial yönümlü siyasət həyata keçirən dövlət başçısı daim öz müdrik qərarları, səriştəli və bacarıqlı idarəçiliyi ilə xalqımızı ciddi sınaqlardan, iqtisadi risklərdən və onların yarada biləcəyi fəsadlardan xilas etmiş, ölkənin davamlı və dayanıqlı tərəqqisini təmin etmişdir. Son illərdə həyata keçirilən mütərəqqi islahatlar, idarəetmənin təkmilləşdirilməsi istiqamətində mühüm yeniliklər, korrupsiya hallarının qarşısının



alınması, şəffaflığın və ictimai nəzarətin artırılması ilə bağlı qəbul olunan strateji əhəmiyyətə malik innovativ qərarlar göstərilənlərin bariz nümunəsi olmaqla Heydər Əliyev siyasətinə alternativin olmadığını bir daha təsdiqləyir.

Xüsusi vurğulanmışdır ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz aprel döyüşlərində öz hərbi gücünü və qətiyyətini real şəkildə bütün dünyaya nümayiş etdirməsi nəticəsində işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində yeni qəsəbənin açılışı, eləcə də Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklərin işğaldan azad edilməsi xalqımızın və dövlətimizin tarixində çox əlamətdar hadisələrdən biri olmuş və öz doğma yurd-yuvalarından didərgin düşmüş məcburi köçkünlərimizin işğal olunmuş torpaqlara qayıtma əzmini daha da artırmışdır.

Bildirilmişdir ki, ulu öndər Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşdırılması naminə müəyyən etdiyi ideyaları reallaşdıran, məqsədlərinin əhəmiyyətinə və miqyasına görə Azərbaycanda alternativi olmayan Heydər Əliyev Fondu tərəfindən milli-mənəvi dəyərlərimizin qorunması, təhsil, səhiyyə, idmanın inkişafı sahəsində dövlətin yürütdüyü siyasətə dəstək verilməsi, xüsusilə Azərbaycanda müasir xeyriyyəçilik institutunun əsasını qoymuş Fondun prezidenti Mehriban xanım Əliyevanın xoşməramlı və əzmkar fəaliyyəti Heydər Əliyev irsinə verilən dəyərli töhfə kimi qəbul edilir.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Dövlət başçısı cənab İlham Əliyev əmin edilmişdir ki, ulu öndər Heydər Əliyevin ideyalarına və onun müəyyən etdiyi siyasi kursa və strateji inkişaf konsepsiyasına daim sadiq olan prokurorluğun kollektivi bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin hər cür cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəkdir.

Mərasimin sonunda ümummilli liderin xatirəsinə həsr olunmuş Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış "Ömür. Tale. Epoxa" adlı sənədli filmi nümayiş etdirilmişdir.

**Baş Prokurorluq**

# Ümummilli lider Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə əlaqədar Hərbi Prokurorluqda anım mərasimi keçirilib

## Hərbi Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsi yad edilib



Dekabrın 11-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə bağlı anım mərasimi keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yaradılmış Heydər Əliyev Guşəsində ulu öndər Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoyub, Ümummilli Liderin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Azərbaycan Respublikası Baş prokurorunun müavini - Respublika Hərbi prokuroru Xanlar Vəliyev çıxış edərək müstəqilliyə gedən yolumuzu işıqlan-



dıran, həyatın sərt, çətin sınaqlarına məharətlə sinə gərən, hər bir çətin şəraitdən ən düzgün çıxış yolu tapan, daim xalqı ilə birlikdə olan, qəlbində Vətən sevgisi, milli ruh gəzdirən qüdrətli şəxsiyyət, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin Azərbaycan tarixində və beynəlxalq aləmdəki rolu, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barədə ətraflı məlumat verilmişdir.

Qeyd edilmişdir ki, şərəfli və mənalı ömür yolunun 30 ildən artıq dövrünü ölkəmizin rəhbəri kimi xalqının tərəqqisinə həsr edən dahi lider Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı həqiqi müstəqilliyə qovuşduraraq ictimai şüurda əbədiyaşarlıq qazanmışdır. Bildirilmişdir ki, Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi, suveren ölkə kimi qarşılaşa biləcəyi problemlərin həllinə nail olması üçün real əsaslar hələ Ulu Öndərin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə formalaşdırılmışdır. Bugünkü müstəqilliyimizin əldə olunması məhz həmin dövrdə ümummilli lider Heydər Əliyevin Azərbaycanın sosial, iqtisadi, siyasi və mədəni yüksəlişi üçün həyata keçirdiyi tədbirlər, milli şüurun oyanması istiqamətində istər açıq, istərsə də gizli şəraitdə gördüyü nəhəng işlər nəticəsində mümkün olmuşdur. Azərbaycanın müstəqil xəttə malik, heç bir dövlətdən asılı olmayan suveren ölkə kimi mövcudluğu məhz həmin dövrdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş bünövrə üzərində qurulmuş və uğurla davam etdirilmişdir.

Hərbi prokuror Xanlar Vəliyev xüsusi vurğulamışdır ki, ulu öndər Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Bakıya gələrək müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısını qətiyyətlə almışdır. Ölkəmizin müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən 1993-cü ildə böyük xilaskar Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsi Azərbaycanın müstəqil dövlət kimi varlığını şərtləndirən amillərdən olmuşdur. Bu böyük qayıdışdan sonra respublika ərazisinə səpələnmiş silahlı cinayətkar dəstələr zərərsizləşdirilmiş, vətəndaş müharibəsinin qarşısı alınmış, separatçı meyillərə son qoyulmuş, ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin edən digər tədbirlər görülmüşdür.

Hərbi prokuror Ulu Öndər yolunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin yürütdüyü siyasətə xalqımızın tam dəstək verməsinin, iqtidarla xalqın vəhdətinin formalaşmasının ölkəmizin əldə etdiyi və gələcəkdə qazanacağı uğurların təməlini təşkil etdiyini, bu yolu uğurla və zamanın tələblərinə uyğunlaşdıraraq yüksək peşəkarlıqla davam etdirən

Prezident cənab İlham Əliyevə xalqın inamının əbədi və dönməz olduğunu bildirmişdir.

Xanlar Vəliyev ulu öndər Heydər Əliyevin həyata keçirdiyi müdrik dövlətçilik siyasətinin nəticəsi olaraq bütün dövlət qurumları ilə yanaşı, Azərbaycan Prokurorluğunun da demokratik məzmunlu dövlət təsisatı kimi tamamilə yenidən formalaşdırıldığını, onun dövlətçiliyə sədaqəti ilə seçilən kadr korpusunun yaradıldığını, Azərbaycanda reallaşdırılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində milli prokurorluq orqanlarının müasir məzmunda yeniləşdirilməklə cəmiyyətdə statusuna uyğun yerini tutduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, Prezident cənab İlham Əliyevin dövlət səviyyəsində prokurorluq orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi və əməkdaşların maddi-sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində gündəlik diqqət və qayğısı nəticəsində Azərbaycan Prokurorluğunun digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəli fəaliyyətinin təkmilləşdirilməsi, müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunmaqla mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, bütün istiqamətlər üzrə işin səmərəliliyinin və əməkdaşların peşəkarlığının yüksəldilməsi, habelə yeni nəsil prokurorluq işçilərinin formalaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi mümkün olmuşdur. Çıxışda digər hüquq-mühafizə orqanları kimi, Hərbi Prokurorluğun kollektivinin də ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, Silahlı Qüvvələrdə nizam-intizamın gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi istiqamətində uğurlu nəticələr əldə etdiyi vurğulanmışdır.

Çıxışını Azərbaycan Silahlı Qüvvələrinin qüdrətindən danışaraq davam etdirən Hərbi prokuror bildirmişdir ki, ordu quruculuğu sahəsində ulu öndər Heydər Əliyev tərəfindən başladılan və Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyi kompleks tədbirlərin nəticəsində bu gün Azərbaycan Silahlı Qüvvələri vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı möhkəmləndirilən, mənəvi-psixoloji cəhətdən yüksək əhval-ruhiyyəli, ciddi hərbi nizam-intizama və döyüş hazırlığına malik, bir sözlə, müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir silahlı birləşmələrdən ibarətdir. Silahlı Qüvvələrimizin öz gücünü 2016-cı ilin Aprel və 2018-ci ilin May döyüşlərində, eləcə də ardıcıl keçirilmiş möhtəşəm hərbi paradlarda bir daha dünyaya nümayiş etdirdiyini vurğulayan hərbi prokuror bütün bunların Ali Baş Komandan cənab İlham Əliyevin müdrik siyasətinin və qətiyyətinin, hərbi qulluqçularımızın qəhrəmanlığının və xalqımızın mübarizliyinin sıx vəhdətinin nəticəsi olduğunu bildirmişdir. Diqqətə çatdırılmışdır ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin və Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisinin, o cümlədən Şərur rayonunun Günnüt kəndinin işğaldan azad olunması, məcburi köçkünlərin doğma ata-baba yurdlarına qayıtmasına əlverişli şəraitin yaradılması "Böyük qayıdış"ın başlanğıcıdır.

Respublikamızın qazandığı hərtərəfli nailiyyətlərdən söhbət açan Xanlar Vəliyev bu nailiyyətlərin əldə olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın misilsiz xidmətlərini vurğulayaraq, qeyd edib ki, Mehriban xanım Əliyevanın görkəmli dövlət xadimi kimi uzun illər ərzində ölkəmizin sürətli sosial-iqtisadi inkişafı, xalqımızın rifahının yaxşılaşdırılması, dövlətçiliyimizin beynəlxalq nüfuzunun daha da artırılması istiqamətində yorulmaz və dəyərli ictimai-siyasi fəaliyyəti bu istiqamətlərdə müsbət nəticələrin əldə olunmasına layiqli töhfə verməklə yanaşı, dövlətimizin, xalqımızın, mədəniyyətimizin və milli dəyərlərimizin bütün dünyaya tanıdılmasında əhəmiyyətli rol oynamışdır.

Çıxışının sonunda Xanlar Vəliyev vurğulamışdır ki, Hərbi Prokurorluğun kollektivi ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsi, o cümlədən dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunması, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən möhtəşəm islahatlarda yaxından iştirak etməklə müdrik siyasəti daim dəstəkləyəcək.

Tədbir böyük şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filmin nümayişi ilə başa çatmışdır.

**Hərbi Prokurorluq**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsi yad edilib

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ulu öndər Heydər Əliyevin xatirəsi yad edilib**

Dekabrın 11-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi anma mərasimi keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın müdrik rəhbəri Heydər Əliyevin müasir Azərbaycanın tarixindəki rolu, demokratik və hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barədə ətraflı məlumat verərək vurğulayıb ki, müasir Azərbaycan tarixinin əsas inkişaf və yüksəliş mərhələsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyi tariximizə qızıl hərflərlə yazılıb.

Ulu öndər Heydər Əliyevin həyatının mənası canından da cox sevdiyi Azərbaycan idi. Ümummilli liderin respublikamıza rəhbərliyi dövründə xalqımızın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilib, Azərbaycan müstəqilliyə qovuşub. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövləti, xalqımızın xoşbəxt gələcəyi naminə gördüyü işlərdə həmişə xalqa arxalandığını vurğulayaraq demişdir: *“İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizin, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib”.*

Qeyd olunub ki, taleyin hökmü ilə iki dəfə bu missiyanı üzərinə götürən ümummilli liderimiz hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış və ölkəmizi böyük bəlalardan qurtarıb. Milli özünüdərkin yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası ən yeni tariximizdə məhz görkəmli dövlət xadimi Heydər Əliyevə məxsusdur. Onun Azərbaycana rəhbərliyinin birinci dövrü ölkəmizdə ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində möhtəşəm quruculuq dövrü olub. Müasir, müstəqil Azərbaycan dövləti də məhz ulu öndərimizin siyasi hakimiyyətinin birinci dövründə – 1969-1982-ci illərdə yaradılmış təməl üzərində qurulub.

Ulu öndərin 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində bu barədə deyirdi: *“Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır... SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərdilər. Aparılan təhlillər göstərirdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri məhz Azərbaycan idi”.*

Vurğulanıb ki, 1969-1982-ci illərdə dahi şəxsiyyətin qarşıya qoyduğu prioritet vəzifələrdən biri də elmin və təhsilin inkişafı idi. Məhz ulu öndər Heydər Əliyevin gərgin səyi nəticəsində azərbaycanlı gənclər təhsillərini davam etdirmək üçün keçmiş SSRİ-nin qabaqcıl elm və təhsil mərkəzlərinə göndərib. Həmin gənclər təhsillərini başa vurduqdan sonra yenidən respublikaya dönərək müxtəlif sahələrdə öz fəaliyyətlərini davam ediblər. Bu da sərt sovet rejimində milli kadrların yetişdirilməsi baxımından böyük əhəmiyyət kəsb edirdi.

Ulu öndər Heydər Əliyevin həmin dövrdə Azərbaycan naminə həyata keçirdiyi müdrik siyasətə diqqət çəkən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: *“SSRİ dönəmində Azərbaycanın iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı”.*

Ölkəmizin ağır, çətin dövründə, 1990-cı il iyul ayının 20-də Moskvadan Bakıya qayıdan Ulu Öndər iki gün sonra, iyulun 22-də doğma Naxçıvana gəlmiş və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik edib. 1990-1993-cü illərdə, ölkəmizin ağır dövründə Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə tarixi qərarlar qəbul edilib. Üçrəngli bayrağımızın ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də görkəmli dövlət xadiminin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin iclasında qaldırılması, Naxçıvan Muxtar Respublikasının adından “sovet sosialist” sözlərinin çıxarılması, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi, aqrar islahatların keçirilməsi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılması müstəqil dövlətçilik yolunda atılan ilk addımlar idi.

1990-1993-cü illərdə dahi şəxsiyyət çoxşaxəli fəaliyyəti ilə Azərbaycan dövlətçiliyinin Naxçıvan məktəbini yaratmış, muxtar respublikada milli dövlətçiliyin qurulması istiqamətində nəhəng işlər görülüb. Dünya azərbaycanlılarının həmrəyliyinin əsasının qoyulması, blokada şəraitində yaşayan Naxçıvanın gələcək inkişafını təmin edəcək işlərin bünövrəsinin qoyulması dahi rəhbərin qətiyyəti və təşəbbüsü nəticəsində mümkün olub.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyev Azərbaycanın yeni dövr üçün demokratik inkişaf modelini müdrikliklə irəli sürüb, eyni zamanda bu mütərəqqi dəyişikliklərin ictimai şüurda tədricən qəbul olunması zərurətini önə çəkib. Onun dövlətçilik konsepsiyası Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf modeli olub. Dahi şəxsiyyət o zaman qarşıya qoyduğu vəzifələri belə bəyan etmişdi: *“Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir”.*

Ümummilli lider Heydər Əliyevin nəsillərə nümunə olan həyat yolu xalqa təmənnasız xidmətdə keçib. O nəinki müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin etmiş, həm də müstəqil, milli dövlətçiliyin əsasını qoymuş, yeni idarəçilik məktəbi formalaşdırıb. Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini bu məktəbin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət edib. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanır.

Qeyd olunub ki, Azərbaycanda prokurorluq orqanlarının sivil dövlət qurumu kimi formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunub, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilib. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaradıb. Bu dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq, prokurorluq orqanlarında köklü islahatlara başlanılıb. *“Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir”,* – deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olub.

Sonda əminliklə ifadə olunub ki, Naxçıvan Muxtar Respublikası Prokuroluğunun kollektivi bundan sonra da ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitliyin qorunmasında bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidentı cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində yaxından iştirak etməklə, bu uğurlu siyasəti daim dəstəkləyəcəkdir.

Məruzə ətrafındakı çıxışlarda ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gördüyü möhtəşəm işlərdən danışılıb.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Bakı şəhər prokurorluğunda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**Bakı şəhər prokurorluğunda ulu öndər Heydər Əliyevin xatirəsi yad edilib**



Dekabrın 11-də Bakı şəhər prokurorluğunda Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin şəhər prokurorluğunun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoyub, unudulmaz xatirəsini ehtiramla yad ediblər.

Mərasimdə çıxış edən Bakı şəhər prokuroru İlqar Abbasov diqqətə çatdırıb ki, görkəmli şəxsiyyət, əvəzolunmaz insan, müstəqil Azərbaycanın qurucusu, Ümummilli liderimiz Heydər Əliyev sayəsində müstəqilliyimiz əbədi və dönməz xarakter alıb, Azərbaycan inamla beynəlxalq arenaya çıxıb, beynəlxalq aləmdə söz və nüfuz sahibi olub. Müstəqil Azərbaycan Respublikasının hüquqi, dünyəvi və demokratik dövlət imicinin formalaşmasında ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri əvəzsizdir.

Cinayətkarlığa qarşı mübarizə sahəsində əldə edilmiş bütün nailiyyətlər qanunun aliliyi prinsipini fəaliyyətinin əsas devizinə çevirmiş Ulu öndər Heydər Əliyevin ölkəmizdə həyata keçirdiyi məqsədyönlü hüquqi islahatların məntiqi nəticəsidir. Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən Konstitusiya, eləcə də həyata keçirilən məqsədyönlü tədbirlər ölkəmizdə demokratik və hüquqi dövlətin möhkəm əsasını yaradıb.



Diqqətə çatdırılıb ki, ölkəmizdə hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə əsası Ulu Öndər tərəfindən qoyulmuş hüquqi islahatlar daha da genişləndirilməkdədir. Demokratik və hüquqi dövlət quruculuğu prosesi hazırda ulu öndər Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bakı şəhər prokuroru İlqar Abbasov şəhər prokurorluğunun kollektivinin Heydər Əliyevin dövlətçilik ideyalarına daim sadiq qalacağını, dövlət müstəqilliyimizin, milli maraqlarımızın, ictimai-siyasi sabitliyin qorunması işində səylərini daha da artıracağını vurğulayıb.

Mərasimin sonunda ümummilli liderin xatirəsinə həsr olunmuş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış "Əbədiyyət" filmi nümayiş etdirilib.

**Bakı şəhər prokurorluğu**

# Azərbaycan prokurorluğunun kollektivi ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**Prokurorluq işçiləri ulu öndər Heydər Əliyevin xatirəsini Fəxri xiyabanda yad ediblər**

Baş Prokurorluğun, Respublika Hərbi və Bakı şəhər prokurorluqları orqanlarının işçiləri dekabrın 12-də Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib, əziz və unudulmaz xatirəsini yad ediblər. Ulu öndərin məzarı önünə qızıl güllər qoyub, xatirəsini dərin ehtiramla anıblar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub.

**Baş Prokurorluq**

# Baş prokuror Zakir Qaralov Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransda iştirak edib

**Azərbaycan ədliyyəsi - 100**



Ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə təsis edilmiş 22 noyabr – ədliyyə işçilərinin peşə bayramı bu il Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ilə əlamətdar olmaqla ədliyyə işçiləri tərəfindən təntənəli şəkildə qeyd olunmuşdur.

Yubiley münasibətilə nazirliyin bütün struktur qurumlarında silsilə tədbirlər, o cümlədən "açıq qapı" günü, "dəyirmi masa", ictimai təqdimat və digər yığıncaqlar, universitetlərdə və orta məktəblərdə açıq dərslər, mühazirələr, kütləvi idman yarışları (futbol, voleybol, şahmat) və intellektual oyunlar, veloyürüş, könüllü qanvermə və ağacəkmə aksiyaları təşkil olunub, ədliyyə veteranlarına, uşaq evlərinə baş çəkilib, yeni qulluğa qəbul olunan gənclərlə görüşlər keçirilib. Bu ərəfədə Zaqatalada ədliyyə orqanları və rayon məhkəməsi üçün yeni müasir binanın açılışı həyata keçirilib, bəzi struktur qurumlara xidməti istifadə üçün Azərbaycanın milli istehsalı olan yeni avtomobillər təqdim edilib, ədliyyə işçilərinə bayram sovqatları, mükafatlar verilib.

Eyni zamanda, nazirlik tərəfindən Azərbaycan ədliyyəsinin 100 illik tarixinə dair xüsusi kitab, ədliyyənin rəmzləri, nazirliyin müasir fəaliyyəti, o cümlədən məhkəmə-hüquq islahatları, beynəlxalq hüquq əlaqələri barədə müxtəlif dillərdə toplular, broşürlər, bukletlər və digər maarifləndirici vəsaitlər, o cümlədən videoçarxlar, yubileyə həsr olunmuş ayrıca film və xüsusi ekspozisiyalardan ibarət stendlər hazırlanıb. Həmçinin nazirliyin rəhbərliyi, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çoxsaylı çıxışlar edilib.

Bu bayramı ədliyyə işçilərinə bəxş etmiş ümummilli lider Heydər Əliyevə əbədi ehtiramın əlaməti olaraq, nazirliyin rəhbərliyi və kollektivi, hakimlər yubiley ərəfəsində Fəxri xiyabanda Ulu Öndərin əziz xatirəsini yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə tər güllər düzülüb.



Sonra ədliyyə işçiləri Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarında keçmiş Vətən övladlarının məzarlarını da ziyarət ediblər.

Noyabrın 22-də Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə Bakıda, "Abşeron Marriott" mehmanxanasında "Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolu" mövzusunda beynəlxalq konfrans keçirilib.

Yubiley tədbirində iştirak etmək üçün Türkiyənin ədliyyə naziri Abdulhamit Gül nazirliyin rəhbər şəxslərindən və qardaş ölkənin deputatlarından ibarət geniş tərkibli nümayəndə heyəti ilə, Belarusun ədliyyə naziri Oleq Slijevski, Gürcüstanın ədliyyə nazirinin birinci müavini Mixeil Sarjveladze, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) prezidenti Georq Stava ölkəmizə səfərə gəliblər.

Konfransda, həmçinin ölkəmizin aidiyyəti qurumlarından 110-dan çox nümayəndə, o cümlədən ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Ali Məhkəmənin sədri Ramiz Rzayev, Baş prokuror Zakir Qaralov, daxili işlər naziri Ramil Usubov, deputatlar, Məhkəmə-Hüquq Şurasının üzvləri, hakimlər, Vəkillər Kollegiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının, Bakı Dövlət Universitetinin məsul şəxsləri, alimlər, gənclər, vətəndaş cəmiyyətinin nümayəndələri və media təmsilçiləri iştirak ediblər.

Konfransı giriş nitqi ilə açan nazir Fikrət Məmmədov tədbirdə iştirak edən qonaqları salamlayıb, Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə bütün ədliyyə və məhkəmə orqanları işçilərini təbrik edib. Nazir konfransın hüquqi dövlətdə ədliyyə sisteminin, Azərbaycan ədliyyəsinin formalaşmasına, inkişafına və qarşıda duran yeni çağırışlara həsr olunduğunu bildirib.

Nazir Prezident İlham Əliyevin yubiley münasibətilə ədliyyə işçilərinin və hakimlərin böyük bir qrupunu orden və medallar, fəxri adlar və ali xüsusi rütbələrlə təltif etməsinin, ədliyyə və məhkəmə işçilərinə təbrik məktubunun dərin minnətdarlıq hissi ilə qarşılandığını və dövlətimizin başçısının Azərbaycan ədliyyəsinə qayğısının növbəti təzahürü olduğunu vurğulayıb. Bildirib ki, bu yüksək etimadı doğrultmaq üçün ədliyyə işçiləri bundan sonra daha əzmlə və məsuliyyətlə çalışmağı özlərinin vəzifə borcu sayırlar.

Prezidentin köməkçisi Fuad Ələsgərov dövlətimizin başçısı İlham Əliyevin Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə ədliyyə və məhkəmə işçilərinə ünvanladığı təbrik məktubunu oxuyub.




Müraciətdə Azərbaycan ədliyyəsinin keçdiyi 100 illik yoldan bəhs olunaraq, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Ədliyyə Nazirliyinin cəmiyyətdəki rolu və əhəmiyyətinin artdığı, müasir məhkəmə sisteminin yaradıldığı, məhkəmələrin müstəqilliyinin təmin olunması üçün mühüm addımların atıldığı vurğulanıb. Təbrik məktubunda, həmçinin Azərbaycanda ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlərin bu gün də davam etdirildiyi qeyd olunub, ədliyyə və məhkəmə işçilərinin Azərbaycan ədliyyəsinin inkişafına bundan sonra da töhfə verəcəklərinə əminlik ifadə edilib.

Ali Məhkəmənin sədri Ramiz Rzayev konfransda çıxış edərək Azərbaycan ədliyyəsinin və məhkəmə sisteminin qurulması tarixindən və inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ədliyyə və məhkəmə sisteminə göstərdiyi diqqət və qayğıdan bəhs edib.

Sonra məruzə və çıxışlar dinlənilib. Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov "Azərbaycan ədliyyəsi 100: təkamül və yeni çağırışlar" mövzusunda geniş məruzə ilə çıxış edib.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının zəngin ədliyyə tarixindən bəhs edən nazir ədliyyə işinə hələ qədim dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərdə xüsusi diqqət yetirildiyini, ədliyyənin şanlı tarixinin Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə başladığını diqqətə çatdırıb.

Bildirib ki, 1918-ci il mayın 28-də Cümhuriyyətin qurulması ilə eyni gündə təsis olunan Ədliyyə Nazirliyi respublikanın mövcud olduğu 23 ay ərzində ölkənin hüquq sisteminin, ədliyyə və məhkəmə fəaliyyətinin bərpası və təkmilləşdirilməsi, dövlət dili olan Azərbaycan dilini bilən şəxslərin işə cəlb olunması, mühüm qanun layihələrinin hazırlanması, penitensiar xidmətin nazirliyin tabeliyinə verilməklə həbsxana işinin demokratik norma və prinsiplərə uyğun qurulması istiqamətində tarixi xidmətlər göstərib.

Sovet hakimiyyətinin ilk illərində ədliyyə orqanlarının iki dəfə ləğv edilərək yenidən yaradılmasını, fasilələrlə fəaliyyət göstərməsini ədliyyə tarixinin keşməkeşli dövrü adlandıran nazir Fikrət Məmmədov Azərbaycan ədliyyəsinin sabit və davam inkişafının yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonrakı dövrə - 1970-ci ilə təsadüf etdiyini vurğulayıb, müstəqillik illərində Ulu Öndərin demokratik hüquqi dövlət quruculuğu, müasir hüquq sistemimizin inkişafı istiqamətində müstəsna xidmətlərini qeyd edib. Bildirib ki, yeni üçpilləli müstəqil məhkəmə hakimiyyətinin bərqərar edilməsi, ədliyyə orqanlarının müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi Ümummilli Liderin adı ilə bağlıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələnin başlandığını deyən ədliyyə naziri ötən dövrdə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar, əldə olunan nailiyyətlər və tətbiq edilən yeniliklər barədə ətraflı məlumat verib, nazirliyin ayrı-ayrı istiqamətləri üzrə həyata keçirilən genişmiqyaslı tədbirləri əyani təqdimatla iştirakçıların diqqətinə çatdırıb.

Konfransda Ədliyyə Nazirliyi tərəfindən yubiley münasibətilə hazırlanmış ədliyyənin tarixi və müasir

fəaliyyətindən bəhs edən "Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda" xüsusi kitabın Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov tərəfindən ictimai təqdimatı olub.

Əyani təqdimat zamanı məlumat verilib ki, Azərbaycan ədliyyəsinin 100 illik tarixinə qiymətli töhfə olan bu kitabda xalqımızın ədliyyə tarixi ən qədim zamanlardan başlayaraq yaşadığımız günlərədək ətraflı tədqiq edilib. Azərbaycan ədliyyəsinin Xalq Cümhuriyyəti dövrünün ayrıca təqdim olunması, sovet hakimiyyəti dövründə və müstəqillik illərində ulu öndər Heydər Əliyevin Azərbaycan ədliyyəsinin inkişafında misilsiz xidmətlərinin geniş işıqlandırılmasının təqdirəlayiq olduğu vurğulanıb. Həmçinin bildirilib ki, müasir mərhələdə Prezident İlham Əliyevin yürütdüyü ədliyyə və məhkəmə-hüquq islahatlarına dair verilən zəngin material həm azərbaycanlı oxucular üçün, həm də Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması baxımından çox qiymətlidir.

Akademik Yaqub Mahmudov illüstrasiya materiallarının zəngin olduğu "Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda" kitabının işıq üzü görməsini ədliyyə tariximizin bütöv halda sistemli şəkildə araşdırılması baxımından mühüm hadisə kimi dəyərləndirib, ədliyyə və məhkəmə-hüquq tariximizə sanballı töhfə və oxucular üçün dəyərli vəsait olduğunu vurğulayıb.

Sonra Türkiyənin ədliyyə naziri Abdulhamit Gül "Türkiyənin məhkəmə sistemi müasir inkişaf mərhələsində" mövzusunda çıxış edərək Azərbaycanın ədliyyə sahəsində böyük uğurlar qazandığını bildirərək, bu münasibətlə təbriklərini çatdırıb.

"Türkiyə və Azərbaycan iki dost və qardaş ölkə, bir millət, iki dövlətdir. Xüsusilə Qafqazda davamlı sülh, sabitlik və inkişafın təmin edilməsi üçün ölkələrimiz arasında həmrəylik vacibdir. Türkiyə və Azərbaycan gücünü ortaq tarixdən alan, bir-birinə bağlı olan ölkələrdir. Həm ikitərəfli, həm də regional məsələlərdə əməkdaşlığı və həmrəyliyimizi genişləndirməkdə qətiyyətliyik. Dövlətlərimizin başçıları arasında yaxın münasibətlər, qarşılıqlı səfərlər ölkələrimiz arasında münasibətlərin göstəricisidir", – deyən ədliyyə naziri Abdulhamit Gül əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını söyləyib, Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıb.

"Belarus Respublikasının ədliyyə sisteminin inkişafı: vəzifələr, nailiyyətlər, tendensiyalar" mövzusunda çıxış edən Belarusun ədliyyə naziri Oleq Slijevski ötən il Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair imzalanmış Sazişin implementasiyası çərçivəsində təcrübə mübadiləsinin uğurla davam etdirildiyini bildirib. O, Belarus ədliyyə sisteminin fəaliyyəti barədə məlumat verərək qeyd edib ki, iki ölkənin ədliyyə orqanları arasında fəaliyyətlər bənzərdir və qarşımızda ümumi hədəflər durur.

CEPEJ-in prezidenti Georq Stava "Azərbaycan və CEPEJ: inkişaf üçün əməkdaşlıq" mövzusunda çıxış edərək ölkəmizlə səmərəli əlaqələri vurğulayıb, son illər Azərbaycanda məhkəmə-hüquq sistemində yüksək uğurlara nail olunduğunu, məhkəmə sistemində İKT-lərin və elektron məhkəmənin tətbiqi, infrastrukturun müasirləşdirilməsi sahəsində Azərbaycanın ön sıralarda olduğunu vurğulayıb. O, həmçinin jurnalistlərə müsahibəsində Azərbaycanda məhkəmə sistemində həyata keçirilən layihələrin digər dövlətlərə örnək kimi təqdim olunduğunu və artıq Avstriyanın Azərbaycanın bu sahədə təcrübəsindən istifadə etdiyini vurğulayıb.

Konfransda Gürcüstanın ədliyyə nazirinin birinci müavini Mixeil Sarjveladzenin "Gürcüstanın ədliyyə sektorunda islahatlar – güclü qanunun aliliyi və demokratiyaya doğru irəliləyiş", Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin "Hüquq sisteminin inkişafında müasir qanunvericilik bazasının rolu", Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırovun "Ədalət mühakiməsinin həyata keçirilməsi işində vəkilliyin rolu", Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı Əmir Əliyevin "Ədliyyə və məhkəmə sistemi üçün hüquqşünas kadrların hazırlanması" və Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyninin "Ədliyyə fəaliyyətində ictimai iştirakçılıq" mövzularında çıxışları dinlənilib, müzakirələr, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Tədbirin yekununda ədliyyə işçiləri adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlanıb.

Həmin gün Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunan qəbul təşkil olunub.

Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başlayan qəbulda yubiley münasibətilə hazırlanmış və Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolundan bəhs edən xüsusi film nümayiş olunub, mədəni proqram təşkil edilib.

**Ədliyyə Nazirliyi**

# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir

## Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanları korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində üzərinə düşən vəzifələri yerinə yetirməklə yanaşı, bu sahədə fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatlar və digər dövlətlərin ixtisaslaşmış orqanları ilə qurulmuş qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini daha da genişləndirir.

Bu sahədə formalaşmış müsbət tendensiyanın davamı olaraq Monqolustanın Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin baş direktoru Enkjargal Kurelsukun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi müsbət təcrübə və nailiyyətlərlə tanış olmaq, o cümlədən ixtisaslaşmış anti-korrupsiya qurumları arasında ikitərəfli münasibətlərin təsis edilməsi məqsədilə noyabrın 20-23-də Azərbaycan Respublikasında səfərdə olmuşdur.

Səfər çərçivəsində Fəxri Xiyabana gələn Monqolustan nümayəndə heyəti müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini ehtiramla yad edərək məzarları önünə əkil qoymuş, daha sonra Şəhidlər Xiyabanına gələrək ölkəmizin




müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını və "Əbədi məşəl" abidəsini ziyarət etmişlər.

Bundan sonra Monqolustanın Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin baş direktoru Enkjargal Kurelsukun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Baş Prokurorluğunda olmuşlar.

Qonaqları səmimi salamlayan Baş prokuror Zakir Qaralov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Monqolustan Prezidenti cənab Xaltmaaqiyn Battulqa arasında mövcud olan qarşılıqlı etimad və dostluq münasibətlərinin xalqlarımız arasında dərin tarixi köklərə söykənən siyasi, iqtisadi və mədəni əlaqələrin daha da inkişaf etdirilməsi üçün platforma təşkil etdiyini xatırladaraq ölkələrimiz arasında ikitərəfli münasibətlərin sürətlənməsinə geniş imkanlar yaratdığını bildirmişdir.

Baş prokuror Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, həmçinin qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat vermişdir.

Səmimi qəbul üçün minnətdarlığını ifadə edən Enkjargal Kurelsuk rəhbərlik etdiyi təşkilatın Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini vurğulayaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş naliyyətləri yüksək qiymətləndirmişdir. Görüşdə ölkələrimiz arasında səmərəli dostluq və əməkdaşlıq münasibətlərinin gələcək inkişafına inam ifadə edilmiş, hüquqi əlaqələrin dərinləşdirilməsi perspektivləri müzakirə edilmişdir.

Monqolustan nümayəndə heyəti Baş Prokurorluğun Tarix Muzeyində Azərbaycan dövləti, onun hüquq sistemi, dövlət başçısının rəhbərliyi altında aparılan islahatlar, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materialları əks etdi-

rən guşə və digər ekspozisiyalar ilə tanış olmuşlar.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində nümayəndə heyəti ilə ikitərəfli görüş keçirilmişdir.

Qonaqları qəbul edən Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyev ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən hərtərəfli islahatlar, korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlər, bu sahədə ixtisaslaşdırılmış qurumlar olan Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın, habelə cinayət təqibi orqanı funksiyasını yerinə yetirən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin müsbət təcrübəsi və əldə etdiyi uğurlar barədə ətraflı məlumat vermişdir.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə qarşılıqlı fəaliyyətin səmərəliliyindən bəhs edilmiş, tərəfləri maraqlandıran digər məsələlər müzakirə edilərək iki ölkənin korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

Tədbirin gündəliyinə uyğun olaraq noyabrın 21-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Monqolustanın Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil Xidməti arasında korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizədə əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması mərasimi baş tutmuşdur. Sənəd Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş İdarə rəisi Kamran Əliyev və Monqolustanın Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil İdarəsinin baş direktoru Enkjargal Kurelsuk tərəfindən imzalanmışdır. İmzalanma mərasimində hər iki tərəf sənədin məlumat və təcrübə mübadiləsi baxımından əhəmiyyətini yüksək qiymətləndirmiş, habelə memorandum çərçivəsində əməkdaşlığın gələcək istiqamətlərini müzakirə edərək korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarda vahid mövqedən çıxış etmək barədə razılığa gəlmişlər.

Nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında müasir proqram təminatı ilə təchiz edilmiş “161-Qaynar xətt” əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi, əməliyyatların idarə edilməsi mərkəzi, kriminalistika otağı, müxtəlif səviyyəli konfransların və tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş iclas zalları, normativ-hüquqi aktlarla zəngin və digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana ilə yaxından tanış olmuş, onlara korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilmiş tədbirləri əks etdirən jurnallar təqdim edilmişdir.

Səfər çərçivəsində qonaqlar həmçinin həyata keçirilən genişmiqyaslı islahatların tərkib hissəsi kimi dövlət xidmətlərinin əlaqələndirilmiş şəkildə "vahid məkan" prinsipi əsasında təqdim olunduğu "ASAN xidmət" modeli, məhkəmə və prokurorluq orqanlarının infrastrukturunun müasirləşdirilməsi istiqamətində aparılan işlərlə də tanış olmuşlar.

5 saylı Bakı “ASAN xidmət” mərkəzinə gələrək mərkəzin fəaliyyəti və vətəndaşlara göstərilən xidmət növləri ilə ətraflı tanış olan nümayəndə heyəti dövlət orqanlarının hüquqi xidmətlər göstərməsində vətəndaşların məmnunluğuna, şəffaflığın təmin edilməsinə, korrupsiya hallarının istisna olunmasına, müasir texnologiyaların tətbiqinə, məmur-vətəndaş təmas nöqtələrinin minimuma endirilməsinə istiqamətlənmiş mərkəzlərin fəaliyyətini təqdirəlayiq hesab etmişlər.

Nümayəndə heyəti Nərimanov rayon məhkəməsi və Sumqayıt şəhər prokurorluğunun yeni inzibati binaları ilə tanış olmuş, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə aparılan genişmiqyaslı islahatları, hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülmüş işləri və əməkdaşlar üçün yaradılmış şəraiti yüksək qiymətləndirmişlər.

Səfəri zamanı qonaqlar ölkəmizin tarixi və mədəni abidələri, o cümlədən Bakının müasir rəmzlərindən olan Heydər Əliyev Mərkəzi və "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğu ilə də yaxından tanış olmuşlar. Paytaxtın müasir görünüşü onlarda xoş təəssürat və böyük maraq doğurmuşdur.

Azərbaycan Respublikasının prokurorluq orqanları korrupsiyaya qarşı mübarizə sahəsində səylərin birləşdirilməsi və qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə bundan sonra da beynəlxalq tərəfdaşlarla əməkdaşlığını davam etdirəcək və imzalanmış Anlaşma Memorandumu əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə öz müsbət töhfəsini verəcəkdir.

**Baş Prokurorluq**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

## Baş prokuror Ağdaş rayonunda vətəndaşları qəbul edib



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov oktyabrın 26-da Ağdaş rayon prokurorluğunun inzibati binasında Mingəçevir şəhər, Ağdaş, Yevlax, Bərdə, Zərdab və Ucar rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Ağdaş rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda bölgədə yaşayan 24 vətəndaşın müraciəti dinlənilib.

## Baş prokuror Tərtər rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov noyabrın 29-da Tərtər rayon prokurorluğunun inzibati binasında Tərtər, İmişli, Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, Laçın və Xocavənd rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Tərtər rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda bölgədə yaşayan 26 vətəndaşın müraciəti dinlənilib.

## Baş prokuror Xızı rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov dekabrın 15-də Xızı rayon prokurorluğunun inzibati binasında Sumqayıt şəhər, Xızı, Abşeron, Qubadlı və Zəngilan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Xızı rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda bölgədə yaşayan 22 vətəndaşın müraciəti dinlənilib.

***

Qəbullar zamanı qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib. Vətəndaşların müraciətlərinin bir qismi yerində həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

**Baş Prokurorluq**

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Azərbaycan Prokurorluğu - bir əsrlik inkişaf tarixi" kitabının təqdimatı keçirilib



Dekabrın 19-da Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyi münasibətilə hazırlanmış "Azərbaycan Prokurorluğu - bir əsrlik inkişaf tarixi" adlı kitabın təqdimatı keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin, Konstitusiya və Ali Məhkəmələrin, Ədliyyə, Daxili İşlər nazirliklərinin, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri və Baş Prokurorluğun idarə və şöbə rəisləri iştirak ediblər.

Kitabda Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə təsdiq edilmiş prokurorluğun keçdiyi inkişaf yoluna nəzər salınmaqla, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının tərkib hissəsi kimi prokurorluq orqanlarında aparılan islahatlardan, görülən işlərdən, hüquqi dövlət quruculuğunda prokurorluğun iştirakından bəhs olunur.

Təqdimat mərasimində çıxış edən Baş prokurorun müavini Namiq Əsgərov kitabın ərsəyə gəlməsində xidməti olan şəxslərə minnətdarlığını ifadə edərək əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan müdrik dövlətçilik siyasəti nəticəsində hüquq mühafizə orqanlarının fəaliyyətinin beynəlxalq standartlar səviyyəsində təkmilləşdirilməsi, o cümlədən yüz illik tarixi olan prokurorluq orqanlarının tarixi, inkişafı və fəaliyyət istiqamətləri barədə tədbir iştirakçılarına ətraflı məlumat verib, prokurorluğun Azərbaycanda hüquqi dövlət quruculuğu prosesində rolunun, ölkənin hüquq sistemində yerinin öyrənilməsi baxımından kitabın xüsusi əhəmiyyətini vurğulayıbdır.

Baş Prokurorluğun Hüquqi təminat idarəsinin rəisi Natiq Hüseynov çıxışında kitabda Azərbaycan Prokurorluq orqanlarının Xalq Cumhuriyyəti dövründə, sovetlər dönəmində və müstəqillik illərində fəaliyyətinin təhlili, əvvəllər nəşr edilmiş kitablarla müqayisədə tətbiq edilmiş yeniliklər, kitabda ilk dəfə olaraq tədqiq edilmiş mənbələr və tarixi sənədlər haqqında ətraflı məlumat verib.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramov kitabın əhəmiyyətindən danışaraq əks olunan məlumatların gələcək nəslə töhfə verəcəyinin əminliyini ifadə edib. Prokurorluğun tarixində bir çox yubileylərin olmasını, lakin belə bir kitabın ilk dəfə çap olunmasını xüsusi qeyd edərək bu münasibətlə prokurorluğun rəhbərliyini təbrik edib, nəşrin ərsə gəlməyində əməyi olan hər bir şəxsə təşəkkürünü bildirib.

Mərasimdə iştirak edən qonaqlar və Baş Prokurorluğun məsul şəxsləri "Azərbaycan Prokurorluğu – bir əsrlik inkişaf tarixi" kitabının işıq üzü görməsini prokurorluğun həyatında əlamətdar hadisə kimi qiymətləndirərək, kitabda prokurorluğun fəaliyyətinin bütün istiqamətlərinə dair müfəssəl və dəqiq məlumat əks etdirildiyindən, nəfis və mükəmməl şəkildə hazırlanmış bir vəsait olaraq prokurorluq və digər hüquq-mühafizə orqanları işçiləri, prokurorluğun fəaliyyəti ilə maraqlanan oxucular və geniş hüquq ictimaiyyəti üçün faydalı məlumat mənbəyi olacağına əminlik ifadə olunub.

**Baş Prokurorluq**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müasir siyasi və iqtisadi idarəetmə metodlarının vəhdəti şəklində həyata keçirilən dayanıqlı islahatlar kursunun prioritetlərindən biri kimi son illər ölkəmizdə biznes və investisiya mühitinin təkmilləşdirilməsi prosesində böyük nailiyyətlərə imza atılır. Bu istiqamətdə sərgilənən siyasi iradənin məntiqi nəticəsi kimi respublikamızın yerli və xarici sahibkarlar üçün əlverişli məkana çevrilməsi dünya birliyi tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilməklə Azərbaycanı bir daha beynəlxalq miqyasda qabaqcıl inkişaf modelinə sahib olan bir ölkə kimi tanıtmaqdadır.

Görülmüş tədbirlərin davamı kimi dövlət başçısının "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" 2017-ci il 28 dekabr tarixli Fərmanına əsasən Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaradılması digər sahələr kimi bu sektorda da dövlət idarəçiliyinin təkmilləşdirilməsinə əlverişli zəmin yaratmaqla ölkədə investisiya və biznes mühitinin daha da yaxşılaşdırılmasına, xüsusilə özəl sektorun mühüm hissəsini təşkil edən kiçik və orta sahibkarlığın ölkə iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətliliyinin artırılmasına verilən dövlət təminatının etibarlılığını daha da gücləndirmişdir.

Mövcud müsbət tendensiya eyni zamanda, dövlətin bu sahədə fəaliyyətinə kölgə sala biləcək neqativ hallara, o cümlədən korrupsiya hüquqpozmalarına qarşı mübarizənin kəsərliliyinin artırılmasını da aktual məsələyə çevirir.

Qeyd edilən zərurətdən irəli gələrək, Agentliyin digər dövlət qurumları ilə qarşılıqlı əməkdaşlığının qurulması çərçivəsində cari il oktyabrın 9-da Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında hər iki qurumun rəhbər vəzifəli şəxslərinin iştirakı ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında sahibkarların hüquqlarının müdafiəsi sahəsində əməkdaşlığa və qarşılıqlı fəaliyyət göstərilməsinə dair Anlaşma Memorandumunun imzalanması mərasimi baş tutmuşdur.

Tədbiri giriş sözü ilə açan Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev ilk növbədə iki qurum arasında imzalanan əməkdaşlıq memorandumunun əhəmiyyətinə toxunaraq dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə reallaşdırılan siyasi, iqtisadi və institusional islahatların maliyyə intizamının gücləndirilməsi, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsində dövlət orqanları və digər qurumlarla əməkdaşlığın əhəmiyyətini vurğulamışdır. Kamran Əliyev hazırkı sənədin imzalanmasının istər tərəflər arasında sahibkarlığın inkişafına əngəl törədə biləcək korrupsiya hüquqpozmalarının aşkar edilməsi və araşdırılması, istərsə də başqa əməkdaşlıq istiqamətləri kontekstindən əvəzsiz rola malik olduğunu bildirmiş, yeni sazişin cəmiyyətin və dövlətin maraqlarına xidmət edəcəyindən əminliyini ifadə etmişdir.

Həmçinin, çıxışında sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyinin daha da gücləndirilməsi ilə bağlı Prezident cənab İlham Əliyevin Nazirlər Kabinetinin 8 iyul 2018-ci il tarixli iclası zamanı verdiyi göstəriş və tapşırıqları xatırladan K.Əliyev, bu mühüm sahədə tərəflərin qanunla müəyyən edilmiş tələblər səviyyəsində qurulacaq birgə fəaliyyətinin dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrasına ciddi töhfə verəcəyini vurğulamışdır.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov çıxış edərək, ölkəmizdə kiçik və orta biznesin inkişafını stimullaşdıran tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması və dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması kimi mühüm komponentləri əhatə edən əlverişli hüquqi zəmin və sağlam iqtisadi mühit yaradılmasının sevindirici hal olduğunu qeyd etmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda həyata keçirilən mütərəqqi sosial-iqtisadi və hüquqi islahatlar çərçivəsində rəhbəri olduğu qurum qarşısında olduqca mühüm vəzifələr qoyulduğunu bəyan edən O.Məmmədov agentlik tərəfindən ölkədə kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, onlara müvafiq xidmətlərin göstərilməsi, habelə dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsinin və tənzimlənməsinin həyata keçirilməsi zamanı qarşıya çıxa biləcək hər növ qanun pozuntularının qarşısının alınması yönündə Baş İdarə, eləcə də digər aidiyyəti dövlət qurumları ilə əməkdaşlığın bu sahənin inkişafına xidmət edəcəyini vurğulamış, birgə fəaliyyət yönümlü əlaqələrin daha da genişləndirilməsi üçün bütün səylərin səfərbər ediləcəyini bildirmişdir.

İmzalanma mərasimindən sonra mətbuat nümayəndələrinin sualları cavablandırılmışdır.

**Baş prokuror yanında Korrupsiyaya
qarşı Mübarizə Baş İdarəsi**

# Baş Prokurorluğun nümayəndəsi Bakıda keçirilən İkinci Avrasiya Hüquq Qurultayında iştirak edib

Dekabrın 17-də Türkiyə Hüquq Platforması və Azərbaycan Hüquqşünaslar Konfederasiyasının təşkilatçılığı ilə Bakıda ikinci Avrasiya Hüquq Qurultayı işə başlayıb.

Tədbirdə 40 ölkədən 250 nümayəndə iştirak edib.

Türkiyə Hüquq Platformasının sədri Ahmet Akcan tədbiri giriş nitqi ilə açaraq, Türkiyə ilə Azərbaycan arasında hüquq sahəsində əlaqələrin inkişaf səviyyəsinin məmnunluq doğurduğunu bildirib. Qeyd edib ki, 2014-cü ildə Türkiyə-Azərbaycan hüquq platformasının yaradılması iki ölkə arasındakı yaxşı əlaqələrin nəticəsidir.

Birinci Avrasiya Hüquq Qurultayının 2014-cü ildə Bosniya-Herseqovinanın paytaxtı Sarayevoda keçirildiyini xatırladan Ahmet Akcan bildirib ki, həmin tədbir çərçivəsində birlikdə yaşamaq mədəniyyəti mövzusu haqqında müzakirələr aparılıb. O, bu il Bakıda "beynəlxalq ədalət üçün beynəlxalq hüquq" mövzusunda keçirilən ikinci Avrasiya Hüquq Qurultayında insanlığa qarşı cinayətlərlə, terrorizmlə mübarizə kimi məsələlərin müzakirə ediləcəyini deyib.

Ədliyyə nazirinin müavini Azər Cəfərov çıxışında Qurultayın əhəmiyyətindən bəhs edərək deyib: "Avrasiya Hüquq Qurultayı məhz Azərbaycan Xalq Cümhuriyyətinin, həmçinin Azərbaycan ədliyyə sisteminin qurulmasının 100 illiyinin qeyd olunduğu bir zamana təsadüf edir". Türkiyə-Azərbaycan əlaqələrinin bütün sahələrdə inkişaf etdiyini qeyd edən nazir müavini bildirib ki, Sovet İttifaqı dövründə Azərbaycanda hüquq sistemində qanunun aliliyi təmin olunmurdu və hüquqları təmin edən müstəqil məhkəmə hakimiyyəti mövcud deyildi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə demokratik cəmiyyətə xas Məhkəmə-Hüquq Şurası, məhkəmə-hüquq sistemi yaradılıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilib. Qanunvericilik əsaslı surətdə yenilənib, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilib, müvafiq infrastruktur konseptual baxımdan müasirləşdirilib. Bu gün də davamlı xarakter daşıyan məhkəmə islahatları Avropa Şurası, Avropa İttifaqı, Dünya Bankı və digər mötəbər beynəlxalq təşkilatlar tərəfindən təqdir olunur. Hakimlərin seçimində tətbiq edilən prosedurlar Avropa Şurası tərəfindən digər dövlətlərə tövsiyə edilir.

Azər Cəfərov diqqətə çatdırıb ki, beynəlxalq təşkilatların fəaliyyətində bəzən beynəlxalq hüquq prinsiplərinin gözlənilməməsinə, pozulan insan hüquqlarının bərpasının sonadək nail olunmamasına, ikili standartların tətbiqinə rast gəlinir. "Məsələn, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə erməni silahlı qüvvələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılması açıq şəkildə tələb olunur. Lakin işğalçı ölkə bu qətnamələrin tələblərinin yerinə yetirilməsinə məcbur edilmir. Buna oxşar sənədlər Avropa Şurası, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar tərəfindən də qəbul edilib", - deyə nazir müavini söyləyib.

Beynəlxalq Hüquqşünaslar Birliyinin sədri vəkil Necati Ceylan deyib ki, bu Qurultay Avrasiya və İslam ölkələri ilə bağlı günümüzün əsas mövzusunu əhatə edir. Beynəlxalq Hüquqşünaslar Birliyi barədə məlumat verən sədr deyib ki, bu təsisat 40 ölkədən yüzlərlə hüquqşünası birləşdirən, dünyada hüququn, insan haqlarının və ədalətin bərqərar olmasına töhfə verən qeyri-hökumət təşkilatıdır. Təşkilat dünyada ədalətin, hüququn, bəşəri dəyərlərin qorunması istiqamətində fəaliyyət göstərir. Dünyada ədalətsizliklərin olduğunu təəssüflə qeyd edən Necati Ceylan bildirib ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan çox insan evsiz-eşiksiz qalsa da, bu ədalətsizliyə beynəlxalq birlik tərəfindən hələ də lazımi qiymət verilmir.

Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri, Azərbaycan Hüquqşünaslar Konfederasiyasının sədri Əli Hüseynli bildirib ki, ölkəmiz Cənubi Qafqaz regionunun ən inkişaf etmiş, güclü

dövlətidir. Eyni zamanda, Azərbaycan Avrasiya bölgəsində həyata keçirilən iqtisadi, siyasi, mədəni əlaqələrdə həm də vasitəçi rol oynayır. Bu, Prezident İlham Əliyevin son illərdə həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir. Əgər ölkələrdə qanunun aliliyi təmin olunmasa, ədalət mühakiməsi həyata keçirilməsə, siyasi, mədəni və iqtisadi inkişaf da olmaz.

"Azərbaycan torpaqlarının 27 ildir işğal altında qalması ən böyük ədalətsizlikdir", - deyən Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinin hələ də həllini tapmaması, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün şəraitində yaşaması beynəlxalq hüquqa ziddir.

Türkiyə Böyük Millət Məclisinin deputatı Cahid Özkan bu tədbirin bölgənin hüquq və məhkəmə sisteminin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. Bildirilib ki, müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyev qısa vaxtda ölkədə ədaləti, iqtisadi inkişafı, sabitliyi təmin edərək Azərbaycanı dünyanın qibtə etdiyi bir dövlətə çevirib.

Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırov bu tədbirin bütövlükdə region üçün böyük bir hadisə olduğunu deyib. O, bildirib ki, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası öz beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi istiqamətində çoxşaxəli fəaliyyət həyata keçirməkdədir. Qurultayın əsas məqsədlərindən biri də məhz eyni coğrafiyada yaşayan, ortaq mədəni və tarixi dəyərləri olan cəmiyyətlərin bir-birinə həm ictimai, həm də dövlətlər səviyyəsində yaxınlaşdırılmasıdır.

Türkiyə ədliyyə nazirinin müavini Yıldız Səfərinoğlu qeyd edib ki, qurultay fərqli coğrafiyalarda yaşayan, bənzər problemlərə məruz qalan, onları həll etmək üçün çalışan hüquqşünasların bir araya gəlməsi, fikir mübadiləsi aparması baxımından böyük əhəmiyyətə malikdir. Türkiyə-Azərbaycan əlaqələrinin hər zaman yüksək səviyyədə olduğunu deyən Türkiyə ədliyyə nazirinin müavini regionda sülhün və təhlükəsizliyin təmin olunmasında ölkələrimizin həmrəyliyinin xüsusi rol oynadığını vurğulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri Çingiz Əsgərov Ermənistanın işğalçılıq siyasəti nəticəsində qaçqın və məcburi köçkün düşmüş, əsir və girov götürülmüş azərbaycanlıların pozulmuş hüquqlarından danışıb.

"Beynəlxalq hüquq və silahsızlanma" mövzusunda çıxış edən Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramov silahlanmanın tarixindən başlayaraq silahsızlanmanın fəlsəfəsindən, təminat vasitələrindən, bu vasitələrin işləməməsi səbəbindən, etimadsızlıqdan, real təhlükənin mövcudluğundan və məlumat verib.

Nazir Bayramov bildirib ki, "İnsan tərəfindən yaradılan texnologiyalar planetdə onun mövcudluğunu əhəmiyyətli dərəcədə azaldan mənfi nəticələrə aparır. Bəşəriyyət Yer kürəsində həyatı və sivilizasiyası dəfələrlə məhv etməyə və onun evolyusiyasını milyard illər geri atmağa qadir nüvə potensialı toplamışdır. Silahların təkmilləşməsi insan cəmiyyətinin inkişafı ilə paralel gedib. Cəmiyyətin hər bir tarixi inkişaf mərhələsinə uyğun silahlar da olub. Bir çox hallarda silahların təkmilləşdirilməsi cəmiyyətin inkişafının digər sahələrini üstələyib Paradoksal görünsə də, zorakılıq, xüsusən də silahlı zorakılıq insan sivilizasiyasının proqresində inkişafın mühərriki kimi mühüm rol oynayıb. Təəssüflə qeyd olunmalıdır ki, silahsızlanma ilə bağlı beynəlxalq öhdəliklərin qəbul edilməsi, implementasiyası, icrası problemlərlə müşayiət olunur. Son zamanlar bu tendensiyanın güclənməsi müşahidə edilir. Bu sahədə mövcud olan problemlərin ciddiliyi silahların dağıdıcı effektindən, onların yayılmasının qarşısının alınmasının çətinliyindən asılıdır. Nüvə silahının yayılmasının qarşısının alınması ən ciddi problemdir. Buna baxmayaraq, bu günə kimi belə silahın əldə edilməsinə bilavasitə qadağa hələ qoyulmayıb. Bir şeyi nəzərə almaq lazımdır ki, bunların hamısı formadır, problemin mahiyyəti isə dövlətlərin arasında həmrəyliyin olmamasıdır. Silahsızlanma məsələlərində bu özünü daha qabarıq göstərir. Onlar özlərinin təhlükəsizliklərini silahsızlanmada deyil, daha çox silahlanmada görürlər. Bunun səbəbi odur ki, beynəlxalq təminatlar işləmirlər, pozulurlar, onların yerinə yetirilməsinin effektiv mexanizmləri isə mövcud deyildir. Nüvə silahının tətbiqini absurd, irrasional deyil, əvvəlcədən düşünülmüş, rasional bir addım kimi atılmasını yaxınlaşdıran hüquqi əsaslar da yaradılmaqdadır. Nə qədər narahatedici olsa da, vəziyyət ümidvericidir. İnsan əqli silahlanmanın bundan sonra davam etdirilməsinin nəinki təhlükəli oyun olduğunu həm də mənasız olduğunu yaxşı dərk edir".

Qurultay işini panel müzakirələrlə noyabrın 19-dək davam etdirib.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# "Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək" layihəsinə prokurorluq səmərəli töhfə verir




"Yaxşı idarəçilik üçün Tərəfdaşlıq" çərçivəsində həyata keçirilən "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun Azərbaycanda tətbiqi" adlı Avropa İttifaqının və Avropa Şurasının birgə proyekti üzrə "Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək" yeni layihəsi təsdiq edilib.

Layihənin əsas məqsədi insan hüquqlarının müdafiəsinə yönəlmiş milli fəaliyyət planlarının hazırlanması və həyata keçirilməsində Azərbaycana yardım etmək, cinayət qanunvericiliyini Avropa və beynəlxalq insan hüquqları normalarına uyğunlaşdırmaq, hüquqşünasların və milli qurumların potensialının artırılmasına dəstək vermək və təlim tədris tədbirlərini təşkil etməkdən ibarətdir.

Layihənin həyata keçirilməsi üçün beynəlxalq və milli – Azərbaycan Respublikası Milli Məclisi, Ədliyyə Nazirliyi, Konstitusiya məhkəməsi, Ali məhkəmə, Prokurorluq, Vəkillər Kollegiyasının nümayəndələrindən ibarət işçi qrupu yaradılıb. Prokurorluqdan Mərkəzin rəis müavini Günay Əyyubova işçi qrupunun üzvü seçilib.

İşçi qrupunun birinci görüşü oktyabrın 2-i Bakı şəhərində keçirilib.

Tədbirdə beynəlxalq ekspertlərin təqdimatları keçirilmiş, layihənin vəzifələri, əsas mərhələləri, yekun sənədlərin müəyyənləşdirilməsi ətrafında diskussiyalar aparılıb. Ekspert-analitik hissədə cinayət ədliyyə sistemi islahatının əsas prioritetlərinin müəyyən olunması, cinayət ədliyyə sisteminin islahatı üzrə təklif edilən mümkün tədbirlərin xarakterinin müəyyən olunması probleminə ümumi yanaşmanın hazırlanması, müəyyən sahələrdə ekspertlərin təhlil üçün məsuliyyət sahələrinin konkretləşdirilməsi müzakirə olunub. Yekunda milli ekspertlər qarşısında cinayət qanunvericiliyinin təhlil edilməsi, cinayət ədliyyə sisteminin təkmilləşdirilməsinə yönəlmiş cinayət qanunvericiliyinə təkliflər paketinin hazırlanması vəzifəsi qoyulub.

Dekabrın 20-də Bakı şəhərində keçirilən işçi qrupunun ikinci görüşündə prokurorluq orqanının təmsilçisi tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyində olan mövcud problemlər və onların aradan qaldırılması ilə bağlı Cinayət Məcəlləsində konkret dəyişikliklərin edilməsi barədə əsaslandırılmış layihələr təqdim edilib.

İşçi qrupu fəaliyyətini 2019-cu ildə də davam etdirəcək.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Lənkəran və Göyçay rayon prokurorluqlarında «İnzibati xətalar haqqında işlər üzrə prokuror nəzarəti həyata keçirilərkən təcrübədə çətinlik yarada bilən məsələlər və onların həlli yolları» mövzusunda seminar keçirilib



Baş Prokurorluğun Hüquqi təminat idarəsinin təşkilatçılığı ilə dekabrın 17-də Lənkəran, 21-də Göyçayda «İnzibati xətalar haqqında işlər üzrə prokuror nəzarəti həyata keçirilərkən təcrübədə çətinlik yarada bilən məsələlər və onların həlli yolları» mövzusunda seminar keçirilmişdir.

Lənkəran rayon prokurorluğunda keçirilmiş seminarda Astara, Biləsuvar, Yardımlı, Lerik, Lənkəran, Masallı, Neftçala, Salyan, Cəlilabad rayon, Lənkəran hərbi prokurorluqlarının, Göyçay rayon prokurorluğunda keçirilmiş seminarda Mingəçevir şəhər, Ağdaş, Bərdə, Göyçay, Qəbələ, Kürdəmir, Yevlax, İsmayıllı, Ucar və Ağsu rayon prokurorluqlarının müvafiq işçiləri iştirak etmişlər.

Baş Prokurorluğun Hüquqi təminat idarəsinin böyük prokuroru Mahir Tağıyev yeni İnzibati Xətalar Məcəlləsində müəyyən edilmiş prokuror nəzarətinin mexanizmləri, prokurorun inzibati xətalar haqqında işlər üzrə icraat zamanı vəzifə və funksiyaları, prokurorun inzibati xəta haqqında məlumatlara baxması, inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar və ya inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında qərardadların qəbul edilməsi səlahiyyətləri, inzibati icraatın qanunsuz dayandırılması hallarının qarşısının alınması üçün müəyyən edilən prosessual vasitələrdən istifadə etmək, protest vermək, inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və vəsatət vermək və digər hüquqları barədə danışmışdır.

İnzibati xətalara dair işlər üzrə prokurorun protest vermək hüququ ilə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin şərh edilməsinə dair» 31 yanvar 2017-ci il tarixli qərarı təfsir edilmişdir.

İnzibati Xətalar Məcəlləsinin icrasının düzgün təşkilinin və həyata keçirilməsinin təmin olunması üçün Baş Prokurorluq üzrə «İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin təşkili barədə» 03.03.2016-cı il tarixli 10/14 nömrəli əmr barədə məlumat verilmişdir. «İnzibati xətalar haqqında qanunvericiliyin tətbiqi və icrasına prokuror nəzarətinin həyata keçirilməsinə dair» metodiki vəsaitin hazırlanaraq artıq nəşr edildiyi diqqətə çatdırılmışdır. Metodik vəsaitdə inzibati xətalar haqqında işlər üzrə icraat zamanı qanunvericiliyin tətbiqinə və icrasına prokuror nəzarətinin həyata keçirilməsinin səmərəli təşkili, təcrübədə çətinlik yaradan, fikir ayrılığına səbəb olan məsələlərin həlli yolları, qanunun müddəalarının düzgün başa düşülməsi və bir sıra sual doğuran məqamlarla bağlı müvafiq tövsiyələrin yer aldığı bildirilmişdir.

Baş Prokurorluğun Hüquqi təminat idarəsinin prokuroru Vüsal Mehrəliyev çıxış edərək inzibati xətalar haqqında işlər üzrə prokuror nəzarəti həyata keçirilərkən təcrübədə yaranan çətinliklər, onların həlli yolla barədə danışmışdır.

Seminar iştirakçıları ilə fikir mübadiləsi aparılmış, təcrübədə rastlanan digər çətinliklər barədə məlumatlar dinlənilmiş, iştirakçıların sualları cavablandırılmış, fikirlərinə qanunun tələbinə uyğun olaraq aydınlıq gətirilmişdir.

**Baş Prokurorluğun Hüquqi təminat idarəsi**

# Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən müxtəlif sahələr üzrə seminarlar təşkil olunub

## Mülki müdafiə məsələləri üzrə məşğələ keçirilib



Oktyabr 12-də Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi və Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə idarəsinin təşkilatçılığı ilə Baş Prokurorluqda xilasetmə, yanğınsöndürmə, sanitar - hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin üzvlərinə mülki müdafiə üzrə məşğələ keçirilmişdir.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin məxfiçilik və mülki müdafiə məsələləri üzrə prokuroru Yadigar Aslanov və Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili baş idarəsinin əməkdaşı İlham Söhbətov çıxış etmişlər.

Tədbirdə hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin fövqəladə hallar zamanı yerinə yetirdikləri hərəkətlərin məqsəd və mahiyyəti, aralarında təşkil edilən əlaqələndirmənin zəruriliyi, dəstə komandirlərinin əsas vəzifələri, ilkin qərarların qəbul edilməsi qaydası və digər taktiki məsələlər barədə məlumat verilmiş, mülki müdafiə dəstələrinin şəxsi heyətinin qarşısına qoyulmuş funksional vəzifələrə aid nəzəri biliklərə yiyələnməsinin vəziyyəti yoxlanılmışdır.

## "Arxiv işinin təşkili" mövzusunda seminar keçirilib



Oktyabrın 8-də Balakən rayon prokurorluğunda "Arxiv işinin təşkili" mövzusunda seminar keçirilmişdir.

Seminarda Balakən, Zaqatala, Şəki, Qax, Oğuz və Qəbələ rayon prokurorluqlarının işçiləri iştirak etmişlər.

Müraciətlərə baxılması idarəsinin böyük prokuroru vəzifəsini icra edən – arxiv mudiri Şahin Şükürov prokurorluq orqanlarında arxiv fondunun formalaşdırılması, mühafizəsi, istifadəsi və arxivlərin fəaliyyəti barədə məlumat vermiş, "Azərbaycan Respublikası Prokurorlugu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın,

"Azərbaycan Respublikası Prokurorluğu orqanlarında sənədlərin saxlanılması müdddətlərinə dair Siyahı"nın müvafiq müddəalarını şərh etməklə arxiv işinin təkmilləşdirilməsinə dair tövsiyələr vermişdir. Rayon prokurorluqlarının ekspert komissiyaları tərəfindən tərtib edilən sənədlərin məhv edilməsinə dair aktlarda daha cox rastlanan nöqsanlar təhlil edilib izahlar verilmiş, prokurorluq üzrə hüquqi aktların tələblərinin öyrənilməsinin və məhv edilməli olan sənədlərin vaxtında ayrılmasının zəruriliyi vurğulanmışdır.

Tədbirin sonunda suallar cavablandırılmışdır.

## "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlıq işinin təşkili» mövzusunda seminar keçirilib

Noyabrın 16-da Quba rayon prokurorluğunda «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlıq işinin təşkili» mövzusunda seminar keçirilmişdir.



Seminarda Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayon prokurorluqlarının məsul işçiləri və dəftərxana müdirləri iştirak etmişlər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Toğrul Əhmədov «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat»ın müddəalarını şərh edərək prokurorluq orqanlarında kargüzarlıq işinin təşkili – prokurorluq orqanlarına daxil olmuş vətəndaşların müraciətlərinin qəbulu və qeydiyyata alınması, müraciətlərə baxılması və onların cavablandırılması, vətəndaşların qəbulu, müraciətlərə dair sənədlərin saxlanılması, müraciətlərlə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi, sənədlərin dövriyyəsinin (hərəkətinin) təşkili, daxil olan sənədlərin qəbulu, ilkin işlənməsi, qeydiyyatı, və uçotu, sənədlərə baxılması, icra edilməsi və göndərilməsi, sənədlərin icrasına nəzarət, sənədlərin tərtib edilmə qaydaları, komyuter üsulu ilə hazırlanan sənədlərə olan tələblər, sənədlərin çoxaldılması və surətlərinin çıxarılması qaydaları, sənədlərin tərcümə edilməsi, işlərin nomenklaturunun, işlərin və nəzarət icraatlarının tərtib edilməsi, sənədlərin dəyərləndirilməsinə dair ekspertiza, sənədlərin saxlanılmasının təmin olunması, möhür və ştampların uçotu, saxlanılması və istifadə qaydaları barədə danışmış, kargüzarlıq işinin düzgün təşkili və həyata keçirilməsinə dair konkret tövsiyələr vermişdir.

Prokurorluq orqanlarında elektron formada aparılan kargüzarlıq işinin qüvvədə olan qanunvericiliyin və «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat»ın tələblərinə uyğun olaraq həyata keçirilməsinin zəruriliyi göstərilməklə, kargüzarlığın aparılması işində tətbiq edilən müasir informasiya-kommunikasiya vasitələrinin əhəmiyyəti vurğulanmış, son illərdə prokurorluq orqanlarında bu sahədə görülən işlər barədə məlumat verilmişdir. Təcrübədə yaranan problemlər, tabe prokurorluqların fəaliyyətində daha çox rastlanın nöqsanlar təhlil edilmişdir.

Sonda suallar cavablandırılmışdır.

## «Vətəndaşların qəbulu işinin təşkili» mövzusunda seminar keçirilib



Oktyabrın 15-də İsmayıllı, noyabrın 19-da Yevlax rayon prokurorluqlarında «Vətəndaşların qəbulu işinin təşkili» mövzusunda seminarlar keçirilmişdir.

İsmayıllı prokurorluğunda keçirilən seminarda Qəbələ, Qobustan, Oğuz, İsmayıllı, Göyçay, Ağsu və Şamaxı rayon prokurorluqlarının işçiləri, Yevlax rayon prokurorluğunda təşkil edilən seminarda Mingəçevir şəhər, Zərdab, Ucar, Bərdə, Yevlax, Ağdaş və Goranboy rayon prokurorluqlarının işçiləri iştirak etmişlər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin Vətəndaşların qəbulu şöbəsinin böyük prokuroru Yaqut Əliyeva və həmin idarənin prokuroru vəzifəsini icra edən Rəşad Əsgərov prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə danışıblar. Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» əmrin müddəaları şərh edilmişdir. Yuxarı və tabe prokurorluqlara daxil olan müraciətlərlə işin xüsusiyyətləri, vətəndaşların həm prokurorluqda, həm də yaşayış yerlərində qəbulunun prosedurları haqqında danışılmış, qəbulların planlaşdırılması, təşkili və həyata keçirilməsinin xüsusiyyətləri, rayon prokurorlarının və onların vətəndaşların qəbuluna məsul olan köməkçilərinin vəzifələri təhlil edilmişdir. Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin düzgün təşkili və həyata keçirilməsi, təkrar müraciətlərə baxılması proseduru ilə bağlı tövsiyələr verilmişdir. Müraciətlərə baxılması və vətəndaşların qəbulu işində tətbiq edilən müasir informasiya kommunikasiya vasitələrinin əhəmiyyəti vurğulanıb, son illərdə prokurorluq orqanlarında bu sahədə görülən işlər barədə dinləyicilər məlumatlandırılmışdır. “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun əhəmiyyəti barədə danışılaraq onun müddəaları təhlil edilmiş, Qanunun tətbiqi ilə əlaqədar Baş Prokurorluq üzrə müvafiq əmrdə edilən dəyişikliklərin mahiyyəti açıqlanmış, bu dəyişikliklər nəzərə alınmaqla əmrin tələblərinin tətbiqinə dair zəruri tövsiyələr verilmişdir. Təcrübədə yaranan problemlər müzakirə edilmiş, tabe prokurorluqların fəaliyyətində daha tez rastlanın nöqsan və pozuntular təhlil edilmişdir.



Sonda suallar cavablandırılmışdır.

**Baş prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında müxtəlif sahələr üzrə seminarlar keçirilib

## "Dövlət orqanlarının mətbuat xidmətlərinin fəaliyyətinin təşkili" mövzusunda seminar keçirilib



Oktyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada "Dövlət orqanlarının mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili" mövzusunda seminar keçirilib.

Seminarda Naxçıvan Muxtar Respublikası Prokurorluğu da daxil olmaqla muxtar respublikanın dövlət orqanlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə 22 əməkdaşı iştirak ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli seminarı giriş sözü ilə açaraq bildirib ki, bu il mayın 19-da Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili və qarşıda duran vəzifələrlə bağlı keçirilmiş müşavirədə komissiyaya bir sıra tapşırıqlar verilib. Komissiya sədri deyib ki, müşavirədə Ali Məclis Aparatının aid şöbəsi ilə birlikdə dövlət orqanlarının mətbuat xidmətləri əməkdaşlarının peşə vərdişlərinin təkmilləşdirilməsi üçün seminarın keçirilməsi də tapşırılıb. Bugünkü seminarın məqsədi də kütləvi informasiya vasitələri üçün dövlət orqanlarının fəaliyyəti ilə bağlı materialların elmi əsaslarla hazırlanması qaydasını iştirakçıların diqqətinə çatdırmaqdır.

Seminarda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli dövlət orqanlarının mətbuat xidmətləri əməkdaşlarının qarşısında duran vəzifələr barədə çıxış edərək deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına uyğun olaraq muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin fəaliyyətlərinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülüb, müşavirələr keçirilib, fəaliyyətin təşkili ilə bağlı yeni vəzifələr müəyyənləşdirilib. Görülən işlərin davamı olaraq bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ilə birlikdə mətbuat xidməti əməkdaşları üçün seminar keçirilir. Məqsəd ondan ibarətdir ki, mətbuat xidmətləri ilə kütləvi informasiya vasitələri arasındakı əlaqələr davamlı və səmərəli qurulsun, əməkdaşların peşəkarlığı

artırılsın, informasiya-məlumatlandırma işi düzgün həyata keçirilsin. Ülvi Hüseynli mətbuat xidməti əməkdaşlarının fəaliyyətlərinin təşkili ilə bağlı qarşıda duran vəzifələrdən danışıb.

Naxçıvan Dövlət Universitetinin Jurnalistika və kitabxanaçılıq kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyeva "Kütləvi informasiya vasitələri üçün dövlət orqanlarının fəaliyyətləri barədə materialların hazırlanması qaydası" mövzusunda çıxış edərək, press-reliz, çıxış, müsahibə, hesabat, prezentasiya (təqdimat), mətbuat konfransı, brifinq, xüsusi informasiya bülletenlərinin hazırlanmasının qaydaları və şərtləri, habelə ictimaiyyətlə əlaqələrin qurulmasının digər vasitələri haqqında slaydlar vasitəsilə məlumat verib.

Sonda seminar iştirakçıları öz fikirləri ilə bölüşüb, geniş müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## "Saxta istifadəçi adlar, profil və hesablar tərəfindən törədilən təhqir və böhtan cinayəti" mövzusunda seminar keçirilib



Oktyabrın 25-də Naxçıvan Muxtar Respublikası Sədərək rayonunun Sədərək kənd 1 nömrəli tam orta məktəbində Sədərək rayon prokurorluğunun təşkilatçılığı ilə "Saxta istifadəçi adlar, profil və hesablar tərəfindən törədilən təhqir və böhtan cinayəti" mövzusunda seminar keçirilib.

Tədbirdə rayon prokurorluğunun müstəntiqi Elvin Zeynalov bildirib ki, internet vasitəsi ilə sosial şəbəkələrdən istifadə etmək həyatımızın ayrılmaz parçasına çevrilib. Bu sahənin qanuni nizama salmanın məqsədi odur ki, insanların şərəf və ləyaqəti, həyat və sağlamlığı kimi amillər mühafizə altına alınsın. Bu mühafizə altına alma eyni zamanda hüquqi cəmiyyətin ictimai-siyasi sabitliyinin təmin olunmasının da başlıca şərtlərindən biridir. Zaman və məkan baxımından çox rahat istifadə edilən sosial şəbəkə fəaliyyəti bəzən təhlükəli və qanunazidd hərəkətlərlə reallaşdırılır. Qeyd edilən bu qanunazidd və qeyri-əxlaqi davranışlar saxta adlarla açılmış hesablar və saxta profillərdən istifadə etməklə həyata keçirilir. Ona görə də insan və vətəndaş hüquq və azadlıqları baxımından dövlət bu cür əməllərin qarşısını almaq üçün bununla bağlı qanunvericilikdə konkret normalar müəyyən edib. Hər bir şəxsin internetdən istifadə etmək, sosial şəbəkələrdə hesab və ya profil açmaq hüququ vardır. Lakin hər hansı bir şəxsin saxta adla hesab açmaqla və ya profil yaratmaqla qanunun tələbinə zidd hərəkət etməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada onun üçün arzuolunmaz nəticələr səbəb olacaqdır. Demək olar ki, milyonlarla insanın istifadə etdiyi qloballaşmış geniş sahə olan internet məkanında və

sosial şəbəkələrdə bu cür əməllərə yol verilməməsi üçün bunların bilinməsi hüquqi maarifləndirmə baxımından vacibdir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlıq işinin təşkili” mövzusunda seminar keçirilib

Noyabr ayının 8-də Culfa və Ordubad rayon prokurorluqlarının məsul işçiləri və dəftərxana müdirlərinin iştirakı ilə Culfa rayon prokurorluğunda “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlıq işinin təşkili” mövzusunda seminar keçirilib.

Müraciətlərə baxılması şöbəsinin rəisi Nihad Abbasov «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat»ın müddəalarını şərh edərək prokurorluq orqanlarında kargüzarlıq işinin təşkili – prokurorluq orqanlarına daxil olmuş vətəndaşların müraciətlərinin qəbulu və qeydiyyata alınması, müraciətlərə baxılması və onların cavablandırılması, vətəndaşların qəbulu, müraciətlərə dair sənədlərin saxlanılması, müraciətlərlə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi, sənədlərin dövriyyəsinin (hərəkətinin) təşkili, daxil olan sənədlərin qəbulu, ilkin işlənməsi, qeydiyyatı, və uçotu, sənədlərə baxılması, icra edilməsi və göndərilməsi, sənədlərin icrasına nəzarət, sənədlərin tərtib edilmə qaydaları, komyuter üsulu ilə hazırlanan sənədlərə olan tələblər, sənədlərin çoxaldılması və surətlərinin çıxarılması qaydaları, sənədlərin tərcümə edilməsi, işlərin nomenklaturunun, işlərin və nəzarət icraatlarının tərtib edilməsi, sənədlərin dəyərləndirilməsinə dair ekspertiza, sənədlərin saxlanılmasının təmin olunması, möhür və ştampların uçotu, saxlanılması və istifadə qaydaları barədə danışıb, kargüzarlıq işinin düzgün təşkili və həyata keçirilməsinə dair konkret tövsiyələr verib, iştirakçıları maraqlandıran sualları cavablandırıb.

## Etik davranışı ilə bağlı seminar keçirilib

Oktyabrın 3-də Kəngərli, noyabrın 14-də Şahbuz rayon prokurorluqlarında “Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi”nin tələblərindən irəli gələn vəzifələrin və Beynəlxalq Prokurorlar Assosiasiyasının prokurorlar üçün müəyyən etdiyi peşəkar məsuliyyət standartları, prokurorların əsas vəzifələri və hüquqları və Cinayət mühakimə icraatı sistemində prokurorluğun rolu haqqında Avropa Şurası Nazirlər Komitəsinin 6 oktyabr 2000-ci il tarixli 19 saylı Tövsiyələrinin nəzərə alınması” mövzusunda seminar keçirilib.

Qeyd olunub ki, hər bir prokurorluq işçisi “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Qanunu, digər normativ hüquqi aktlarla və Azərbaycan Respublikası Baş Prokurorluğunun 08.02.2008-ci il tarixli geniş Kollegiya iclasında təsdiq edilmiş Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi ilə müəyyənləşdirilən davranış qaydalarına riayət etməli, prokurorluq işçiləri fəaliyyəti dövründə prokurorluq işçilərinin andına sadiq olmalı, xidməti işini və işdən kənar davranışını həmin anda və bu Kodeksə uyğun qurmalıdır.

Seminarda prokurorluq orqanları işçilərinin riayət etməli olduqları davranış, etik normaları, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında, prokurorluq orqanlarında korrupsiyanın və prokurorluq işçilərinin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınmasında onların üzərinə düşən vəzifələr, cəmiyyətdə prokurorluq orqanları işçilərindən gözlənilən davranışın məzmun və dairəsi barədə danışılıb. Qarşıya çıxan suallar cavablandırılıb.

## “Vətəndaşların qəbulu işinin təşkili” mövzusunda seminar keçirilib

Dekabrın 17-də Kəngərli, Şərur və Sədərək rayon prokurorluqlarının məsul işçilərinin iştirakı ilə Kəngərli rayon prokurorluğunda “Vətəndaşların qəbulu işinin təşkili” mövzusunda seminar keçirilib.

Seminarda Muxtar Respublika Prokurorluğunun Müraciətlərə baxılması şöbəsinin böyük prokuroru Həbib Hacızadə tərəfindən Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» əmrin müddəaları şərh edilib. Yuxarı və tabe prokurorluqlara daxil olan müraciətlərlə işin xüsusiyyətləri, vətəndaşların həm prokurorluqda, həm də yaşayış yerlərində qəbulunun prosedurları haqqında danışılıb, qəbulların planlaşdırılması, təşkili və həyata keçirilməsinin xüsusiyyətləri, rayon prokurorlarının və onların vətəndaşların qəbuluna məsul olan köməkçilərinin vəzifələri təhlil edilib. Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin düzgün təşkili və həyata keçirilməsi, təkrar müraciətlərə baxılması proseduru ilə bağlı tövsiyələr verilib. “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun əhəmiyyəti barədə danışılaraq onun müddəaları təhlil edilib. Təcrübədə yaranan problemlər müzakirə edilib, tabe prokurorluqların fəaliyyətində daha tez rastlanan nöqsan və pozuntular təhlil edilib. Verilən suallar cavablandırılıb.

## “Arxiv işinin təşkili” mövzusunda seminar keçirilib

Oktyabrın 11-də Şərur, Kəngərli və Sədərək rayon prokurorluqlarının məsul işçiləri və dəftərxana müdirlərinin iştirakı ilə Şərur rayon prokurorluğunda “Arxiv işinin təşkili” mövzusunda seminar keçirilib.

Müraciətlərə baxılması şöbəsinin prokuroru Pərvanə Hüseynova prokurorluq orqanlarında arxiv fondunun formalaşdırılması, mühafizəsi, istifadəsi və arxivlərin fəaliyyəti barədə məlumat verərək “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimatın”ın və “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında sənədlərin saxlanılması müddətlərinə dair Siyahı”nın müvafiq müddəalarını şərh etməklə arxiv işinin təkmilləşdirilməsinə dair tövsiyələr verib.

Ekspert komissiyaları tərəfindən tərtib edilən sənədlərin məhv edilməsinə dair aktlarda daha cox rastlanan nöqsanlar təhlil edilərək izahlar verilib, prokurorluq üzrə hüquqi aktların tələblərinin öyrənilməsinin və məhv edilməli olan sənədlərin vaxtında ayrılmasının zəruriliyi vurğulanıb, bu sahədə işin düzgün təşkilinə və hayata keçirilməsinə dair konkret tövsiyələr verilib və bu sahədəki fəaliyyətlə bağlı qarşıya çıxan suallar cavablandırılıb.

## Torpaq üzərində mülkiyyət hüququnun pozulmasının hüquqi nəticələri ilə əlaqədar maarifləndirici tədbirlər keçirilib

Dekabrın 11-də Babək, 14-də Şərur, Culfa və Kəngərli rayonlarında, 18-də Naxçıvan şəhərində və Sədərək rayonunda, 19-da isə Ordubad və Şahbuz rayonlarında Rayon (Şəhər) İcra Hakimiyyətlərində yerli icra hakimiyyəti və bələdiyyə sədrlərinin iştirakı ilə torpaqların təyinatı üzrə istifadəsi və mühafizəsi sahəsində görülən işlər müzakirə olunub.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən hazırlanan “Qanunçuluq” televiziya proqramında dekabrın 17-də “Torpaq üzərində mülkiyyət hüququnun təmin edilməsi və bu hüquqların pozulmasının hüquqi nəticələri haqqında” studiya verilişi efirə gedib və yerli mətbu orqanlarda çıxışlar edilib.

Keçirilən tədbirlərdə tabe rayon (şəhər) prokurorları torpaq üzərində mülkiyyət hüququnun pozulmasının hüquqi nəticələri ilə əlaqədar məruzə ilə çıxış ediblər. Qeyd olunub ki, ölkədə torpaqların özbaşına tutulması qanunla qadağan olunur. Ona görə də zəbt edilmiş torpaq sahələri qanunsuz istifadə zamanı çəkilən xərclərin əvəzi ödənilmədən aidiyyəti üzrə geri qaytarılmalıdır. Torpağın mülkiyyətçisinin və ya digər qanuni sahibinin razılığı, yaxud dövlət və bələdiyyə torpağının istifadəyə ayrılması haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş sərəncam olmadan torpaq sahəsini ələ keçirmə torpaq sahəsini özbaşına tutma əməli hesab olunur. Bu zaman həmin şəxs qanunsuz ələ keçirdiyi torpaq sahəsinə faktiki sahiblik etməyə və ya ondan istifadə etməyə başlamış olur. Torpaq sahəsini özbaşına dəyişmə, şəxsin öz mülkiyyətində olan torpaq sahəsini başqa şəxsə məxsus torpaq sahəsi ilə onun razılığı olmadan əvəz etməsidir. Qanunvericiliyə müvafiq qaydada şəxsin istifadəsinə ayrılmış torpaq sahəsi əvəzinə başqa torpaq sahəsini ələ keçirmə də torpaq sahəsini özbaşına dəyişmə hesab edilir. Torpaq sahəsini özbaşına becərmə isə hər hansı torpaq sahəsində onun mülkiyyətçisinin və

ya başqa qanuni sahibinin icazəsi olmadan bitkilərin əkilməsindən, onlara qulluq edilməsindən və ya onları yetişdirməsindən ibarət fəaliyyətdir. Bütün bunlar cinayət qanunvericiliyinə əsasən, məsuliyyətə səbəb olur. Belə ki, qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlama, becərmə və ya dəyişdirmə, yaxud həmin torpaq sahəsini başqa üsullarla özbaşına tutma səkkiz min manatdan on min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti və ya quraşdırma işlərini aparma, bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Qeyd olunan əməllər kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədildikdə isə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Həmçinin həmin əməllər təkrar törədildikdə və ya  şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə isə beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bir məsələ xüsusilə diqqətə çatdırılıb ki, torpaq sahələrində qanunsuz tikinti aparılması qanunvericiliklə qadağan olunur. Torpaqları yaxşılaşdırmaq və onları külək, su eroziyasından və torpaqların münbitliyini pisləşdirən digər proseslərdən mühafizə etmək üçün məcburi tədbirlərin görülməməsinə, torpağın vəziyyətinə zərərli təsir göstərən obyektlərin layihələndirilməsinə, tikilməsinə və istismara verilməsinə, torpaqların dövlət uçotundan, qeydiyyatından gizlədilməsinə və ya kəmiyyətinə və keyfiyyətinə dair məlumatların təhrif edilməsinə, torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsinə, mülkiyyətdə və ya istifadədə (icarədə) olan torpaqların hüdudlarının, mərz nişanlarının məhv edilməsinə, torpaq sahələrində meteoroloji şəbəkələrin və ölçmə vasitələrinin, geodeziya istinad məntəqələrinin sıradan çıxarılmasına, torpaq qanunvericiliyinə riayət edilmədən torpaqların kateqoriyalarının dəyişdirilməsinə və meliorasiya və irriqasiya sistemlərinin sıradan çıxarılmasına görə müəyyən məbləğdə cərimələr tətbiq edilir.

Fiziki və hüquqi şəxslərlə yanaşı, bələdiyyələr də mülkiyyətində olan torpaqların məqsədli təyinatı üzrə istifadə edilməsini təşkil etməli, dövriyyədən əsassız çıxarılmasına yol verməməli, onların mühafizəsi sahəsində qanunla müəyyən edilmiş qaydada tədbirlər görməli, əhalini məlumatlandırmalı, torpağın münbit qatının qorunması və artırılması istiqamətində maarifləndirici tədbirlər həyata keçirməlidirlər. Belə ki, bələdiyyə mülkiyyətində olan torpaqların istifadəsi və mühafizəsi sahəsində idarəçiliyin həyata keçirilməsi bələdiyyələrin müstəsna hüququdur. Bələdiyyə mülkiyyətində olan torpaqların zəbt olunmasının qarşısını vaxtında almayan bələdiyyələrin vəzifəli şəxsləri isə cinayət qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Qeyd olunub ki, cinayət qanunvericiliyinə əsasən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərini pozmaqla vəzifəli şəxs tərəfindən torpaq sahələrini tikinti üçün ayırma, tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə, yaxud barəsində məlumatlandırma icraatı tətbiq edilən tikililərlə bağlı irad təqdim etməmə cinayət məsuliyyətinə səbəb olur.

Vurğulanıb ki, həyat və ruzi mənbəyi olan torpaqlardan səmərəli istifadə olunması, onların qorunması hər birimizin vətəndaşlıq borcudur. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikada bu istiqamətdə lazımi tədbirlər görülür. Xüsusilə əkinçiliyin inkişafı üçün dövlət proqramlarının qəbul olunması, torpaq mülkiyyətçilərinə maliyyə dəstəyinin göstərilməsi, güzəştli kreditlərin verilməsi, aqrolizinq xidmətinin təşkili torpaqlardan səmərəli istifadə və bol məhsul istehsalı üçün zəmin yaradır. Hər bir torpaq mülkiyyətçisi yaradılan şəraitdən düzgün bəhrələnməli, ölkəmizin tükənməz sərvəti olan torpaqlardan məqsədyönlü istifadə edərək həm öz güzəranını yaxşılaşdırmalı, həm də iqtisadi inkişafa öz töhfəsini verməlidir. Unutmamalıyıq ki, torpaqlardan təyinatına uyğun istifadə gələcək nəsillərin rahat yaşayışı üçün vacib şərtdir.

Sonda bütün torpaq mülkiyyətcilərindən və istifadəçilərindən bu qiymətli sərvətimizdən düzgün istifadə olunması və torpaq qanunvericiliyinin tələblərinə ciddi riayət edilməsi tövsiyə olunub.

**Naxçıvan Muxtar Respublikasının Prokurorluğu**

# Baş Prokurorluğun nümayəndə heyəti korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın davam etdirilməsi məqsədilə Avstriyanın Rust şəhərində təşkil olunan beynəlxalq tədbirdə iştirak edib




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar çərçivəsində Azərbaycanda beynəlxalq standartlar səviyyəsində mütərəqqi antikorrupsiya qanunvericiliyi formalaşdırılmaqla yanaşı, ölkəmizin bu sahədə beynəlxalq əlaqələri daim inkişaf etdirilir.

Qeyd edilən səmərəli əməkdaşlıq əlaqələrinin davamı olaraq oktyabrın 22-dən 24-dək Avstriyanın Rust şəhərində Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) 18-ci illik Peşəkar Konfransı və Baş Assambleyasının iclası keçirilmişdir.

Tədbirlərdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Bir sıra mötəbər beynəlxalq, regional və qeyri-hökumət təşkilatlarının, eləcə də müxtəlif dövlətlərin 100-dən artıq nümayəndəsinin iştirak etdiyi "Mürəkkəb problemlər onların davamlı və kompleks həllini tələb edir" mövzusunda keçirilən mötəbər tədbiri giriş söz ilə açan təşkilat sədri Andreas Vieseltaler və Avstriya Respublikasının dövlət katibi Karolina Edstadler çıxış edərək tədbirin əhəmiyyəti və qarşıda duran vəzifələrdən danışmışlar.

Tədbirdə dünyanın korrupsiyaya qarşı mübarizə aparan qurumlarının nümayəndələri arasında müsbət təcrübə, habelə bu istiqamətdə yaranan problemlər müzakirə edilmiş, paralel panellər çərçivəsində korrupsiya cinayətlərinin istintaqı zamanı insan və vətəndaş hüquqlarının müdafiəsi, müraciətlərə baxılması mexanizmi, səhiyyə sektorunda korrupsiya və "Avropa Şurasında dürüstlük" layihəsinin icrası məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

İxtisaslaşmış anti-korrupsiya qurumlarının rəhbərlərinin iştirak etdiyi panel müzakirələrində Kamran Əliyev geniş təqdimatla çıxış edərək korrupsiya amilinin qlobal müstəvidə cəmiyyətlərin sabitliyinə, davamlı iqtisadi inkişafa və demokratik təsisatların qurulması prosesinə göstərdiyi mənfi təsirlərdən danışmış, hər bir ölkənin bu sahədə daxili imkanları ilə yanaşı, beynəlxalq əməkdaşlıq əlaqələrini də səfərbər etməsinin əhəmiyyətini qeyd etmişdir. Korrupsiyaya qarşı mübarizənin Prezident cənab İlham Əliyevin Azərbaycanda həyata keçirdiyi dövlət siyasətinin başlıca istiqamətlərindən biri olduğunu vurğulayan nümayəndə heyətinin rəhbəri, ölkəmizin bu sahədə bey-

nəlxalq əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetirdiyini bildirmiş, müxtəlif beynəlxalq və regional təşkilatlar, o cümlədən digər ölkələrin ixtisaslaşmış anti-korrupsiya qurumları ilə qurulmuş səmərəli əməkdaşlıq əlaqələri barədə iştirakçılara ətraflı məlumat vermişdir.

Tədbir çərçivəsində nümayəndə heyəti tərəfindən Beynəlxalq Anti-Korrupsiya Akademiyası (IACA), Avropa Komissiyasının Dələduzluğa qarşı Mübarizə İdarəsi (OLAF), Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupu (GRECO) və digər beynəlxalq təşkilatların, habelə bir sıra ölkələrin nümayəndələri ilə ikitərəfli görüşlər keçirilməklə qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

Konfransda iştirakçılara korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilmiş tədbirləri, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətini əks etdirən buklet, bülleten və kitabçalar təqdim edilmişdir.

Tədbirin yekununda təşkilati məsələlərə baxılaraq qurumun rəhbər heyətinə seçkilər keçirilmiş və korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsinə dair Bəyannamə qəbul edilmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Baş Prokurorluğun nümayəndə heyəti korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın davam etdirilməsi məqsədilə İtaliyanın paytaxtı Roma şəhərində təşkil olunan beynəlxalq tədbirdə iştirak edib




Noyabrın 12-13-də İtaliyanın paytaxtı Roma şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) İtaliyanın Xarici İşlər Nazirliyi, Beynəlxalq Əlaqələr İnstitutu (Instituto Affari Internazionali) və nüfuzlu Luiss Guido Carli Universiteti ilə birgə təşkil etdiyi "ATƏT bölgəsində rəqəmsal dövr üçün anti-korrupsiya strategiyalarının hazırlanması üzrə ən yeni tendensiyalar və ən yaxşı təcrübələr" mövzusunda konfrans keçirilmişdir.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir. Nümayəndə heyətinə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Əli Nağıyev və Baş İdarənin böyük prokuroru Elnur Musayev daxil olmuşlar.

Avropa qitəsində təhlükəsizliyin təmin olunması üçün ATƏT-in həyata keçirdiyi üç əsas fəaliyyət istiqamətlərindən biri olan korrupsiyaya qarşı mübarizənin aktual məsələlərinə həsr olunmuş bu konfransda İtaliyanın ədliyyə naziri Alfonso Bonafede,




ATƏT-in Baş katibi cənab Tomas Qreminger, Parlament Assambleyasının sədri Georgi Sereteli, Korrupsiya məsələləri üzrə xüsusi müşaviri və eyni zamanda LUISS Universitetinin Rektor müavini Paola Severino, İƏİT və Avropa Şurasının rəhbər heyəti, bir sıra ölkənin ədliyyə nazirləri, korrupsiyaya qarşı mübarizə qurumlarının rəhbərləri, Beynəlxalq Şəffaflıq və digər vətəndaş cəmiyyətinin üzvləri, həmçinin tanınmış elm adamları toplanmışlar.

"Korrupsiyanın ölçülməsi və onun iqtisadiyyata və qanunçuluğun vəziyyətinə təsirinin qiymətləndirilməsi" mövzusu üzrə tədbirin birinci sessiyasında çıxış edən Baş prokurorun müavini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi inkişaf kursunun uğurlu iqtisadi və sosial nəticələri barədə geniş məlumat vermişdir. Nümayəndə heyətinin rəhbəri ölkəmizdə korrupsiyaya qarşı mübarizənin dövlətin əsas fəaliyyət prinsipi olaraq qanunvericilik bazasının qurulması, dövlət idarəetmə prosesində şəffaflığın təmin olunması, özəl sektorun və əlverişli biznes mühitinin formalaşdırılması, müstəqil və ədalətli məhkəmə sisteminin və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumların təsirli şəkildə fəaliyyət göstərməsi üzərində qurulmasını bildirərək bu istiqamətdə davamlı şəkildə görülən işlərdən bəhs etmişdir. Çıxışda həyata keçirilən kompleks islahatların müsbət nəticələrinin öz əksini bir sıra beynəlxalq reytinqlərdə, o cümlədən Dünya Bankının açıqladığı nüfuzlu "Doing Business-2019" hesabatında da əks olunduğu qeyd edilməklə, Azərbaycanın adı çəkilən reytinqdə ötən illə müqayisədə 190 ölkə arasında 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşması xüsusi vurğulanmışdır. Dünyada Azərbaycan brendi kimi tanınan ASAN Xidmətin nümunəvi fəaliyyətinin korrupsiyanın qarşısının alınmasında rolu da görüş iştirakçılarının nəzərinə çatdırılmışdır. Həmçinin, korrupsiyanın səviyyəsinin ölçülməsi istiqamətində həyata keçirilən beynəlxalq təşəbbüslər təhlil olunaraq bu sahədə fəaliyyətini təşkmilləşdirilməsi üçün konkret təkliflər səsləndirmişdir. Çıxışının sonunda Kamran Əliyev Ermənistan nümayəndə heyətinin etirazlarına baxmayaraq Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz çalışan xarici şirkətlərin fəaliyyətinə toxunaraq bu məsələdə ölkəmizin qətiyyətli mövqeyini diqqətə çatdırmışdır. Korrupsiyaya qarşı mübarizə və çirkli pulların yuyulmasının qarşısının alınması sahəsində beynəlxalq ictimaiyyətin səylərinə ciddi xələl gətirən və Azərbaycan qanunlarına məhəl qoymayan şirkətlərin fəaliyyətinin cinayət işləri çərçivəsində araşdırılması və onların barəsində müvafiq

sərt ölçülərin görüləcəyi barədə xəbərdarlıq edilmişdir.

Konfrans əsnasında nümayəndə heyəti Ədliyyə naziri Alfonso Bonafede, LUISS Universitinin və Beynəlxalq Əlaqələr Universiteti rəhbərliyi, həmçin bir sıra ölkənin yüksək səviyyəli nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirilmişdir. İtaliyanın xarici siyasətinin müəyyənləşdirilməsi məqsədilə tədqiqat aparan yüksək elm adamları ölkədə korrupsiyaya qarşı mübrizənin aparılmasının əlverişli investisiya mühitinin formalaşmasında müstəsna rol oynadığını vurğulayaraq, Azərbaycan Hökumətinin bu sahədə gördüyü tədbirlərə yüksək qiymət vermişdir. Bu uğurlu addımların nəticəsi olaraq ölkələrimiz arasında iqtisadi əlaqələrin ən yüksək səviyyədə olması vurğulanmışdır.

Konfransda həmçinin korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış qurum və strategiyaların modelləri və təcrübələri, həmçinin korrupsiya ilə mütəşəkkil cinayətkarlıq arasında əlaqələr mövzularına həsr edilmiş sessiyalar da keçirilmişdir. Sonda konfrans iştirakçıları ATƏT bölgəsində iqtisadi inkişafın təmin olunması və sosial rifahın artırılması naminə səylərin birləşdirilməsi, qarşılıqlı əməkdaşlıq əsasında həyata keçirilən korrupsiyaya qarşı mübarizə sahəsində təşkilatçılığının gücləndirilməsinin vacibliyini vurğulamışlar.

Səfər zamanı İtaliyanın Maliyyə Qvardiyasının (Guardia di Finanza) Qərargahında ikitərəfli rəsmi görüş keçirilmişdir. 1881-ci ildə təsis olunmuş İtaliyanın iqtisadi cinayətkarlığa, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumu olan Maliyyə Qvardiyası dünyanın ən nüfuzlu və uzun müddət fəaliyyət göstərən təşkilatlarından biridir. Həmin təşkilatın qərargahında keçirilən görüş zamanı qarşıqlıqlı maraq və hörmət ruhunda keçən görüşdə fikir və təcrübə mübadiləsi aparılmış, əməkdaşlığın dərinləşdirilməsi üçün növbəti addımların atılmasının vacibliyi vurğulanmışdır. Növbəti mərhələrdə Azərbaycan və İtaliyanın ixtisaslaşmış antikorrupsiya qurumları arasında əməkdaşlığın hüquqi bazasını təşkil edəcək sənədin imzalanmasının vacibliyi fikri səsləndirilmişdir.

Konfransın işində və ikitərəfli görüşlərdə Azərbaycanın İtaliyadakı fövqəladə və səlahiyyətli səfiri Məmməd Əhmədzadə iştirak etmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Baş Prokurorluğun nümayəndəsi Fransanın Strasburq şəhərində təşkil olunan Avropa Prokurorlarının Məşvərət Şurasının tədbirində iştirak edib

Prokurorların dövlətin cinayət ədliyyəsi sistemində və qanunun aliliyinin qorunmasında müstəsna rolunu və Avropa Şurasına üzv dövlətlərin prokurorları arasında əməkdaşlığın vacibliyini nəzərə alaraq 2005-ci ilin iyul ayında AŞ Nazirlər Komitəsinin qərarı ilə Avropa Prokurorlarının Məşvərət Şurası (CCPE) yaradılmışdır.

Avropa Şurasına üzv dövlətlərin yüksək vəzifəli prokurorlarını birləşdirən qurum hər il plenar iclaslar təşkil etməklə prokuror fəaliyyətinə aid aktual mövzular üzrə rəylər hazırlayıb Nazirlər Komitəsinə təqdim edir.

Noyabrın 22-23-də Fransanın Strasburq şəhərində Şuranın 13-cü plenar iclası keçirilmişdir. 2 günlük plenar iclasda ekspert qrupu tərəfindən “Prokurorların müstəqilliyi, hesabatlılığı və etik davranışı” adlı 13 saylı Rəy geniş müzakirə edilərək qəbul edilmişdir.

Tədbirdə Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Direktorluğunun İnsan hüquqları məsələləri üzrə direktoru Kristof Puarel ölkəmizə sonuncu səfəri barədə danışaraq, aparılmış məhkəmə-hüquq islahatlarını yüksək qiymətləndirmişdir.

Şuranın qəbul etdiyi sənədlərin daha geniş hüquqşünas auditoriyasına təqdim olunması məqsədilə rəylərin üzv dövlətlərin dillərinə tərcümə edilməsini vacib hesab edərək bu sahədə ölkəmizi nümunə kimi qeyd etmiş və Azərbaycan Respublikasının Baş Prokurorluğuna təşəkkürünü bildirmişdir.

Tədbirdə Azərbaycan Respublikasını təmsil edən Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanov 13 saylı Rəyin müzakirəsi zamanı ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları, prokurorluğun fəaliyyətini tənzimləyən qanunvericilik aktları, həmçinin “Azərbaycan Respublikası Prokurorluğu işçilərinin Etik davranış Kodeksi” barədə ekspert qrupunu məlumatlandırmış, verilən təkliflər nəzərə alınaraq sənəddə öz əksini tapmışdır.

Ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində qabaqcıl təcrübəsi nəzərə alınaraq Azərbaycan Respublikası “Korrupsiya, iqtisadi və maliyyə cinayətlərinə qarşı mübarizədə prokurorların rolu” adlı Rəyin hazırlanması üzrə işçi qrupun üzvü seçilmişdir.

Plenar iclasın sonunda Portuqaliya Respublikasının nümayəndəsi Hose Manuel Santos Pais yekdilliklə Şuranın növbəti il üçün prezidenti seçilmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Baş Prokurorluğun nümayəndəsi Fransanın Strasburq şəhərində təşkil olunan Avropa Şurasının regional konfransında iştirak edib




Oktyabrın 18-19-da Avropa Şurası və Avropa İttifaqının yaxşı idarəçilik üzrə birgə proqramının (PGG) «Altı şərq tərəfdaşlığı (ŞT) ölkəsində zorakılıq qurbanı olan qadınların ədliyyəyə çıxışının təkmilləşdirilməsi» layihəsi çərçivəsində Fransanın Strasburq şəhərində yerləşən Avropa Şurasının (AŞ) Avropa Sarayında regional konfrans keçirilmişdir.

Konfransda Azərbaycan Respublikasından Ədliyyə Nazirliyi, Ədliyyə Nazirliyin Ədliyyə Akademiyası, Xarici İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Vəkillər Kollegiyasının və Sabunçu rayon məhkəməsinin nümayəndələri iştirak etmişlər. Baş Prokurorluqdan tədbirdə Beynəlxalq əlaqələr idarəsinin Beynəlxalq hüquqi əməkdaşlıq və protokol xidmətinin rəhbəri İsmayıl Qayıbov təmsil olunmuşdur.

Konfransın plenar iclası AŞ-nın Gender bərabərliyi məsələləri üzrə şöbə rəisi Katerina Boloneze və ŞT ölkələrinin nümayəndə heyətlərinin rəhbərlərinin çıxışları ilə başlamışdır.

1-ci sessiyada «Qadınların ədliyyəyə çıxışı və İstanbul konvensiyasının standartları» barədə məlumatlar verilmiş, 2-ci sessiya «Nə edilmişdir: ŞT-nin altı ölkəsində və onların kənarlarında qadınların ədliyyəyə çıxışına dair əldə edilmiş tərəqqinin təhlili» mövzusu üzrə 2015-2018-ci illər ərzində bu istiqamətdə həyata keçirilən müvafiq layihələrin konkret yanaşmalarına və nəticələrinə həsr olunmuş, 3-cü sessiyada «Qadınların ədliyyəyə çıxışının yaxşılaşdırılması üçün alətlər» mövzusu üzrə qadınların ədliyyəyə və qadınlara qarşı zorakılıqla mübarizəyə konkret toxunan digər hərəkətlərə çıxışına dair dörd il ərzində ardıcıl layihələr nəticəsində işlənilib hazırlanmış alətlər barədə danışılmış, 4-cü sessiyada «Qadınların ədliyyəyə çıxışına dair laboratoriya» mövzusu üzrə qabaqcıl üsulların mübadiləsi, əlaqələrin yaradılması və kollegial tədrisinə istiqamətləndirilməsi, 5-ci sessiyada «Qarşıdakı yol: ŞT-nin altı ölkəsində qadınların ədliyyəyə çıxışının yaxşılaşdırılmasına dair növbəti addımlar və məsləhətlər» mövzusu üzrə irəliləyiş üçün həll etmə, ideyaların təklif edilməsinə yönəlmiş məsələlər barədə müzakirələr aparılmışdır.

Beynəlxalq hüquqi əməkdaşlıq və protokol xidmətinin rəhbəri İsmayıl Qayıbov ailə zorakılığı problemi ilə Azərbaycanda mübarizə təcrübəsi ilə iştirakçılarla bölüşmüş, konkret təkliflərlə çıxış etmişdir. Konfransın 4-cü sessiyası çərçivəsində təşkil olunmuş «İstintaq və məhkəmə araşdırmaları» adlı laboratoriyanın işində iştirak edərək, ölkəmizdə gender bərabərliyinin bərqərar olunmasına yönələn işlər və istintaq təcrübəsi haqqında məlumat vermişdir. Belarus Respublikasının Hakimlər, prokurorlar və ədliyyə işçilərinin ixtisasartırma institutunun müdir müavini Vladimir Moroz, Gürcüstanın Tbilisi şəhər prokurorluğunun şöbə rəisi Sofio Ciadze, Ukrayna Milli hakimlər məktəbinin vitse-rektoru Natalia Şuklina, beynəlxalq ekspertlər, Avropa Şurası Katibliyinin məsul əməkdaşları və digər həmkarlarla fikir və təcrübə mübadiləsi aparmışdır.

Tədbir Avropa Şurasının İnsan ləyaqəti, bərabərlik və idarəetmə şöbəsinin müdiri Klaudia Luçaninin çıxışı ilə yekunlaşdırılmışdır.

Konfrans Şərq Tərəfdaşlığı altı ölkəsinin Avropa Şurası, Avropa İttifaqı və digər beynəlxalq maraqlı tərəflərlə sıx əməkdaşlıqda qadınların ədliyyəyə çıxışının yaxşılaşdırılmasına bağlılığının gücləndirilməsinə yönəlmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Baş prokurorluğun nümayəndəsi Belçikanın paytaxtı Brüsseldə təhlükəsizlik məsələlərinə həsr olunan tədbirdə iştirak edib

Azərbaycan Respublikası ADA Universitetinin Avropa İttifaqı (Aİ) məsələləri üzrə Bilik Mərkəzi, Böhran İdarəçiliyi təşəbbüsü (CMİ) ilə birgə layihəsi çərçivəsində noyabrın 8-10-da Belçikanın paytaxtı Brüsseldə təhlükəsizlik məsəllərinə həsr olunan maarifləndirici tədbir keçirilmişdir.

Tədbirin əsas mövzusu regional təhlükəsizliyin problemlərinə həsr olunmuşdur. Böhran idarəçiliyi və yeni qlobal səviyyədə böhranın qarşısının alınması, Avropa Birliyinin böhranın qarşısının alınmasında münasibətləri, Avropa İttifaqı Parlamentinin vasitəçilik və sülh proseslərində rolundan danışılmış, Şimali İrlandiya və Gürcüstan təcrübələri üzərində müzakirələr aparılmışdır. Avropa Parlamenti və Avropa Birliyi nümayəndələrinin məruzələri dinlənilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Milli Məclisi, Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Ombudsman Aparatı, ASAN Xidmət və digər dövlət orqanlarının nümayəndələri iştirak etmişlər. Baş Prokurorluqdan Elm-Tədris Mərkəzinin rəis müavini Günay Əyyubova təmsil olunmuşdur.

Layihə çərçivəsində Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğunda Səfirliyi, Avropa İttifaqı yanında Nümayəndəliyinin rəhbər işçi heyəti ilə qeyri-rəsmi görüş keçirilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun nümayəndəsi Özbəkistanın Daşkənd şəhərində təşkil olunan sülhün, ədalətin, effektiv institutların və sağlam həyatın təmin olunmasına həsr olunan regional görüşdə iştirak edib




Azərbaycan Respublikası BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin 25–27 sentyabr tarixlərində BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında keçirilən Dayanıqlı İnkişaf Sammitində təsdiqlənmiş və rəsmi olaraq 2016-ci ilin yanvarında qüvvəyə minmiş Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) adlanan 17 məqsədi və bu məqsədlərə müvafiq olaraq müəyyən edilmiş 169 hədəfi özündə birləşdirən "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" razılaşmasına qoşulmuşdur.

Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, Minilliyin İnkişaf Məqsədləri üzrə əldə olunmuş nailiyyətlərə əsaslanır və 2030-cu ilə qədər olan dövr üçün dünyanın qlobal inkişaf istiqamətlərini müəyyənləşdirir. DİM-lər universallıq, inteqrasiyalı yanaşma və "heç kimi geridə buraxmamaq" kimi prinsiplərə əsaslandığından, onların həyata keçirilməsi üzrə fəaliyyətlərin hər bir ölkədə iqtisadiyyatın dinamik inkişafını, sosial və ekoloji problemlərin etibarlı həllini təmin etməklə əhalinin rifahını daha da yaxşılaşdıracağı gözlənilir.

DİM-lərin icrasının institusional və siyasi baxımdan kompleks yanaşma tələb etdiyini nəzərə alaraq, Azərbaycanda da daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin edilməsi və ekoloji tarazlığın daha etibarlı qorunması üçün səmərəli milli icra mexanizminin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Qeyd olunanlar nəzərə alınaraq "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramları və strategiyalarının DİM-lərlə uzlaşdırılmasının təmin edilməsi, eyni zamanda, DİM-lərə nail olunması ilə əlaqədar Yüksək Səviyyəli Siyasi Forum üçün

Azərbaycanın ilkin hesabatının hazırlanaraq təqdim olunması Şuranın qarşısında duran ən mühüm vəzifələrdir.

Mərkəzi Asiya ölkələri, Azərbaycan və Gürcüstanda DİM-in həyata keçirilməsi göstəriciləri, mexanizmləri və vasitələrinin milli şəraitə uyğunlaşdırılması prosesini dəstəkləmək məqsədilə BMT-nin Narkotiklər və Cinayətkarlıq idarəsinin (BMTNCİ) Mərkəzi Asiya üzrə Regional Nümayəndəliyinin və Özbəkistan Respublikasının Baş Prokurorluğunun birgə təşkilatçılığı ilə noyabrın 12-13-də Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində "BMT-nin sülhün, ədalətin, effektiv institutların (16-cı DİM) və sağlam həyatın təmin olunmasında (3, 3.3, və 3.5-ci DİM) dayanıqlı inkişaf məqsədlərinin monitorinqi və icrası: Mərkəzi Asiya ölkələri, Azərbaycan və Gürcüstana dəstək" mövzusunda yüksək vəzifəli şəxslər səviyyəsində regional görüş keçirilmişdir.

Görüşdə Mərkəzi Asiya ölkələri, Azərbaycan və Gürcüstanın yüksək vəzifəli nümayəndələri, BMT-nin Narkotiklər və Cinayətkarlıq idarəsinin, Ümumdünya səhiyyə təşkilatının, UNİCEF-in nümayəndələri və beynəlxalq ekspertlər iştirak etmişlər.

Azərbaycan Respublikası nümayəndə heyətinin tərkibində Baş Prokurorluqdan Hüquqi təminat idarəsinin rəis müavini Aynur Osmanova ilə yanaşı, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik Baş İdarəsinin rəis müavini Elçin Nəsibov, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin şöbə rəisi Ələkbər Xələfov, Səhiyyə Nazirliyinin İnformatika və statistika idarəsinin rəisi Şahin Xasiyev və Dövlət Statistika Komitəsinin Dayanıqlı inkişaf statistikası şöbəsinin müdir müavini Arif İbişov təmsil olunmuşlar.

Regional görüş 9 sessiyadan ibarət olmaqla, görüşdə BMT-nin ekspertləri və iştirakçılar arasında adıçəkilən mövzuda fikir mübadiləsi, çağırışlar və digər aidiyyəti məsələlər üzrə müzakirələr aparılmışdır.

Sessiyalarda Azərbaycan Respublikasının nümayəndə heyəti tərəfindən edilən təqdimatlarda ölkəmizdə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradıldığı, Şura çərçivəsində bütün qurumların fəaliyyətinin əlaqələndirildiyi, Azərbaycanın inkişaf prioritetlərinin DİM-lərə uyğunlaşdırıldığı və ölkəmizdə həyata keçirilən dövlət proqramları və digər sənədlərdə DİM-lərin nəzərə alındığı qeyd edilmiş və bildirilmişdir ki, ötən illər ərzində Azərbaycanda yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azalmış, son 15 ildə 2 milyondan çox yeni iş yeri açılmış, əldə olunmuş sosial-iqtisadi inkişafa uyğun olaraq, paytaxtımız Bakı şəhərinin və ölkə regionlarının siması tamamilə dəyişmişdir. Tədbirdə DİM-lərə çatmaq üçün görüləcək tədbirlər, bu sahədə əməkdaşlıq barədə fikirlər səsləndirilmiş, DİM-lərin həyata keçirilməsi istiqamətində ölkəmizin ciddi addımlar atdığı, Azərbaycan Respublikasının 2017-ci ildə bu sahədə Könüllü Milli Hesabatını təqdim edən ilk ölkələrdən olduğu diqqətə çatdırılmış, 2030-cu ilədək DİM-lərin reallaşdırılması üçün milli yol xəritələrinin hazırlanmasının, müxtəlif qurumlar arasında fəaliyyətin daha geniş əlaqələndirilməsinin bu məqsədlərə nail olunması baxımından önəmi qeyd edilmişdir. Bundan əlavə, DİM-nin reallaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsinin vacibliyi bildirilməklə, bu baxımdan qlobal əməkdaşlığın önəmi vurğulanmışdır. Həmçinin qeyd edilmişdir ki, 2019-cu ilin yayında Yüksək Səviyyəli Siyasi Foruma Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatı təqdim ediləcək. Bu baxımdan DİM-in milli inkişaf proqramlarına uyğunlaşdırılması əsas vəzifələrdəndir və bu, çox mühüm məsələdir. Digər tərəfdən, mövcud problemlər sırasında bir sıra sahələr üzrə təfərruatlı göstəricilərin çatışmazlığı qeyd edilmişdir ki, bu ölkədə DİM-lər üzrə əhatəli monitorinq sisteminin yaradılmasını əngəlləyir. Bildirilmişdir ki, mövcud boşluqları doldurmaq və hökumətin potensialını gücləndirmək üçün BMT-nin ölkə nümayəndəliyi ilə əməkdaşlıq əhəmiyyətli rol oynayır. Qeyd olunanlara əsasən, DİM-lərə nail olunması prosesində milli hökumətlər, BMT qurumları və digər beynəlxalq inkişaf təşkilatlarının ölkə nümayəndəliklərinin əlaqələndirilmiş və məqsədlər üzrə şaxələndirilmiş birgə fəaliyyətlərinin uğurlu bir təcrübə ola biləcəyi qənaətinə gəlinməklə, ən yaxşı beynəlxalq təcrübə baxımından Azərbaycanın DİM-lərin milliləşdirilməsini və onların icrasını sürətləndirmək və izləmək üçün əhatəli əlaqələndirmə prosesinin layihələndirilməsi ilə bağlı müzakirələri məmnunluqla qarşıladığı vurğulanmışdır. Həmçinin qeyd edilmişdir ki, qarşıdakı dövrdə Azərbaycanda gender, yaş qrupları, yaşayış yerləri (kənd/şəhər) sektorlar və regionlar/inzibati rayonlar üzrə ayrılmaqla (dezaqreqasiya olunmaqla) daha təfsilatlı məlumat yaratma və təhlili üzrə potensialın gücləndirilməsinə və DİM-lərin ölkə üçün daha iddialı olan hədəfləri üzrə tərəqqini sürətləndirməyə xidmət edən məqsədli layihələrin hazırlanması və icrası üçün dəstəyə ehtiyac vardır.

Tədbir çərçivəsində BMT-nin sülhün, ədalətin, effektiv institutların (16-cı DİM) və sağlam həyatın təmin olunmasında (3, 3.3, və 3.5-ci DİM) dayanıqlı inkişaf məqsədlərinin monitorinqi və icrası üzrə dövlət orqanları arasında regional əməkdaşlığa dəstək üzrə həyata keçiriləcək tədbirlər barədə fikir mübadiləsi aparılmış və gələcək əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

**Baş Prokurorluğun Hüquqi təminat idarəsi**

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

### Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri" təsdiq edilsin *(əlavə olunur).*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 noyabr 2018-ci il
№ 1331-VKQ

*Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1331-VKQ nömrəli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir*

### Azərbaycan Respublikası Dövlət Bayrağının TƏSVİRİ

**Maddə 1. Ümumi təsvir**

**1.1.** Azərbaycan Respublikasının Dövlət Bayrağı eni bərabər olan üç üfüqi zolaqdan ibarət düzbucaqlı şəklindədir. Yuxarı zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Düzbucaqlının eninin uzunluğuna nisbəti 1:2-dir.

**1.2.** Qırmızı zolağın ortasında aypara və səkkizguşəli ulduz təsviri vardır. Aypara və ulduz ağ rəngdədir. Ayparanın ucları ondan sağda yerləşən ulduza istiqamətlənmişdir.

**Maddə 2. Rəngli və sxematik təsvir**

**2.1.** Azərbaycan Respublikasının Dövlət Bayrağı, ölçüsündən asılı olmayaraq, onun bu Təsvirə əlavə edilən rəngli və sxematik təsvirlərinə uyğun gəlməlidir.

**2.2.** Azərbaycan Respublikası Dövlət Bayrağının sənaye üsulu ilə hazırlanması və rəngli təsvirinin çapı zamanı onun mavi rənginin "Panton" rənglər kataloqunun Pantone 306C rəng koduna, qırmızı rənginin Pantone Red 032C rəng koduna, yaşıl rənginin Pantone 362C rəng koduna uyğunluğu təmin edilir.

*"Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri"nə ƏLAVƏ*

### AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT BAYRAĞININ RƏNGLİ TƏSVİRİ



*“Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri”nə ƏLAVƏ*

## AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT BAYRAĞININ SXEMATİK TƏSVİRİ




| Azərbaycan Respublikası Dövlət Bayrağının ölçülərinin nisbəti | |
|---|---|
| A: Bayrağın eni | 1 A |
| B: Bayrağın uzunluğu | 2 A |
| $A_1$: Bayrağın mavi zolağının eni | 1/3 A |
| $A_2$: Bayrağın qırmızı zolağının eni | 1/3 A |
| $A_3$: Bayrağın yaşıl zolağının eni | 1/3 A |
| C: Bayrağın sol kənarından ayparanın daxili çevrəsinin mərkəzinədək olan məsafə | 0,5 B |
| D: Ayparanın xarici çevrəsinin diametri | 0,286 A |
| $D_1$: Ayparanın daxili çevrəsinin diametri | 0,220 A |
| $D_2$: Ulduzun xarici çevrəsinin diametri | 0,166 A |
| $D_3$: Ulduzun daxili çevrəsinin diametri | 0,078 A |
| F: Ayparanın daxili və xarici çevrələrinin mərkəzləri arasındakı məsafə | 0,035 A |
| G: Ulduz çevrəsinin mərkəzi ilə ayparanın xarici çevrəsinin mərkəzi arasındakı məsafə | 0,140 A |

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### “Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1331-VKQ nömrəli Konstitusiya Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1331-VKQ nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 noyabr 2018-ci il
№ 682

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

### Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri" təsdiq edilsin *(əlavə olunur).*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 noyabr 2018-ci il
№ 1332-VKQ

*Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1332-VKQ nömrəli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir*

### Azərbaycan Respublikası Dövlət Gerbinin T Ə S V İ R İ

**Maddə 1. Ümumi təsvir**

**1.1.** Azərbaycan Respublikasının Dövlət Gerbi iki palıd budağından və iki sünbüldən ibarət qövsvarı çələngin üzərində yerləşən şərq qalxanı şəklindədir.

**1.2.** Qalxanın üzərində Azərbaycan Respublikası Dövlət Bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. Ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları, habelə qalxanın düymələri (8 ədəd) və palıd qozaları (5 ədəd) qızılı rəngdədir.

**Maddə 2. Rəngli, rəngsiz və sxematik təsvir**

**2.1.** Azərbaycan Respublikasının Dövlət Gerbi, ölçüsündən asılı olmayaraq, onun bu Təsvirə əlavə edilən rəngli, rəngsiz və sxematik təsvirlərinə uyğun gəlməlidir.

**2.2.** Azərbaycan Respublikası Dövlət Gerbinin sənaye üsulu ilə hazırlanması və rəngli təsvirinin çapı zamanı alovun qırmızı rənginin "Panton" rənglər kataloqunun Pantone Red 032C rəng koduna, palıd budaqlarının yaşıl rənginin Pantone 7729C rəng koduna, sünbüllərin sarı rənginin Pantone 7548C rəng koduna, qalxanın və ulduzun sağanaqlarının, qalxanın düymələrinin və palıd qozalarının qızılı rənginin Pantone 111C rəng koduna uyğunluğu təmin edilir.

*"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri"nə ƏLAVƏ*

### AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GERBİNİN RƏNGLİ TƏSVİRİ



*"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri"nə ƏLAVƏ*

### AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GERBİNİN RƏNGSİZ TƏSVİRİ



*“Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri”nə ƏLAVƏ*

## AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT BAYRAĞININ SXEMATİK TƏSVİRİ




| Azərbaycan Respublikası Dövlət Gerbinin ölçülərinin nisbəti | |
|---|---|
| D: Qalxanın dairəsinin diametri | 1 D |
| A: Gerbin ümumi uzunluğu | 1,190 D |
| B: Gerbin ümumi eni | 1,078 D |
| C: Palıd-sünbül çələnginin eni | 0,562 D |
| $D_1$: Ulduzun xarici çevrəsinin diametri | 0,928 D |
| $D_2$: Ulduzun daxili çevrəsinin diametri | 0,453 D |
| $D_3$: Qalxanın düymələrinin diametri | 0,038 D |
| $E_1$: Bayrağın mavi rəngini əks etdirən zolağın eni | 0,072 D |
| $E_2$: Bayrağın qırmızı rəngini əks etdirən zolağın eni | 0,072 D |
| $E_3$: Bayrağın yaşıl rəngini əks etdirən zolağın eni | 0,072 D |
| F: Alovun uzunluğu | 0,365 D |
| G: Alovun eni | 0,230 D |
| H: Səkkizguşəli ulduzun kontur xəttinin qalınlığı | 0,017 D |
| J: Qalxanın xarici kontur xəttinin qalınlığı | 0,036 D |

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### “Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1332-VKQ nömrəli Konstitusiya Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1332-VKQ nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 noyabr 2018-ci il
№ 683

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

## Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

Musiqisi Üzeyir Hacıbəyliyə, sözləri Əhməd Cavada məxsus olan “Azərbaycan marşı” Azərbaycan Respublikasının Dövlət Himni kimi təsdiq edilsin (*əlavə olunur).*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 noyabr 2018-ci il
№ 1333-VKQ

*Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli*
*1333-VKQ nömrəli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikası Dövlət Himninin mətni

### AZƏRBAYCAN MARŞI

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

*Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli*
*1333-VKQ nömrəli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikası Dövlət Himninin musiqisi (partiturası)











5
Hü- qu- qun- dan ke- çen es- ger he- re bir qeh-re-man ol- du!
Sen o- la- san gü-lüs-tan, se-ne her__ an can-qur-ban!


6
Se-ne min__ bir me-heb-bet si-nem-de tut-muş me-kan!
Na-mu-su-nu hifz et-me-ye,


7
Bay-ra-ğı-nı yük-selt-me-ye,
Na-mu-su-nu hifz et-me-ye,


8
Cüm-le genc-ler müş-taq-dır!
Şan-lı Ve-ten! Şan-lı Ve-ten!




**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

**“Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1333-VKQ nömrəli Konstitusiya Qanununun tətbiqi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1333-VKQ nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 noyabr 2018-ci il
№ 684

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188; Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1219-VQD, 1221-VQD, 1226-VQD nömrəli qanunları) 538-1.4-538-1.6-cı maddələrində "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 oktyabr 2018-ci il
№ 1248-VQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddə 1243, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddə 1697) aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 4.1-ci bəndə "adlarında" sözündən sonra ", 538-1.4 – 538.1.6" rəqəmləri əlavə edilsin;

**3.2.** 4.41-ci bənddən "və 538-1.4 – 538-1.6-cı" sözləri çıxarılsın;

**3.3.** aşağıdakı məzmunda 4.41-1-ci bənd əlavə edilsin:

**"4.41-1.** həmin Məcəllənin 538-1.4 – 538.1.6-cı maddələrində "qurum" dedikdə "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxs nəzərdə tutulur;".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 noyabr 2018-ci il
№ 343

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

**"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 404; 2002, № 12, maddə 706; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2006, № 2, maddə 64, № 12, maddə 1005; 2007, № 1, maddə 4; 2009, № 5, maddə 308; 2010, № 7, maddə 579; 2011, № 2, maddə 71; 2012, № 11, maddə 1038; 2013, № 6, maddə 615; 2015, № 11, maddə 1280; 2017, № 5, maddə 690) 8-ci maddəsinin üçüncü hissəsində "Azərbaycan Respublikasının" sözlərindən sonra "prokurorluq orqanlarının, habelə" sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 oktyabr 2018-ci il
№ 1257-VQD

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

**"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1110-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 19; 2001, № 12, maddə 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 8, maddə 599, № 10, maddə 787; 2005, № 8, maddə 686; 2006, № 12, maddə 1005; 2007, № 4, maddə 322; 2009, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 5, maddə 375; 2011, № 2, maddə 71, № 6, maddə 478; 2013, № 11, maddə 1272; 2017, № 11, maddə 1977; 2018, № 2, maddə 148) 4-cü maddəsinin II hissəsinə "təqsirləndirilən şəxsin müdafiəsi," sözlərindən sonra "məhkəmənin baxdığı inzibati xəta haqqında iş üzrə icraatda fiziki şəxsin müdafiəsi," sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 oktyabr 2018-ci il
№ 1258-VQD

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

**Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 364; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 312, № 6, maddə 415; 2007, № 8, maddə 754; 2008, № 8, maddə 709; 2010, № 4, maddə 274, № 12, maddə

1056; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 9; 2018, № 1, maddə 9) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43-cü maddənin birinci və üçüncü hissələrində, 142-ci maddənin birinci hissəsinin doqquzuncu abzasında, 166-cı maddənin birinci hissəsində, 261-ci maddənin ikinci hissəsinin səkkizinci abzasında, 297-ci maddənin birinci hissəsinin on dördüncü abzasında, 305-ci maddənin birinci hissəsinin dördüncü abzasında “papiros” sözü “tütün” sözü ilə əvəz edilsin.

**2.** 156-cı maddənin üçüncü hissəsində “Papiros” sözü “Tütün” sözü ilə əvəz edilsin.

**3.** 257-ci maddənin birinci hissəsinin altıncı abzasında “papirosu” sözü “tütünü” sözü ilə əvəz edilsin.

**4.** Həmin nizamnaməyə 5 saylı əlavənin 2-ci maddəsinin birinci hissəsinin ikinci abzasında və 4-cü maddəsində, 8 saylı əlavənin “b” bəndinin səkkizinci abzasında “papiros” sözü “tütün” sözü ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 oktyabr 2018-ci il
№ 1264-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 347; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 133, № 5, maddə 312; 2007, № 8, maddə 754, № 11, maddə 1078; 2008, № 8, maddə 709; 2010, № 12, maddə 1056; 2011, № 2, maddə 71; 2012, № 5, maddə 408; 2014, № 2, maddə 86; 2016, № 1, maddə 6; 2017, № 3, maddə 327; 2018, № 1, maddə 8) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 132-ci maddənin birinci hissəsinin səkkizinci abzasında, 161-ci maddənin birinci hissəsinin dördüncü abzasında “papirosçəkmə” sözü “tütün çəkmə” sözləri ilə əvəz edilsin.

**2.** 172-ci maddənin birinci hissəsində, 182-ci maddənin ikinci hissəsinin ikinci abzasında, 187-ci maddənin ikinci hissəsinin dördüncü abzasında, 188-ci maddənin birinci hissəsində, 255-ci maddənin ikinci hissəsində, 288-ci maddənin dördüncü hissəsinin beşinci abzasında “papiros” sözü “tütün” sözü ilə əvəz edilsin.

**3.** 230-cu maddənin dördüncü cümləsində “Papiros” sözü “Tütün” sözü ilə əvəz edilsin.

**4.** Həmin nizamnamənin “Hauptvaxt haqqında” 4 saylı əlavəsinin 27-ci maddəsinin üçüncü abzasında, 33-cü maddəsinin birinci hissəsində “papiros” sözü “tütün” sözü ilə, 31-ci maddəsinin üçüncü hissəsində “Papiros” sözü “Tütün” sözü ilə əvəz edilsin.

**5.** Həmin nizamnamənin “Qarovul otağının avadanlığı” 11 saylı əlavəsinin 1-ci maddəsinin ikinci hissəsində “papirosçəkmə” sözü “tütün çəkmə” sözləri ilə, 7-ci maddəsində “Papirosçəkmə” sözü “Tütün çəkmə” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 oktyabr 2018-ci il
№ 1265-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci və 2.2-ci maddələrə “çəkilməsi” sözündən sonra “, habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi” söz**ləri əlavə edilsin.**

**2.** 6-cı maddədən “məhkumlara” sözü və “məhkəmənin bu hökmü dəyişən” sözləri çıxarılsın.

**3.** 7-ci maddəyə birinci halda “məhkumların” sözündən

sonra "və barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən hüquqi şəxslərin" sözləri əlavə edilsin.

**4.** III fəslin və 15-ci maddənin adına "Cəzanı" sözündən sonra "və cinayət-hüquqi xarakterli digər tədbirləri" sözləri əlavə edilsin.

**5.** 15.1-ci maddədə "və əmlak müsadirəsi növündə cəzalar" sözləri "növündə cəza və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbiri" sözləri ilə əvəz edilsin.

**6.** Aşağıdakı məzmunda 15.1-1-ci və 15.1-2-ci maddələr əlavə edilsin:

**"15.1-1.** Hüquqi şəxslərə tətbiq edilən cərimə və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirlər hüquqi şəxsin olduğu yerin icra məmuru tərəfindən icra edilir.

**15.1-2.** Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və hüquqi şəxsi ləğvetmə növündə cinayət-hüquqi tədbirlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən icra edilir.".

**7.** XVIII fəslin adından ", əmlak müsadirəsi" sözləri çıxarılsın.

**8.** 160-165-ci maddələr ləğv edilsin.

**9.** Aşağıdakı məzmunda VIII bölmə əlavə edilsin:

*"VIII bölmə*

**Cinayət-hüquqi tədbirlərin icrası**

*XXII fəsil*

**Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin icrası**

**Maddə 183. Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin icrası qaydası**

**183.1.** Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin tətbiq edilməsi barədə yekun qərar çıxarmış məhkəmə həmin qərar qanuni qüvvəyə mindikdən sonra onun surətini, qərarın icrası barədə göstərişi və əmlakın siyahısının surətini icra məmuruna göndərir və bu barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verir.

**183.2.** Məhkəmənin yekun qərarı ilə xüsusi müsadirə edilməli əmlakın kimə mənsub olması haqqında mübahisə mülki məhkəmə icraatı qaydasında həll edilir.

**Maddə 184. Xüsusi müsadirə cinayət-hüquqi tədbirinin icrası zamanı icra məmurunun vəzifələri**

**184.1.** İcra məmuru məhkəmənin yekun qərarının surətini, qərarın icrası barədə göstərişi aldıqdan sonra dərhal əmlak siyahısında göstərilən əmlakın mövcudluğunu yoxlayır.

**184.2.** Müsadirə edilən əmlak plomblanır və ya möhürlənir və bu barədə tərtib edilmiş müvafiq siyahıda qeydlər edilir.

**184.3.** Müsadirə edilən əmlakın saxlanılması üçün icra məmuru tərəfindən tədbirlər həyata keçirilməlidir.

**Maddə 185. Xüsusi müsadirə edilməli əmlakla əlaqədar digər şəxslərin vəzifələri**

**185.1.** Xüsusi müsadirə edilməli əmlak hüquqi və ya fiziki şəxslərdə, yaxud dövlət qurumunda olarsa, onlar bu barədə məhkəməyə və ya müvafiq icra hakimiyyəti orqanına xəbər verməlidirlər.

**185.2.** Hüquqi və fiziki şəxslər, həmçinin dövlət qurumları onlara saxlanılmaq üçün verilən müsadirə edilən əmlakın qorunub-saxlanılmasını təmin etməlidirlər.

**185.3.** Müsadirə edilən əmlakın gizlədilməsinə, israf edilməsinə, özgəninkiləşdirilməsinə və ya dəyişdirilməsinə görə təqsirli şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 186. Xüsusi müsadirə edilmiş əmlakın müvafiq icra hakimiyyəti orqanına verilməsi**

**186.1.** Barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən şəxsin müsadirə edilmiş əmlakı, bu əmlak barəsində irəli sürülən bütün tələblər qanunla müəyyən edilmiş qaydada təmin edildikdən sonra müvafiq icra hakimiyyəti orqanına verilir.

**186.2.** Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 187. Məhkəmənin yekun qərarının icrasından sonra aşkar edilmiş əmlakın müsadirəsi**

Xüsusi müsadirə cinayət-hüquqi tədbiri icra edildikdən sonra barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən şəxsin xüsusi müsadirə olunmalı olan digər əmlakı aşkar edildiyi hallarda, icra məmuru yekun qərar çıxarmış məhkəməyə və ya yekun qərarın icra edildiyi yerin məhkəməsinə həmin əmlakın müsadirə edilməsi barədə təqdimat verir.

*XXIII fəsil*

**Hüquqi şəxslər barəsində tətbiq edilən cinayət-hüquqi tədbirlərin icrasının xüsusiyyətləri**

**Maddə 188. Cərimə və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirin icrası qaydası**

**188.1**. Hüquqi şəxslər barəsində tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbir Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 15-2-ci fəslinin xüsusiyyətləri nəzərə alınmaqla, bu Məcəllənin IV fəslinə uyğun olaraq icra edilir.

**188.2.** Hüquqi şəxslər barəsində tətbiq edilən xüsusi müsadirə növündə cinayət-hüquqi tədbir Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 15-2-ci fəslinin xüsusiyyətləri nəzərə alınmaqla, bu Məcəllənin XXII fəslinə uyğun olaraq icra edilir.

**Maddə 189. Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin icrası qaydası**

**189.1.** Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş yekun qərarının surəti icra edilməsi üçün dərhal hüquqi şəxsin olduğu yerin icra məmuruna göndərilir.

**189.2.** Hüquqi şəxs müəyyən fəaliyyət növünü lisenziya və ya icazə əsasında həyata keçirdikdə, icra məmuru məhkəmə qərarının surətini 3 (üç) gün müddətində lisenziya (icazə) verən orqana göndərir. Həmin orqan qərarın surətini aldığı gündən 3 (üç) gün müddətində lisenziyanı (icazəni) ləğv edir və bu barədə icra məmuruna məlumat verir.

**189.3.** Hüquqi şəxs müəyyən fəaliyyət növünü lisenziya və ya icazə əsasında həyata keçirmədikdə, icra məmuru 3 (üç) gün müddətində məhkəmə qərarının surətini hüquqi şəxslərin dövlət reyestrinə müvafiq fəaliyyət növü ilə məşğul olma hüququndan məhrum etmə barədə qeydin 10 (on) gün ərzində daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına göndərir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq dəyişiklik dövlət qeydiyyatına alındıqdan sonra 2 (iki) gün müddətində icra məmuruna məlumat verilir.

**Maddə 190. Hüquqi şəxsi ləğv etmə növündə cinayət-hüquqi tədbirinin icrası qaydası**

**190.1.** Hüquqi şəxsi ləğv etmə haqqında məhkəmənin yekun qərarı ilə ləğvetmə komissiyasına (təsviyəçiyə) hüquqi şəxsin ləğvini həyata keçirmək vəzifələri həvalə olunur. Həmin qərar qanuni qüvvəyə mindikdən dərhal sonra onun surəti icra edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına, habelə cinayət-hüquqi tədbirin icrasına nəzarət edilməsi üçün icra məmuruna göndərir.

**190.2.** Hüquqi şəxsin ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

**190.3.** Hüquqi şəxsin ləğvi başa çatdıqdan sonra müvafiq icra hakimiyyəti orqanı 3 (üç) gün müddətində bu barədə yekun qərarı çıxarmış məhkəməyə və cinayət-hüquqi tədbirin icrasına nəzarəti həyata keçirən icra məmuruna məlumat verir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 oktyabr 2018-ci il
№ 1271-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 214-1-ci maddədə “219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi üçün, yaxud göstərilən cinayətlərin törədilməsi məqsədilə şəxsin və ya həmin məqsədlə yaradılan qrupun (dəstənin, təşkilatın) təmin edilməsi” sözləri “219-1, 219-2, 226, 227, 227-1, 270-1, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin, yaxud terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi” sözləri ilə əvəz edilsin.

**2.** Aşağıdakı məzmunda 219-2-ci maddə əlavə edilsin:

**“Maddə 219-2. Dənizdə yerləşən stasionar platformaların təhlükəsizliyinə təhdid yaradan əməllər**

**219-2.1.** Stasionar platformanın məhv edilməsinə və ya təhlükəsizliyinə təhdid yaradan dərəcədə zədələnməsinə səbəb ola bilən qurğu və ya maddəni stasionar platformada qəsdən qanunsuz olaraq yerləşdirmə, yaxud belə qurğu və ya maddənin stasionar platformada yerləşdirilməsi məqsədilə qəsdən qanunsuz olaraq digər hərəkətlər etmə –

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**219-2.2.** Qəsdən qanunsuz olaraq stasionar platformanı məhv etmə və ya onun təhlükəsizliyinə təhdid yaradan dərəcədə zədələnməsinə səbəb olan zərər yetirmə –

yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**219-2.3.** Stasionar platformanı zor tətbiq etməklə, zor tətbiq etmək hədəsi ilə və ya hər hansı digər hədə-qorxu yolu ilə qəsdən qanunsuz olaraq ələ keçirmə və ya nəzarətdə saxlama –

səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Bu maddədə “stasionar platforma” dedikdə təbii sərvətlərin kəşfiyyatı və ya işlənməsi, yaxud digər iqtisadi məqsədlər üçün dənizin dibində daimi olaraq bərkidilmiş süni ada, tikili və ya qurğu başa düşülür.”

**3.** Aşağıdakı məzmunda 226.3-cü maddə əlavə edilsin:

**“226.3.** Radioaktiv materiallardan istifadə edərək öldürməklə, sağlamlığa ağır zərər vurmaqla və ya əmlaka əhəmiyyətli zərər vurmaqla hədələmə –

iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”.

**4.** Aşağıdakı məzmunda 227-1-ci maddə əlavə edilsin:

**“Maddə 227-1. Radioaktiv materialları talamaqla hədələmə**

Fiziki və ya hüquqi şəxsi, dövlət qurumlarını və ya beynəlxalq təşkilatları hər hansı hərəkətin edilməsinə məcbur etmək və ya hər hansı hərəkətin edilməsindən çəkindirmək məqsədilə radioaktiv materialları talamaqla hədələmə –

üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”.

**5.** Aşağıdakı məzmunda 270-1-ci maddə əlavə edilsin:

**“Maddə 270-1. Aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər**

**270-1.1.** Uçuş vaxtı hava gəmisində olan şəxsə zor tətbiq etmə, belə zorun tətbiqi hava gəmisinin təhlükəsizliyinə təhdid yaratdıqda –

min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**270-1.2.** Uçuş vaxtı hava gəmisinə bilə-bilə yalan məlumat ötürmə, yaxud hava gəmisinin aeronaviqasiya avadanlığını qəsdən qanunsuz olaraq məhv etmə, zədələmə və ya fəaliyyətinə müdaxilə etmə, uçuş vaxtı hava gəmisinin təhlükəsizliyinə təhdid yaratdıqda –

iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**270-1.3.** Hava limanının avadanlığı və qurğularını, yaxud hava limanında yerləşən və istismarda olmayan hava gəmilərini qəsdən qanunsuz olaraq məhv etmə və ya onlara əhəmiyyətli zərər vurma, habelə hava limanı xidmətlərinin işini qəsdən qanunsuz olaraq pozma, hava limanının təhlükəsizliyinə təhdid yaranmasına səbəb olduqda –

üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**270-1.4.** İstismarda olan hava gəmisini qəsdən məhv etmə, habelə hava gəmisinə qəsdən onun sıradan çıxmasına səbəb olan və ya uçuş təhlükəsizliyinə təhdid yaradan zərər yetirmə –

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**270-1.5.** İstismarda olan hava gəmisinin məhv edilməsinə və ya onun uçuş təhlükəsizliyinə təhdid yaradacaq dərəcədə zədələnməsinə səbəb ola bilən qurğu və ya maddəni hava gəmisində qəsdən qanunsuz olaraq yerləşdirmə, yaxud belə qurğu və ya maddənin istismarda olan hava gəmisində yerləşdirilməsinə qəsdən qanunsuz olaraq şərait yaratma –

səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 oktyabr 2018-ci il
№ 1272-VQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 sentyabr tarixli 261 nömrəli və 14 sentyabr tarixli 269 nömrəli fərmanları) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** üçüncü abzasda “233-2, 233-3, 270” rəqəmləri “219-2, 226.3, 227-1, 233-2, 233-3, 270, 270-1” rəqəmləri ilə əvəz edilsin;

**3.2.** on ikinci abzasda “226” rəqəmləri “226.1, 226.2” rəqəmləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2018-ci il
№ 304

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81, № 10, maddə 1159, № 11, maddə 1361; 2015, № 11, maddə 1294; 2016, № 3, maddə 413; 2017, № 5, maddələr 696, 711, № 7, maddə 1295; 2017, № 11, maddə 1959; 2018, № 7 (I kitab), maddə 1407) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.0.4-cü maddədə "219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi üçün, yaxud göstərilən cinayətlərin törədilməsi məqsədilə şəxsin və ya həmin məqsədlə yaradılan qrupun (dəstənin, təşkilatın) təmin edilməsi" sözləri "219-1, 219-2, 226, 227, 227-1, 270-1, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin, yaxud terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi" sözləri ilə əvəz edilsin.

**2.** 4.0-cı, 4.0.1 – 4.0.7-ci, 4.0.9-cu, 4.0.12-ci maddələr müvafiq olaraq 4.1-ci, 4.1.1 - 4.1.7-ci, 4.1.9-cu, 4.1.12-ci maddələr hesab edilsin və aşağıdakı məzmunda 4.2-ci maddə əlavə edilsin:

**"4.2.** Cinayətkarlarla əlaqəli olan şəxslər monitorinq iştirakçılarında mühüm iştirak payına sahib və ya belə payın benefisiar mülkiyyətçisi ola, habelə monitorinq iştirakçılarında idarəetmə funksiyalarını yerinə yetirə, o cümlədən idarə heyətində, müşahidə şurasında və ya audit komitəsində vəzifə tuta bilməzlər.".

**3.** Aşağıdakı məzmunda 6.6-cı maddə əlavə edilsin:

**"6.6.** Nəzarət orqanları tərəfindən monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslərə münasibətdə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi riskləri ildə bir dəfə qiymətləndirilir və nəzarət yoxlamaları müəyyən edilmiş risklərə uyğun olaraq aparılır.".

**4.** Aşağıdakı məzmunda 7.4-1-ci maddə əlavə edilsin:

**"7.4-1.** Monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər bu Qanunun 7.3-cü maddəsində nəzərdə tutulan dövlətlərin (ərazilərin) vətəndaşları ilə, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin dövlətdə (ərazidə) olan şəxslərlə işgüzar münasibətlərə və əməliyyatlara, o cümlədən ilkin çıxış və ya təyinat məntəqəsinin həmin dövlətin (ərazinin) olduğu pul vəsaitlərinin istənilən şəxs tərəfindən qəbul olunması və köçürülməsi ilə bağlı əməliyyatlara xüsusi diqqət yetirməli, bu cür əməliyyatların açıq-aşkar iqtisadi və ya qanuni məqsədi olmadıqda onların təyinatını və mahiyyətini aydınlaşdırmalı və bununla əlaqədar yazılı təhlil hesabatı tərtib etməlidirlər. Tələb olunduğu təqdirdə, hesabat qanunla müəyyən edilmiş qaydada maliyyə monitorinqi orqanına, auditora, cinayət təqibini həyata keçirən orqanlara və ya nəzarət orqanlarına təqdim edilməlidir.".

**5.** 17.5-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Maliyyə monitorinqi orqanı aparılmış təhlil nəticəsində həyata keçirilən əməliyyatlarda digər cinayətlərin əlamətlərini müəyyən etdikdə, müvafiq məlumatları istintaq aidiyyəti üzrə cinayət təqibini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarına və ya prokurorluq orqanlarına göndərir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 oktyabr 2018-ci il
№ 1273-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7, maddə 1425) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Preambulada "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrə" sözləri "hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarına (dövlət orqanlarının strukturuna daxil olan qurumlara)" sözləri ilə əvəz edilsin.

**2.** 2.0.2-ci maddədə "və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə" sözləri "və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş digər dövlət orqanlarında

(dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri ilə əvəz edilsin.

**3.** 2.0.4-cü və 2.0.5-ci maddələrdən "və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri" sözləri çıxarılsın.

**4.** 2.0.6-cı, 3.2-ci və 3.4-cü maddələrdən "və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə" sözləri çıxarılsın.

**5.** 6.1-ci maddədə "16" rəqəmləri "15" rəqəmləri ilə əvəz edilsin.

**6.** 11-ci maddə ləğv edilsin.

**7.** 12.1-ci maddədən "və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin" sözləri çıxarılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 oktyabr 2018-ci il
№ 1280-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqındaAzərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsini "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 914-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7, maddə 1422) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 68.1-ci maddənin üçüncü cümləsinə "müvafiq" sözündən sonra "ərazi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən" sözləri əlavə edilsin.

**2.** 171-ci maddə üzrə:

**2.1.** maddənin adına "şəxslərin" sözündən sonra "cəzasının müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilməsi və ya" sözləri əlavə edilsin;

**2.2.** 171.1-ci maddəyə "cəzadan" sözündən əvvəl "cəzasının müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilməsi və ya" sözləri əlavə edilsin;

**2.3.** 171.2-ci maddədə "onun" sözündən sonra "cəzasının müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilməsi və ya" sözləri əlavə edilsin və həmin maddədə "altı ay" sözləri "bir il" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 oktyabr 2018-ci il
№ 1281-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 914-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 641; 2014, № 4, maddə 347, № 7, maddə 767; 2016, № 6, maddə 987) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 48.2.2-ci maddəyə "başa çatdıqda" sözlərindən sonra "və həbsdə saxlamanın son müddəti Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 159.8-159.10-cu maddələrində nəzərdə tutulmuş qaydada uzadılmadıqda" sözləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 48.2.2-1-ci maddə əlavə edilsin:

**"48.2.2-1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 159.8-159.10-cu maddələrində nəzərdə tutulmuş qaydada uzadılmış həbsdə saxlanılma müddəti başa çatdıqda;".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 oktyabr 2018-ci il
№ 1282-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 980-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 307.2.10-1-ci maddə əlavə edilsin:

**"307.2.10-1.** "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması, habelə Azərbaycan Respublikasında daimi yaşaması faktının;".

**2.** 310-cu maddə üzrə:

**2.1.** adında "məzmunu" sözündən sonra "və ərizəyə baxılması" sözləri əlavə edilsin;

**2.2.** mətni 310.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 310.2-ci maddə əlavə edilsin:

**"310.2.** Bu Məcəllənin 307.2.10-1-ci maddəsində nəzərdə tutulan faktın müəyyən edilməsi haqqında ərizədə şəxsin Azərbaycan Respublikasına gəlməsi tarixi və səbəbləri göstərilməli, həmin ərizəyə müvafiq faktları təsdiq edən sənədlər (olduğu halda), həmçinin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin tanınmaması barədə müvafiq icra hakimiyyəti orqanının arayışı və doğulduğu (əvvəllər daimi yaşadığı) ölkənin vətəndaşı hesab edilməməsini təsdiq edən sənəd əlavə edilməlidir. Həmin ərizəyə baxılmasında müvafiq icra hakimiyyəti orqanının nümayəndəsinin iştirakı məcburidir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 oktyabr 2018-ci il
№ 1292-VQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1292-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1292-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında"

Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 310.2-ci (hər iki halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir.

**4.** "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 44; 2002, № 8, maddə 478; 2006, № 8, maddə 677, № 12, maddə 1034; 2007, № 3, maddə 226; 2009, № 6, maddə 414; 2011, № 11, maddə 1009; 2016, № 3, maddə 471, № 6, maddə 1045; 2017, № 3, maddə 352, № 4, maddə 551, № 8, maddə 1517) 2.9-cu bəndinə "355-8.1-ci," sözlərindən əvvəl "310.2-ci (hər iki halda)," sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 noyabr 2018-ci il
№ 348

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441; Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanunu) 255-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Maddənin mətni 255.1-ci maddə hesab edilsin və sanksiyasında "üç min manatdan altı" sözləri "altı min manatdan on" sözləri ilə əvəz edilsin, "məhdudlaşdırılması" sözündən sonra "və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə" sözləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 255.2-ci maddə əlavə edilsin:

**"255.2.** Bu Məcəllənin 255.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda –

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə edilməklə və ya edilməməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 oktyabr 2018-ci il
№ 1300-VQD

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429,

№ 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438) 243-cü maddəsinin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər on beş min manatdan iyirmi min manatadək məbləğdə cərimə edilir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 oktyabr 2018-ci il
№ 1301-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441; Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanunu) 162-1-ci maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

**"2.** Bu Məcəllənin 162-1.1-ci maddəsində nəzərdə tutulmuş əməli törətmiş şəxs Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işçiləri ilə əmək müqaviləsi bağladıqda, habelə ödəməkdən yayındırılmış vergiləri, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 oktyabr 2018-ci il
№ 1306-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr

698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438) aşağıdakı məzmunda 516-1-ci maddə əlavə edilsin:

**“Maddə 516-1. Qəbiristanlıqların idarə olunması qaydaları haqqında qanunvericiliyin pozulması**

**516-1.1.** Dəfn barədə məlumatın dəfnlərin vahid reyestrində yerləşdirilməməsinə və ya vaxtında yerləşdirilməməsinə görə –

vəzifəli şəxslər yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

**516-1.2.** Qəbiristanlıqların qorunması tələblərinin, habelə dəfnlərin təşkili zamanı sanitariya-gigiyena normalarının pozulmasına görə –

fiziki şəxslər iyirmi manatdan əlli manatadək məbləğdə, vəzifəli şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

**516-1.3.** Qəbir yerlərinin rezervasiyası tələblərinin pozulması, dəfnə icazə verilməyən ərazilərdə dəfnlərin həyata keçirilməsinə görə –

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 oktyabr 2018-ci il
№ 1307-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Uşaqların zərərli informasiyadan qorunması haqqında

Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə əlaqədar olaraq uşaqların onlar üçün zərərli informasiyadan qorunması tədbirlərini müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.

*1-ci fəsil*

**ÜMUMİ MÜDDƏALAR**

**Maddə 1. Əsas anlayışlar**

**1.0.** Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**1.0.1.** uşaqların informasiya əldə etməsi – uşaqların əldə olunması qanunla məhdudlaşdırılmayan informasiyanı, o cümlədən informasiya məhsulunu əldə edib ondan istifadə imkanı;

**1.0.2.** informasiya məhsulları – ölkə ərazisində dövriyyə və istehlak üçün nəzərdə tutulan kütləvi informasiya vasitələri məhsulları, audiovizual məhsullar, kompüter və digər elektron oyunlar, habelə mədəni-kütləvi tədbirlər və telekommunikasiya şəbəkəsi vasitəsilə yayımlanan digər informasiya məhsulları;

**1.0.3.** informasiya məhsullarının yaş kateqoriyası – bu Qanunla nəzərdə tutulmuş informasiya məhsullarının istifadəsi üçün münasib olan yaş göstəricisi;

**1.0.4.** informasiya məhsullarının yaş təsnifatı – informasiya məhsullarının bu Qanunda müəyyən edilmiş yaş qruplarına görə bölgüsü;

**1.0.5.** zorakılığın və qəddarlığın nümayişi – fiziki və ya psixi zorakılığın təsvirinin və bu kimi qəddarlıq səhnələrinin, əzab vermək və xəsarət yetirmənin, şikəst edilmənin, adam və heyvan öldürmənin və üzərində zorakılıq əlamətləri olan cəsədin təsviri;

**1.0.6.** mədəni-kütləvi tədbir – kütləvi və ya azad ziyarət üçün açıq olan yerlərdə teatr, mədəni-maarifləndirici və əyləncəli tədbirlər də daxil olmaqla kütləvi nümayiş, ifa və yaxud çıxış;

**1.0.7.** uşaqlar üçün nəzərdə tutulmuş informasiya məhsulları – mövzusuna, məzmununa və tərtibatına görə yalnız və ya əsasən yetkinlik yaşına çatmayanlara aid edilən informasiya məhsulları;

**1.0.8.** ailə institutunu nüfuzdan salan informasiya – ailə dəyərlərini inkar etməklə, yaxud ailə, nikah, analıq və atalıq kimi sosial institutların əhəmiyyətini heçə endirməklə uşaqlarda ailə-nikah sahəsi ilə bağlı təhrif olunmuş təsəvvürlər yarada bilən məlumatlar;

**1.0.9.** uşaqlar üçün zərərli informasiya – uşaqlar üçün nəzərdə tutulmayan və uşağın fiziki və ya psixi sağlamlığına mənfi təsir göstərən, o cümlədən təhrif olunmuş sosial təsəvvürlərin formalaşdırılması vasitəsilə onların mənəvi, psixi, fiziki və ya sosial inkişafında pozuntu yaranmasına səbəb olan məlumat;

**1.0.10.** təbliğ – fiziki və ya hüquqi şəxslərin uşaqların şüurunda hər hansı davranış qaydası və ya stereotipin formalaşmasına yönəlmiş, yaxud uşağı hər hansı hərəkət və ya hərəkətsizliyi etməyə təhrik etdirmək məqsədi daşıyan fəaliyyəti;

**1.0.11.** cəmiyyət əleyhinə və hüquqazidd hərəkətləri təbliğ edən informasiya – uşaqları fahişəlik, qumar və avaralıqla (o cümlədən dilənçiliklə) məşğul olmağa, milli və əxlaqi dəyərlərə qarşı təhqiredici əməllər, eləcə də şəxslərin hüquqlarını pozan digər əməllər törətməyə həvəsləndirən məlumat;

**1.0.12.** uşaqların həyat və sağlamlıqlarına təhlükə yaradan əməlləri təbliğ edən informasiya – uşaqların həyatına, fiziki və psixi sağlamlığına təhlükə yaradan, o cümlədən intiharı, odlu silah və partlayıcı maddələrdən, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarından, alkoqollu içkilərdən və tütün məmulatlarından istifadəni təbliğ edən informasiya;

**1.0.13.** cinayətləri təbliğ edən informasiya – uşaqlarda cinayət törətmək həvəsi oyadan, cinayətkar mühiti, o cümlədən cinayətləri və cinayətkarları, kriminal norma və dəyərləri, cinayətkar mühitin kriminal jarqonları da daxil olmaqla atributlarını və simvollarını müsbət mənada təqdim və təbliğ edən informasiya;

**1.0.14.** qorxu məzmunlu informasiya – uşaqlarda davamlı qorxu, təlaş, yaxud dəhşət hissi yarada bilən informasiya, uydurma məxluqların dəhşətli görüntüsü və ya təsviri, eləcə də ciddi xəsarətlərin, intiharın (o cümlədən intihara cəhdin), bədbəxt hadisələrin, qəzaların və onların

nəticələrinin naturalist (təbii) təsviri və ya görüntüsü, həmçinin informasiya məhsulunda arzuolunmaz vərdişlərə rəğbət aşılayan bəzi xüsusi mərasim və mistik təlimlərin, spiritizmin istifadəsi;

**1.0.15.** naturalist (təbii) təsvir – canlının, əşyanın, hadisənin, hərəkətin (hərəkətsizliyin) və onların nəticələrinin informasiya məhsulu istifadəçisinin diqqətini detallara, anatomik məsələlərə və ya fizioloji proseslərə cəlb edə bilən təsvirləri və ya görüntüləri;

**1.0.16.** erotik məzmunlu informasiya – pornoqrafik olmayan, lakin uşaqlarda vaxtından əvvəl seksual marağın oyanmasına səbəb olan informasiya məhsulları;

**1.0.17.** informasiya məhsulunun işarələnməsi – informasiya məhsulunun üzərində, onun daşıyıcısında və qablaşdırmasında yaş kateqoriyası işarəsinin göstərilməsi;

**1.0.18.** uşaqların ola biləcəyi yerlər – uşaqların ziyarət etməsi və ya olması qadağan olunmayan yerlər, o cümlədən uşaqların informasiya məhsullarına (telekommunikasiya şəbəkələrində yerləşdirilən informasiya məhsulları daxil olmaqla) girişi mümkün olan ictimai yerlər;

**1.0.19.** ekspert – bu Qanunla müəyyən edilmiş tələblərə cavab verən, pedaqogika, psixologiya və ya uşaq psixiatriyası sahəsində ali təhsilə malik və informasiya məhsulunun yaş təsnifatının aparılması məqsədi ilə ekspert rəyi verən şəxs.

**Maddə 2. Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

**2.1.** Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və digər normativ hüquqi aktlardan ibarətdir.

**2.2.** Bu Qanun aşağıdakı münasibətlərə tətbiq edilmir:

**2.2.1.** elmi və elmi-texniki informasiya məhsullarının dövriyyəsinə;

**2.2.2.** yayılması terrorizm, ekstremizm, sülh və insanlıq əleyhinə cinayətlərlə mübarizə sahəsində mövcud olan qanunlarla qadağan edilən və məhdudlaşdırılan informasiyaların dövriyyəsinə.

**Maddə 3. Uşaqların zərərli informasiyadan qorunması sahəsində əsas prinsiplər**

**3.0.** Uşaqların zərərli informasiyadan qorunmasının əsas prinsipləri aşağıdakılardır:

**3.0.1.** uşaqların mənafelərinin üstün tutulması, onların hüquq və azadlıqlarının təmin olunması;

**3.0.2.** uşaqların həyat və sağlamlığı üçün təhlükəsiz olan, onların hərtərəfli inkişafını və sosiallaşmasını təmin edən informasiya məhsullarının dövriyyəsinə şəraitin yaradılması;

**3.0.3.** zorakılığın, qəddarlığın, narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu içkilərin və tütün məmulatlarının, cəmiyyət əleyhinə davranışın, pornoqrafik xarakterli informasiyanın təbliğinin yolverilməzliyi;

**3.0.4.** zərərli informasiya məhsullarının dövriyyəyə daxil edilməsinin, o cümlədən informasiya texnologiyalarından istifadə etməklə uşaqlara qarşı törədilən hüquqpozmaların qarşısının alınması;

**3.0.5.** uşaqların zərərli informasiyadan qorunması sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi.

**Maddə 4. Uşaqlar üçün zərərli informasiyanın növləri**

**4.1.** Uşaqlar üçün zərərli informasiyaya aşağıdakılar aiddir:

**4.1.1.** bu Qanunun 4.2-ci maddəsinə uyğun olaraq uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya;

**4.1.2.** bu Qanunun 4.3-cü maddəsinə uyğun olaraq müəyyən yaş qrupuna aid olan uşaqlar arasında dövriyyəsi məhdudlaşdırılan informasiya (dövriyyəsi məhdudlaşdırılmış yaş qrupuna münasibətdə).

**4.2.** Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyaya aiddir:

**4.2.1.** zorakılığı və qəddarlığı təbliğ edən informasiya;

**4.2.2.** cəmiyyət əleyhinə və hüquqazidd hərəkətləri, o cümlədən cinayətləri təbliğ edən informasiya;

**4.2.3.** uşaqların həyat və təhlükəsizliyinə potensial təhlükə yaradan əməlləri təbliğ edən informasiya;

**4.2.4.** ailə institutunu nüfuzdan salan informasiya;

**4.2.5.** əxlaqdan kənar leksik (söyüş) məzmunlu informasiya;

**4.2.6.** pornoqrafik xarakterli informasiya.

**4.3.** Müəyyən yaş qrupuna aid uşaqlar arasında dövriyyəsi məhdudlaşdırılan informasiyaya aiddir:

**4.3.1.** zorakılığı və qəddarlığı nümayiş edən informasiya;

**4.3.2.** qeyri-məişət leksik (jarqon) məzmunlu informasiya;

**4.3.3.** qorxu məzmunlu informasiya;

**4.3.4.** erotik məzmunlu informasiya.

**4.4.** Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsullarının uşaqların ola biləcəyi yerlərdə inzibati, texniki proqram və avadanlıq vasitələrinin tətbiq edilmədən yayılmasına yol verilmir.

**4.5.** Müəyyən yaş qrupuna aid olan uşaqlar arasında yayılması məhdudlaşdırılan informasiyanın dövriyyəsi bu Qanunun 7-12-ci maddələrinə uyğun olaraq həyata keçirilir.

**4.6.** Uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiyanın istehsalçısı və yayıcısı bu Qanunda müəyyən edilmiş qaydalara riayət etməyə borcludur.

*2-ci fəsil*

## İNFORMASİYA MƏHSULUNUN YAŞA GÖRƏ TƏSNİFATLAŞDIRILMASI

**Maddə 5. İnformasiya məhsulunun yaş təsnifatı**

**5.1.** İnformasiya məhsullarının bu Qanunun 7-ci maddəsinə uyğun olaraq yaş təsnifatı aparılır.

**5.2.** İnformasiya məhsullarının yaş kateqoriyasına uyğun təsnifatı müxtəlif yaş qrupuna aid olan uşaqların normaya uyğun psixi inkişafının xüsusiyyətləri nəzərə alınaraq aşağıdakı kimi aparılır:

**5.2.1.** "universal" – istənilən yaş qrupları üzrə dövriyyəsinə məhdudiyyət qoyulmur;

**5.2.2.** "6 yaşadək" – altı yaşı tamam olmamış uşaqlar arasında dövriyyəsinə yol verilir;

**5.2.3.** "6 yaşdan" – altı yaşı tamam olmuş uşaqlar arasında dövriyyəsinə yol verilir;

**5.2.4.** "12 yaşdan" – on iki yaşı tamam olmuş uşaqlar arasında dövriyyəsinə yol verilir;

**5.2.5.** "16 yaşdan" – on altı yaşı tamam olmuş uşaqlar arasında dövriyyəsinə yol verilir;

**5.2.6.** "18 yaşdan" – uşaqlar arasında dövriyyəsinə yol verilmir.

**5.3.** İnformasiya məhsulunun yaşa görə təsnifatlaşdırılması onun istehsalçıları tərəfindən həmin məhsulun Azərbaycan Respublikasının ərazisində dövriyyəsindən əvvəl müstəqil şəkildə və ya bu Qanunun 4-cü fəslinə müvafiq olaraq ekspertin iştirakı ilə həyata keçirilir. İnforma-

siya məhsulunun yayıcısı həmin məhsulun müstəqil şəkildə və ya ekspertin iştirakı ilə yaşa görə təsnifatlaşdırılmasını təmin etmədən ölkə ərazisində yaya bilməz.

**5.4.** İnformasiya məhsulunun yaşa görə təsnifatlaşdırılması zamanı aşağıdakılar qiymətləndirilir:

**5.4.1.** informasiya məhsulunun mövzusu, janrı, məzmunu və bədii tərtibatı;

**5.4.2.** informasiyanın müəyyən yaş kateqoriyasına aid uşaqlar tərəfindən mənimsənilməsinin xüsusiyyətləri;

**5.4.3.** informasiyanın uşaqların sağlamlığına və fiziki, psixi, əxlaqi inkişafına zərər vurma ehtimalı.

**5.5.** Təhsil müəssisələrində uşaqların təhsil və tərbiyəsi üçün nəzərdə tutulan informasiya məhsullarının qiymətləndirilməsi bu Qanunun tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasının təhsil haqqında qanunvericiliyinə uyğun aparılır.

**Maddə 6. İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi**

**6.1.** "Universal" yaş kateqoriyasına aid informasiya məhsullarına uşaqların sağlamlığına və inkişafına ziyan vurmayan ümumi istifadə üçün nəzərdə tutulmuş informasiya məhsulları aid edilir.

**6.2.** "18 yaşdan" kateqoriyasına bu Qanunun 4.2-ci maddəsinə əsasən uşaqlar arasında dövriyyəsi qadağan olunan informasiya məhsulları aiddir.

**6.3.** İnformasiya məhsulu yalnız bir yaş kateqoriyasına aid edilir.

**6.4.** İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

*3-cü fəsil*

## YAŞ KATEQORİYALARINA UYĞUN İNFORMASİYA MƏHSULUNUN DÖVRİYYƏSİNƏ DAİR TƏLƏBLƏR

**Maddə 7. İnformasiya məhsulunun işarələnməsi**

**7.1.** İnformasiya məhsulunun işarələnməsi bu Qanunun 5.3-cü maddəsinə uyğun olaraq informasiya məhsulunun istehsalçısı və ya yayıcısı tərəfindən məhsulun və onun qablaşdırmasının üzərinə müvafiq yaş kateqoriyasına uyğun aşağıdakı işarələrdən birinin aydın şəkildə seçilən təsvirini yerləşdirməklə həyata keçirilir:

**7.1.1.** "6 yaşadək" - "6-" işarəsi çevrədə;

**7.1.2.** "6 yaşdan" - "6+" işarəsi çevrədə;

**7.1.3.** "12 yaşdan" - "12+" işarəsi çevrədə;

**7.1.4.** "16 yaşdan" - "16+" işarəsi çevrədə;

**7.1.5.** "18 yaşdan" - "18+" işarəsi rombda.

**7.2.** Ölkə ərazisində istehsal olunan kompüter və digər elektron oyunların işarələnməsi satışa çıxarılmazdan, istehlakçıya təqdim edilməzdən və ya şəbəkəyə yerləşdirilməzdən əvvəl həyata keçirilməlidir.

**7.3.** Aşağıdakılar istisna olmaqla, informasiya məhsulunun işarələnmədən ölkə ərazisində yayılması yol verilməzdir:

**7.3.1.** "Universal" yaş kateqoriyasına aid informasiya məhsulu;

**7.3.2.** təhsil müəssisələrində uşaqların təhsil və tərbiyəsi üçün nəzərdə tutulan informasiya məhsulları;

**7.3.3.** canlı efirdə yayımlanan televiziya verilişlərinin informasiya və əyləncə proqramları;

**7.3.4.** radio vasitəsilə yayılan informasiya məhsulları;

**7.3.5.** reklam və reklam xarakterli materiallar;

**7.3.6.** mədəni-kütləvi tədbirlər vasitəsilə yayılan informasiya məhsulları;

**7.3.7.** internet və sellülar (mobil) rabitə şəbəkəsi vasitəsilə yayılan informasiya məhsulları (kino, televiziya və videofilmlər, o cümlədən animasiya filmləri, kompüter və digər elektron oyunlar istisna olmaqla);

**7.3.8.** təsviri incəsənət və bədii ədəbiyyat əsərləri (bədii-ədəbi jurnallar və komikslər istisna olmaqla).

**7.4.** İnformasiya məhsulunun mədəni-kütləvi tədbirlər vasitəsilə yayılması, onun aid edildiyi yaş kateqoriyasına dair işarənin tədbirin keçirilməsi barədə afişaların və digər elanların, həmçinin onu ziyarət etmək hüququ verən biletlərin, dəvətnamələrin və digər sənədlərin üzərində yerləşdirmək yolu ilə həyata keçirilir.

**7.5.** Bir neçə hissədən ibarət olan və müxtəlif yaş kateqoriyalarına aid edilən informasiya məhsulunun nümayişi həmin informasiya məhsulunda əks olunan, daha yuxarı yaş kateqoriyasına aid informasiya məhsulunun işarəsi ilə işarələnməklə həyata keçirilir.

**Maddə 8. İnformasiya məhsulunun işarələnməsinin xüsusiyyətləri**

**8.1.** Mətbu nəşrlərin yaş kateqoriyasına görə işarəsi aydın seçilən şəkildə və mətbu nəşrin adının şriftinə uyğunlaşdırılmış qaydada nəşrin birinci və ya titul səhifəsində yerləşdirilir.

**8.2.** İnformasiya məhsulunun yayımçıları televiziya yayımı, kino və video xidmətlərinin göstərilməsi zamanı hər bir informasiya məhsulunun nümayişindən əvvəl xüsusi kadrda (səhifədə) informasiya məhsulunun yaş kateqoriyasına uyğun işarəsinin və yaş məhdudiyyəti barədə xəbərdarlığa dair mətnin yerləşdirilməsini təmin etməyə borcludurlar.

**8.3.** Audiovizual informasiya məhsulunun yaş kateqoriyasına uyğun işarəsi onun nümayişindən əvvəl və hər reklam fasiləsindən sonra üç dəqiqə müddətində ekranın künc hissəsində göstərilir.

**8.4.** İnformasiya məhsulunun yaş kateqoriyasına uyğun işarəsi aşağıda göstərilənlərin beş faizindən az olmayan sahəsini tutmalıdır:

**8.4.1.** teatrların, kino və video nümayişlərin və digər mədəni-kütləvi tədbirlərin afişalarının və repertuar haqqında digər elanların, o cümlədən giriş biletlərinin, dəvətnamələrin və ziyarət hüququ verən digər sənədlərin;

**8.4.2.** audiovizual əsərin, kompüter və ya digər elektron oyunların, kompüter proqramlarının elektron daşıyıcılarının və qablaşdırmasının.

**Maddə 9. Teleradio yayımı vasitəsilə yayımlanan informasiya məhsuluna aid tələblər**

**9.1.** Teleradio yayımı vasitəsilə yayımlanan və "Universal", "6-", "6+" və "12+" yaş kateqoriyalarına aid informasiya məhsullarının yayımlanmasına vaxt məhdudiyyəti qoyulmur.

**9.2.** Xüsusi dekoderlər vasitəsilə ödənişli əsasda həyata keçirilən informasiya məhsullarının telekanallarda yayımı istisna olmaqla, aşağıdakı informasiya məhsullarının yayımına məhdudiyyət qoyulur:

**9.2.1.** bu Qanunun 4.3.3-cü maddəsində nəzərdə tutulan "16+" yaş kateqoriyasına aid informasiya məhsulları – yerli vaxtla saat 7-dən saat 21-dək;

**9.2.2.** bu Qanunun 4.2-ci və 4.3.4-cü maddələrində nəzərdə tutulan, müvafiq olaraq "18+" və "16+" yaş kateqoriyalarına aid informasiya məhsulları – yerli vaxtla saat 6-dan saat 23-dək;

**9.3.** "18+" yaş kateqoriyasına aid informasiya məhsulu teleradio vasitəsilə yayımlanarkən bu informasiya məhsulunun yaş kateqoriyası haqqında xəbərdarlıq televiziya yayımı zamanı işarə, radio yayımı zamanı isə səsləndirmə ilə həyata keçirilir.

**Maddə 10. İnformasiya məhsullarının telekommunikasiya şəbəkələri vasitəsilə yayımının xüsusiyyətləri**

**10.1.** Telekommunikasiya xidmətləri göstərən fiziki və hüquqi şəxslər "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq uşaqların zərərli informasiyadan qorunması üçün tədbirlər görməlidirlər.

**10.2.** Uşaqların ola biləcəyi yerlərdə onların zərərli informasiyadan qorunması üçün telekommunikasiya xidmətləri göstərən fiziki və hüquqi şəxslər tərəfindən müvafiq tədbirlər texniki proqram və avadanlıq vasitələrinin tətbiqi ilə həyata keçirilir.

**10.3.** İnternet informasiya ehtiyatlarında informasiya məhsulunun uşaqlar arasında yayılmasını məhdudlaşdıran xəbərdarlıq mətni əks olunmalıdır.

**Maddə 11. Uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarının dövriyyəsinə dair əlavə tələblər**

**11.1.** Uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarında (telekommunikasiya şəbəkələri, o cümlədən internet şəbəkəsi vasitəsilə yayılan informasiya məhsulları və sellülar (mobil) rabitə şəbəkəsi də daxil olmaqla) onların zərərli informasiya məhsulunun hazırlanmasına cəlb edilməsi barədə elanların yerləşdirilməsinə yol verilmir.

**11.2.** Məktəbəqədər təhsil müəssisələrində uşaqların təlimi üçün nəzərdə tutulan informasiya məhsullarının məzmunu və bədii tərtibatı altı yaşadək uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarının məzmununa və bədii tərtibatına uyğun olmalıdır.

**11.3.** Uşaqlar üçün kino və video xidmətlərin göstərilməsi zamanı, uşaq teleradio proqramlarında və verilişlərində, uşaqlar üçün nəzərdə tutulmuş dövri mətbu nəşrlərdə yayılan reklam onun yerləşdirildiyi informasiya məhsulunun yaş kateqoriyasına uyğun olmalıdır.

**Maddə 12. Uşaqlar üçün qadağan olunan informasiya məhsullarının dövriyyəsinə dair əlavə tələblər**

**12.1.** Məhdud şəxslər dairəsində yayılması nəzərdə tutulan mətbu nəşrin birinci və sonuncu səhifəsində, çap məhsulunun və digər poliqrafik məhsulun üz və arxa qabığında uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyanın əks olunmasına yol verilmir. Əks halda, həmin informasiya məhsulunun yayılmasına yalnız bağlı qablaşdırmada yol verilir.

**12.2.** Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsulunun uşaqlar üçün nəzərdə tutulmuş təhsil müəssisələrində, tibb, sanatoriya-kurort, bədən tərbiyəsi və idman, mədəniyyət, istirahət və sağlamlaşdırma müəssisələrində və ya həmin müəssisələrin sərhədindən yüz əlli metrdən az olan məsafədə yayılmasına yol verilmir.

*4-cü fəsil*

**İNFORMASİYA MƏHSULUNUN EKSPERTİZASI**

**Maddə 13. İnformasiya məhsullarının ekspertizasına dair ümumi tələblər**

**13.1.** Yaş təsnifatının aparılması məqsədi ilə informasiya məhsulunun ekspertizası müvafiq icra hakimiyyəti orqanından ixtisas attestatı almış fiziki şəxslər (ekspertlər) tərəfindən bu Qanunun 14-cü maddəsində müəyyən edilmiş qaydada həyata keçirilir. Şəxsə ixtisas attestatının verilməsi üçün onun işlədiyi hüquqi şəxs (ekspert təşkilatı) bu barədə müvafiq icra hakimiyyəti orqanına müraciət edir. Ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılmasını və onların fəaliyyətinə nəzarəti müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

**13.2.** İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədə olma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

**13.3.** Həyat və sağlamlıq əleyhinə ağır və xüsusilə ağır cinayətlər, yaxud şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı, yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri və ya ictimai mənəviyyat əleyhinə cinayətlər törətməyə görə məhkum edilmiş şəxslər ekspert kimi fəaliyyət göstərə bilməz.

**13.4.** Müvafiq icra hakimiyyəti orqanı ekspertlərin və ekspert təşkilatlarının reyestrində olan aşağıdakı məlumatları rəsmi internet informasiya ehtiyatında yerləşdirir:

**13.4.1.** ekspert təşkilatının adı və təşkilati-hüquqi forması, ekspert fəaliyyətinin həyata keçirildiyi ünvanlar;

**13.4.2.** ekspertin adı, atasının adı və soyadı;

**13.4.3.** ixtisas attestatının nömrəsi və verilmə tarixi;

**13.4.4.** ekspertin ekspertizasını aparmaq hüququ olan informasiya məhsulunun növü;

**13.4.5.** verilmiş ixtisas attestatının qüvvədə olma müddətinin dayandırılması və ya onun ləğv edilməsi barədə məlumat.

**13.5.** Ekspertlərin xidmət haqqı ekspertizanı sifariş edən şəxs tərəfindən ödənilir.

**Maddə 14. İnformasiya məhsulunun ekspertizasının aparılması qaydası**

**14.1.** Yaş təsnifatının aparılması məqsədi ilə informasiya məhsulunun ekspertizası bu Qanunun 5.3-cü maddəsinə uyğun olaraq informasiya məhsulunun istehsalçısı və ya yayıcısı tərəfindən təşkil olunur.

**14.2.** Bu Qanunun icrasına nəzarəti həyata keçirən teleradio yayımı sahəsində müvafiq dövlət orqanı və müvafiq icra hakimiyyəti orqanları (bundan sonra – müvafiq dövlət orqanları) informasiya məhsulunun işarələnmədiyi və yaxud bu Qanunun tələblərini pozmaqla işarələndiyi barədə məlumat əldə etdikdə müstəqil şəkildə həmin informasiya məhsulunun ekspertizasını təşkil edir.

**14.3.** İnformasiya məhsulunun ekspertizasının aparılma müd**dəti otuz gündən çox ola bilməz.**

**14.4.** Ekspertizanın nəticələrini özündə əks etdirən ekspert rəyi ekspertizanı sifariş edən şəxsə təqdim edilir. Bu Qanunun 14.2-ci maddəsinə əsasən aparılan ekspertiza üzrə ekspert rəyinin surəti informasiya məhsulunun istehsalçısına və ya yayıcısına göndərilir.

**Maddə 15. Ekspert rəyi**

**15.1.** Ekspert rəyində aşağıdakılar göstərilir:

**15.1.1.** informasiya məhsulunun ekspertizasının aparıldığı tarix və yer;

**15.1.2.** ekspertizanın aparılmasının əsasları;

**15.1.3.** ekspertizanı aparan ekspert haqqında (soyadı, adı və atasının adı, təhsili, ixtisası, vəzifəsi və elmi dərəcəsi) məlumat;

**15.1.4.** ekspertizanın aparılması üçün ekspertə təqdim edilmiş tədqiqat obyektləri və materialları;

**15.1.5.** istifadə edilən metodlar göstərilməklə tədqiqatın məzmunu və nəticələri;

**15.1.6.** tədqiqatın nəticələrinin qiymətləndirilməsi, qoyulmuş suallar üzrə yekun nəticələrin əsaslandırılması və dürüst ifadə olunması;

**15.1.7.** informasiya məhsulunda uşaqlar üçün zərərli olan informasiyanın olub-olmaması, informasiya məhsulunun bu Qanunla müəyyən edilmiş yaş kateqoriyasına və işarəyə uyğunluğu barədə nəticələr;

**15.1.8.** ekspertizanı aparmış ekspertin imzası, həmçinin ekspert təşkilatının möhürü və həmin təşkilatın rəhbərinin imzası.

**15.2.** Ekspert rəyində aşağıdakı əsas sualları cavablandırılmalıdır:

**15.2.1.** təqdim edilən informasiya məhsulu hansı yaş kateqoriyasına aiddir;

**15.2.2.** informasiya məhsulu aid edilmiş yaş kateqoriyasına uyğundurmu;

**15.2.3.** informasiya məhsulunda bu Qanuna əsasən uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiya mövcuddurmu.

**15.3.** Ekspert rəyi ilə razı olmayan hüquqi və ya fiziki şəxs həmin rəydən müvafiq icra hakimiyyəti orqanının yaratdığı, informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspert şurasına şikayət verə və rəyi məhkəmə qaydasına mübahisələndirə bilər. Həmin şuranın tərkibinə bu Qanunun 14.2-ci maddəsində nəzərdə tutulan orqanların nümayəndələri də daxil olur. İctimai əsaslarla fəaliyyət göstərən ekspert şurası müvafiq sahədə qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün tədbirlər görür. Şuranın əsasnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

**Maddə 16. İnformasiya məhsulunun ekspertizasının hüquqi nəticələri**

**16.1.** İnformasiya məhsulunun istehsalçısı və (və ya) yayıcısı ekspert rəyinə uyğun olaraq aşağıdakı qərarlardan birini qəbul edir:

**16.1.1.** ekspert rəyinə uyğun olaraq informasiya məhsulunun yaş kateqoriyasına uyğun işarələnməsi və ya əvvəlki yaş kateqoriyası işarəsinin digər yaş kateqoriyası işarəsi ilə əvəz edilməsi;

**16.1.2.** uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsulunun uşaqlar tərəfindən əldə olunmasının qarşısını almaq məqsədi ilə bu Qanunda nəzərdə tutulmuş inzibati, texniki proqram və avadanlıq vasitələrinin tətbiqi;

**16.1.3.** uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiya məhsulunun bu Qanunda nəzərdə tutulmuş inzibati, texniki proqram və avadanlıq vasitələri tətbiq etmədən uşaqlar arasında, o cümlədən uşaqlar üçün münasib vaxtda və onların ola biləcəyi ictimai yerlərdə yayılmasının dayandırılması və ya tamamilə dövriyyədən çıxarılması.

**16.2.** Bu Qanunun 14.2-ci maddəsinə əsasən müvafiq dövlət orqanlarının təşəbbüsü ilə aparılan ekspertiza üzrə ekspert rəyi yol verilmiş pozuntu hallarının təxirə salınmadan aradan qaldırılması barədə həmin orqan tərəfindən pozuntu törədən şəxsə yazılı xəbərdarlıq edilməsi üçün əsasdır.

**16.3.** İnformasiya məhsulunun istehsalçısı və (və ya) yayıcısı xəbərdarlıqda göstərilən müddətdə pozuntu hallarını aradan qaldırmadıqda müvafiq dövlət orqanları informasiya məhsulunun uşaqlar arasında yayılmasının qarşısının alınması və bu Qanunun tələblərinin pozulmasında təqsirli olan şəxslərin məsuliyyətə cəlb edilməsi üçün müvafiq tədbirlər görür.

*5-ci fəsil*

**YEKUN MÜDDƏALAR**

**Maddə 17. Qanunun icrasına nəzarət**

**17.1.** Bu Qanunun icrasına nəzarət dövlət və ictimai nəzarət formalarında həyata keçirilir.

**17.2.** Bu Qanunun icrasına dövlət nəzarəti fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq dövlət orqanları tərəfindən həyata keçirilir.

**17.3.** Bu Qanunun icrasına ictimai nəzarət fiziki şəxslər və vətəndaş cəmiyyəti institutları tərəfindən təşkil olunur və həyata keçirilir.

**Maddə 18. Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Maddə 19. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 oktyabr 2018-ci il
№ 1310-VQ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** üç ay müddətində:

**1.1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.1.2.** həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.1.3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.4.** həmin Qanunun 6.4-cü maddəsinə uyğun olaraq, informasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**1.1.5.** həmin Qanunun 13.2-ci maddəsinə uyğun olaraq, informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam

verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**1.1.6.** həmin Qanunun 15.3-cü maddəsinə uyğun olaraq, informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspert şurasının əsasnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**1.2.** həmin Qanunun 13.1-ci maddəsinin birinci, ikinci, üçüncü cümlələrində, 13.4-cü maddəsində, 15.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının və 14.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini həyata keçirəcək icra hakimiyyəti orqanları barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki:

**3.1.** "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 6.4-cü, 13.2-ci maddələrində və 15.3-cü maddəsinin dördüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

**3.2.** həmin Qanunun 14.2-ci maddəsində "teleradio yayımı sahəsində müvafiq dövlət orqanı" dedikdə Milli Televiziya və Radio Şurası nəzərdə tutulur.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 noyabr 2018-ci il
№ 354

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsini və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsini "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1118-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 352.2-ci maddədə "narkoloji-tibb müəssisəsinin əsaslandırılmış tibbi rəyi" sözləri "narkoloji-tibb müəssisəsinin həkim-məsləhət komissiyasının əsaslandırılmış rəyi" sözləri ilə əvəz edilsin;

**1.2.** 354-cü və 355-ci maddələrdə "tibbi rəyi" sözləri "həkim-məsləhət komissiyasının rəyi" sözləri ilə əvəz edilsin.

**1.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1613, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddə 1243, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddə 1697, № 9, maddə 1840; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 noyabr tarixli 331 nömrəli, 15 noyabr tarixli 343 nömrəli və 23 noyabr tarixli 360 nömrəli fərmanları) 5.1-ci bəndinə "323," rəqəmlərindən sonra "326-1," rəqəmləri əlavə edilsin və həmin bənddən "342.1.10," rəqəmləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 noyabr tarixli 329 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 2.1-ci, 2.2-ci və 2.4-cü bəndlərinə "323," rəqəmlərindən sonra "326-1," rəqəmləri əlavə edilsin və həmin bəndlərdən "342.1.10," rəqəmləri çıxarılsın.

**3.** Bu Fərmanın Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 326-1-ci maddəsi ilə bağlı müddəaları 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 dekabr 2018-ci il
№ 409

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1094-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 55-2-ci hissə əlavə edilsin:

**"55-2.** Məcəllənin 517-2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**55-2.1.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Müdafiə Nazirliyi adından — müdafiə naziri, müdafiə nazirinin birinci müavini - Baş Qərargah rəisi, müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı, digər nazir müavinləri, Nazirliyin Aparatının baş idarə (idarə) rəisləri, qarnizon rəisləri, Hərbi Polis İdarəsinin rəisi, qarnizon hərbi polisinin rəisləri (qarnizonun hərbi komendantları), Nazirliyin hərbi hissə komandirləri;

**55-2.2.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından — bu Siyahının 62-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

**55-2.3.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi adından – fövqəladə

hallar naziri, onun müavinləri, Nazirliyin Aparatının idarə rəisi, onun müavini, şöbə müdiri, onun müavini, Mülki Müdafiə Qoşunlarının komandanı, onun müavinləri, Mülki Müdafiə Qoşunları hərbi hissələrinin komandirləri, Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri və onun müavini;

**55-2.4.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti adından – Xidmətin rəisi, onun müavinləri, Xidmətin Aparatının müvafiq strukturlarının rəhbərləri (rəisləri), Xidmətin hərbi hissələrinin komandirləri;

**55-2.5.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından – Xidmətin rəisi, onun müavinləri, Xidmətin Aparatının müvafiq strukturlarının rəhbərləri (rəisləri), Xidmətin hərbi hissələrinin komandirləri, Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, onun müavini;

**55-2.6.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti adından – Xidmətin rəisi, onun birinci müavini, Sərhəd Qoşunlarının komandanı, Əlahiddə Sərhəd Diviziyasının komandiri, Sahil Mühafizəsinin rəisi, Çevik Hərəkət Qüvvələrinin komandanı, Sərhəd Nəzarətinin rəisi, Xidmətin Aparatının müvafiq idarələrinin rəisləri, onların müavinləri, sərhəd dəstələrinin rəisləri, Xidmətin hərbi hissələrinin komandirləri;

**55-2.7.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti adından – bu Siyahının 75-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 dekabr 2018-ci il
№ 430

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 794; 2008, № 1, maddə 9; 2011, № 3, maddə 183, № 4, maddə 273, № 5, maddə 379; 2013, № 6, maddə 653; 2014, № 7, maddə 816; 2017, № 3, maddə 375; 2018, № 2, maddə 1850) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"nə aşağıdakı məzmunda 5.8-1-ci yarımbənd əlavə edilsin:

**"5.8-1.** cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlərin mərkəzləşmiş statistikasının elektron formada aparılmasını təşkil edir, həmin cinayətlərlə bağlı statistik məlumatların toplanması, emalı və ötürülməsi üzrə informasiya sisteminin fəaliyyətini təmin edir;".

**2.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidməti bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan statistik məlumatları Azərbaycan Respublikasının Baş Prokurorluğunun müəyyən etdiyi formaya əsasən Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə mütəmadi olaraq təqdim etsinlər.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Mərkəzi Bankı rezidentlər və qeyri-rezidentlər tərəfindən milli valyutanın nağd şəkildə Azərbaycan Respublikasından çıxarılması və Azərbaycan Respublikasına gətirilməsi zamanı bəyan edilməsi qaydasının müəyyən edilməsi üçün üç gün müddətində zəruri tədbirlər görüb bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**4.1.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**4.2.** "Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə verilməsi Qaydası"nı üç gün müddətində təsdiq edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**4.3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**4.4.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**5.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

**5.1.** Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"nin 5.8-1-ci yarımbəndində nəzərdə tutulmuş məlumatlarla bağlı məhkəmə statistikasını Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən müəyyən edilmiş formaya əsasən Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə mütəmadi olaraq təqdim etsin;

**5.2.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 8 oktyabr 2018-ci il
№ 299

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 794; 2008, № 1, maddə 9; 2011, № 3, maddə 183, № 4, maddə 273, № 5, maddə 379; 2013, № 6, maddə 653; 2014, № 7, maddə 816; 2017, № 3, maddə 375; 2018, № 2, maddə 214; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 8 oktyabr tarixli 299 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"nə aşağıdakı məzmunda 5.8-2-ci bənd əlavə edilsin:

**"5.8-2.** bu Əsasnamənin 5.8-1-ci bəndində nəzərdə tutulan statistik məlumatların aşağıdakılara təqdim edilməsini təmin edir:

**5.8-2.1.** "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi, o cümlədən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi sahəsində risklərin qiymətləndirilməsi məqsədilə həmin Qanunla müəyyən edilmiş nəzarət orqanlarına;

**5.8-2.2.** bu Əsasnamənin 5.8-2.1-ci yarımbəndində nəzərdə tutulan məqsədlərlə yanaşı cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirakın təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə.".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.4.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 noyabr 2018-ci il
№ 359

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında

Dövlət orqanlarında (qurumlarında) qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması və rəqəmsal idarəçiliyin tətbiq edilməsi dövlət siyasətinin prioritetlərindən biridir və bu sahədə mühüm nailiyyətlər əldə edilmişdir. Bununla belə, həyata keçirilən tədbirlərin daha yüksək səviyyədə davam etdirilməsi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zəruridir.

Dövlət orqanlarında (qurumlarında) rəqəmsal idarəçiliyin inkişafı, daxili idarəetmə proseslərinin (kargüzarlığın aparılması, sənədlərin icrasına nəzarət, arxiv, kadrların idarə olunması, maliyyə-uçot və mühasibat, təchizat və təminat) optimallaşdırılması və elektronlaşdırılması, bu sahədə çevik və effektiv idarəetmənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında kargüzarlığın aparılması işinin səmərəli təşkili üçün "Elektron sənəd dövriyyəsi sistemi" yaradılsın.

**2.** Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsi əsasında yaradılan "Elektron sənəd dövriyyəsi sistemi"nin sahibi funksiyasını Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, maddi-texniki təminatını, işlək vəziyyətdə olmasını (operator funksiyasını) və təhlükəsizliyinin təmin edilməsini Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirir.

**3.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

**3.1.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında 2019-cu il aprelin 1-dək "Elektron sənəd dövriyyəsi sistemi"nin proqram təminatının hazırlanmasını və tətbiqini təmin etsin;

**3.2.** idarələrarası elektron sənəd dövriyyəsi sisteminin səmərəli fəaliyyəti üçün zəruri tədbirlər görülməsini təmin etsin;

**3.3.** Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 692 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"də dəyişikliklər edilməsinə dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**3.4.** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"da dəyişikliklər edilməsinə dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**3.5.** dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması sahəsində qabaqcıl beynəlxalq təcrübənin Azərbaycanda tətbiqinin təmin edilməsi və müvafiq normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə mütəmadi olaraq təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**3.6.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi:

**4.1.** bu Fərmanın 3.1-ci bəndindən irəli gələn zəruri tədbirlərin görülməsini təmin etsin;

**4.2.** "Elektron sənəd dövriyyəsi sistemi"nin proqram təminatına texniki dəstəyi və onun mütəmadi təkmilləşdirilməsinin həyata keçirilməsini təmin etsin.

**5.** Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi 2020-ci il dekabrın 31-dək:

**5.1.** Elektron Hökumət İnformasiya Sistemi infrastrukturunda mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi altsisteminin yaradılmasını və təhlükəsizlik tələblərinə (Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə razılaşdırmaqla) cavab verməklə, həmin altsistemin idarələrarası elektron sənəd dövriyyəsi sisteminə inteqrasiyasını təmin etsin;

**5.2.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin Elektron Hökumət İnformasiya Sistemi üzərindən mərkəzləşdirilmiş qaydada elektronlaşdırılmasını və tətbiqini təmin etsin.

**6.** Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər 2020-ci il dekabrın 31-dək Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təklifləri əsasında elektron sənəd dövriyyəsi altsisteminə qoşulmanı, elektron sənəd dövriyyəsi sistemi mövcud olduğu təqdirdə isə inteqrasiyanı təmin etsinlər.

**7.** Bu Fərmanın 6-cı hissəsində nəzərdə tutulan orqanlardan (qurumlardan) başqa, idarələrarası elektron sənəd dövriyyəsi sisteminin digər iştirakçılarına tövsiyə edilsin ki, daxili idarəetmə sistemlərinin elektronlaşdırılmasını, bu sistemlərin Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Data Mərkəzində saxlanılmasını və daxili sənəd dövriyyəsi sistemlərinin idarələrarası elektron sənəd dövriyyəsi sisteminə inteqrasiyasını təmin etsinlər.

**8.** Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

**8.1.** bu Fərmanın 5-ci və 6-cı hissələrinə əsasən yaradılan daxili idarəetmə proseslərinin elektron sistemlərinin istifadəçiləri üçün elektron imza və Data Mərkəzindən istifadə ilə bağlı tariflərin, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla təsdiq olunmasını təmin etsin;

**8.2.** bu Fərmanın 5-ci və 6-cı hissələrində göstərilən daxili idarəetmə proseslərinin elektron sistemlərinin Data Mərkəzində saxlanılmasının təşkili üçün tədbirlər görsün.

**9.** Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti bu Fərmanda göstərilən elektron sistemlərin mühafizə olunan rabitə kanallarına çıxışını təmin etsin.

**10.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**10.1.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**10.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**10.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**10.4.** bu Fərmanda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təmin etsin;

**10.5.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**11.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**12.** Bu Fərman dövlət sirri təşkil edən məlumatların dövriyyəsinə şamil olunmur.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 oktyabr 2018-ci il
№ 314

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında

Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Dünya dövlətləri narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını və narkomanlığın müalicəsi metodlarını təkmilləşdirirlər.

Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndən bəri dövlət quruculuğu, siyasi, iqtisadi, sosial və digər sahələrdə həyata keçirilən islahatlar nəticəsində narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə üzrə beynəlxalq standartlara uyğun institusional və qanunvericilik tədbirləri həyata keçirilmiş, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq münasibətləri qurulmuşdur.

Narkotiklərlə Mübarizə üzrə Beynəlxalq Konfransın qərarına əsasən, Azərbaycan 2019-cu ildə bu mötəbər qurumun növbəti konfransına ev sahibliyi edəcəkdir. Belə bir qərarın qəbul olunması ölkəmiz üçün olduqca mühümdür və beynəlxalq təşkilatlarla tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu il 16–18 aprel tarixlərində Bakı şəhərində keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu il 16–18 aprel tarixlərində Bakı şəhərində keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Əli Həsənov – Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsi sədrinin müavini**

Ramil Usubov - Azərbaycan Respublikasının daxili işlər naziri

**Təşkilat Komitəsinin üzvləri**

Elmar Məmmədyarov – Azərbaycan Respublikasının xarici işlər naziri

Samir Şərifov – Azərbaycan Respublikasının maliyyə naziri

Oqtay Şirəliyev – Azərbaycan Respublikasının səhiyyə naziri

Fikrət Məmmədov – Azərbaycan Respublikasının ədliyyə naziri

Ceyhun Bayramov – Azərbaycan Respublikasının təhsil naziri

Azad Rəhimov – Azərbaycan Respublikasının gənclər və idman naziri

Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət naziri

Zakir Qaralov – Azərbaycan Respublikasının Baş prokuroru

Səfər Mehdiyev – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Mədət Quliyev – Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Elçin Quliyev – Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Nuşirəvan Məhərrəmov – Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının sədri

Azay Quliyev – Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Fidumə Hüseynova – Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini

Rauf Zeyni - Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti.

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Təşkilat Komitəsi 2019-cu il 16–18 aprel tarixlərində Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın Bakı şəhərində keçirilməsinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 noyabr 2018-ci il
№ 694

# AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

## ƏMR

## № 10/83

Bakı şəhəri 27 noyabr 2018-ci il

### "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlərin vahid məlumat bazasına dair" Təlimatın və "Təqdim edilməli olan məlumatların Siyahısı"nın təsdiq edilməsi barədə

"Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 08 oktyabr 2018-ci il tarixli 299 nömrəli Fərmanında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi (PL/TM) ilə əlaqəli cinayətlərin mərkəzləşmiş statistikasının elektron formada aparılmasının təşkil edilməsi, həmin cinayətlərlə bağlı statistik məlumatların toplanması, emalı və ötürülməsi üzrə informasiya sisteminin fəaliyyətinin təmin edilməsi nəzərdə tutulmuşdur. Statistik məlumatların formasının hazırlanması Azərbaycan Respublikasının Baş Prokurorluğunun səlahiyyətlərinə aid edilmişdir.

Göstərilən sahədə işin təşkil edilməsi məqsədilə müvafiq təcrübə, o cümlədən Avropa Şurasının Pulların Yuyulması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) bu sahədə təcrübəsi öyrənilmişdir.

Qeyd edilənlərdən irəli gələrək, statistik hesabatların hazırlanması və bu sahədə vəziyyətin öyrənilməsi, təhlil edilməsi və ümumiləşdirilməsi üçün vahid məlumat bazasının yaradılması zərurəti yaranmışdır.

Yuxarıda göstərilənləri və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlərin mərkəzləşdirilmiş qeydiyyatının aparılmasını təmin etmək məqsədilə, «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlər barədə vahid informasiya bazasına dair" Təlimat (əlavə edilir) və "Təqdim edilməli olan məlumatların Siyahısı" təsdiq olunsun (əlavə edilir).

**2.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi (bundan sonra - Baş İdarə) tərəfindən qısa müddətdə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlər barədə vahid məlumat bazasına dair" Təlimatın tələblərinə uyğun olaraq informasiya-sorğu sisteminin proqram təminatının yaradılması işi təşkil edilsin və vahid məlumat bazasının fəaliyyətə başlaması Baş İdarə və Baş Prokurorluğun İnformasiya-kommunikasiya texnologiyaları idarəsi tərəfindən təmin edilsin.

**3.** Baş İdarə tərəfindən Vahid məlumat bazasının fasiləsiz və dəqiq fəaliyyət göstərməsinin təşkil edilməsi, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlər barədə təsdiq edilmiş Siyahı üzrə məlumatların mütəmadi olaraq vaxtında və tam həcmdə təqdim edilməsi, bunun üçün cavabdeh olan prokurorluq işçisinin ayrılması, o cümlədən vahid məlumat bazasında toplanmış məlumatların emalı üçün zəruri tədbirlər görülsün və bazanın fəaliyyətinin nəticələrinə dair məlumatlar mütəmadi olaraq ümumiləşdirilib məruzə olunsun.

**4.** Qeyd edilən Fərmanda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarından məlumatların elektron qaydada vahid məlumat bazasına ötürülməsinin təmin edilməsi məqsədilə Baş İdarə tərəfindən zəruri tədbirlər görülməsi təmin edilsin.

**5.** Bu qəbildən olan cinayətlər üzrə cinayət-prosessual fəaliyyəti həyata keçirən Baş Prokurorluğun idarələri, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi, Bakı şəhər prokurorluqları tərəfindən statistik məlumatlarının sistemə inteqrasiya olunması, Baş Prokurorluğunun Beynəlxalq əlaqələr idarəsi tərəfindən isə hüquqi yardım və ekstradisiya haqqında məlumatlarının yerləşdirilməsi və bunun üçün cavabdeh olan prokurorluq işçisinin ayrılması təmin edilsin.

**6.** "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" 10 fevral 2009-cu il tarixli 767-IIIQ nömrəli Azərbaycan Respublikası Qanununun qəbul edilməsindən etibarən mövcud informasiya vahid məlumat bazasına yerləşdirilsin.

**7.** Baş Prokurorluğun Maddi texniki-təminat şöbəsi tərəfindən vahid məlumat bazasının yaradılması və normal fəaliyyət göstərməsi ilə əlaqədar zəruri tədbirlərin həyata keçirilməsi təmin edilsin.

**8.** Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

**9.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Azərbaycan Respublikası Baş Prokurorluğunun normativ hüquqi aktları" informasiya sisteminə daxil edilsin.

**Zakir Qaralov**
**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

*Azərbaycan Respublikası Baş prokurorunun 27 noyabr 2018-ci il tarixli 10/83 №-li əmri ilə təsdiq edilmişdir*

# Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlər barədə vahid məlumat bazasına dair

## TƏLİMAT

### 1. Ümumi müddəalar

**1.1.** Bu Təlimat "Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 08 oktyabr 2018-ci il tarixli 299 nömrəli Fərmanının 1 və 5.1-ci bəndlərinin tələblərinə əsasən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində (bundan sonra - Baş İdarə) yaradılmış vahid məlumat bazasında (bundan sonra - VMB) cinayət təqibini həyata keçirən orqanlarda araşdırılan, istintaq olunan və ya məhkəmədə baxılan cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi (bundan sonra - PL/TM) ilə əlaqəli cinayətlər barədə məlumatların toplanması, emalı və ötürülməsi üzrə informasiya sisteminin fəaliyyəti ilə əlaqədar məsələləri tənzimləyir.

**1.2.** PL/TM ilə əlaqəli cinayətlərin vahid uçotu sistemi bu qəbildən olan cinayətlərə dair məlumatların, həmin məlumatlar üzrə qəbul edilən qərarların, habelə cinayət işi başlandıqdan sonra bununla əlaqəli prosessual sənədlərin mərkəzləşdirilmiş qaydada uçota alınmasını, materialların və cinayət işlərinin hərəkəti, materiallar üzrə araşdırmanın, cinayət işlərinin istintaqının nəticələri barədə məlumatların, eləcə də həmin cinayətləri törətmiş şəxslərin qeydə alınmasını, o cümlədən istintaqın və məhkəmə baxışının nəticələrinə görə bu göstəricilərin yenilənməsini nəzərdə tutur.

**1.3.** Bu sənədin məqsədləri üçün əlaqəli cinayətlər dedikdə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 193-1, 194-ci maddələri, həmin maddələrdə nəzərdə tutulan cinayətlərin predmeti olan pul vəsaitləri və ya digər əmlakın əldə edildiyi cinayətlər (predikativ cinayətlər), habelə Cinayət Məcəlləsinin 214-1-ci və bununla əlaqədar olan 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulan cinayətlər nəzərdə tutulur.

### 2. Məlumatların verilməsi qaydası

**2.1.** Cinayət-prosessual fəaliyyəti həyata keçirən Azərbaycan Respublikası Prokurorluğunun bütün qurumları tərəfindən öz səlahiyyətləri daxilində PL/TM ilə bağlı cinayətlər barədə statistik məlumatların və cinayət-prosessual sənədlərin təxirəsalınmadan Baş İdarəyə göndərilməsi, o cümlədən aidiyyəti təhqiqat, istintaq və əməliyyat axtarış-fəaliyyətində qanunların icrasına nəzarət qurumları tərəfindən nəzarət etdikləri orqanlardan məlumatların bazaya inteqrasiya olunması təmin edilir.

**2.2.** Təqdim olunan məlumatlar araşdırmanın nəticəsi üzrə Siyahıya daxil edilir *(əlavə edilir).*

**2.3.** İş üzrə məhkəmələr tərəfindən yekun qərar qəbul edildikdən sonra Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə şöbələri tərəfindən bu barədə məlumat verilir.

**2.4.** Beynəlxalq əlaqələr idarəsi tərəfindən hüquqi yardım göstərilməsi və ya ekstradisiya ilə əlaqədar statistik məlumatlar Siyahı üzrə tələb olunan qaydada təqdim edilir və digər orqanlardan eyni məsələlərlə əlaqədar məlumatların əldə edilərək təqdim edilməsi işi təşkil edilir.

**2.5.** VMB-də PL/TM ilə əlaqəli cinayətlər barədə Siyahı üzrə müvafiq məlumatlar yerləşdirilir.

**2.6.** Məlumatlar material və cinayət işi üzrə məlumatlara uyğun olmalı, işin faktiki vəziyyətini və hallarını tam əks etdirməklə müəyyən edilmiş qaydada verilir.

**2.7.** Məlumatlar dolğun olmadıqda VMB-nin işlənməsini və ondan istifadəni təmin edən qurum tərəfindən təsdiq edilmədən geri qaytarılır, çatışmazlıqlar aşkar edildikdə, bu barədə qeyd aparılmaqla məlumat yerləşdirən tərəf xəbərdar olunur.

### 3. VMB-dan istifadə qaydası

**3.1.** Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsi öz Əsasnaməsi və bu Təlimata müvafiq olaraq, məlumatların VMB-da işlənməsini və ondan istifadə olunmasını təmin edir.

**3.2.** VMB-ya daxil edilmiş məlumatlar ümumiləşdirmələrin və təhlillərin aparılması, PL/TM sahəsində görülmüş işlərin effektivliyinin yoxlanılması məqsədləri üçün istifadə edilir.

**3.3.** Məlumatlar sorğuya əsasən dövlət sirrinin, şəxsi və ailə sirrinin, peşə və kommersiya sirrinin qorunması ilə bağlı cinayət-prosessual qanunvericiliyinin və digər normativ-hüquqi aktların tələblərinə riayət edilməklə maraqlı tərəflərə verilir. Təxirə salına bilinməyən müstəsna hallarda VMB-dan məlumatların götürülməsinə dair şifahi sorğular yalnız Baş prokuror və onun müavinləri tərəfindən verilə bilər. Bu halda sorğular xüsusi müəyyən edilmiş kitabda qeydiyyata alınır.

**3.5.** VMB-nın işinin düzgün təşkilinə cavabdeh olan əməkdaşlar tərəfindən məlumatların toplanması, işlənməsi, emalı və ötürülməsi qaydalarına riayət olunmaması xidməti intizamın pozuntusu kimi qiymətləndirilir.

**3.6.** PL/TM ilə əlaqəli cinayətlər barədə statistik məlumatlar üzrə Baş İdarə tərəfindən ildə iki dəfə ümumiləşdirmələr, təhlillər aparılır və zərurət olduğu halda işin səmərəliliyinin artırılması ilə əlaqədar təkliflər verilir.

### 4. Yekun müddəalar

**4.1.** VMB-nın elektron sənəd dövriyyəsinin təhlükəsizliyi və mühafizəsini Baş Prokurorluğun İnformasiya-kommunikasiya texnologiyaları idarəsi həyata keçirir.

**4.2.** Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsi məlumatların VMB-da toplanması, emalı və ötürülməsi üzrə informasiya sisteminin fəaliyyətinin düzgün təşkilinə, həmin məlumatların yayılmasının və qorunmasının qanuniliyinə görə məsuliyyət daşıyır.

**4.3.** Baş İdarə uçot-qeydiyyat işinin təşkil olunması və Təlimatın icra olunmasına ümumi nəzarəti həyata keçirir.

**4.4.** Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsi məlumatların VMB-ya inteqrasiya olunması işinin təşkili ilə əlaqədar Prokurorluğun bütün qurumlarına əməli köməklik göstərir.

| Bölmələr | № | Statistik kateqoriyalar | 100 | 101 | 102 | 103 |
|---|---|---|---|---|---|---|
| 1. Şübhəli pul köçür-mələrinə (STR) dair məlumat-lar barədə araşdır-malar üzrə | 1.1. | Cinayət işinin başlanması haqqında qərar qəbul edilməsinə dair qeyd | | | | |
| | 1.2. | Cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edilməsinə dair qeyd | | | | |
| | 1.3. | Toplanmış materialların aidiyyəti üzrə göndərilməsinə dair qeyd | | | | |
| 2. Cinayət tərkibləri üzrə | **2.1** | **Başlanmış cinayət işinin unikal nömrəsi** | | | | |
| 3. İbtidai araşdırma mərhələsindəki cinayət işləri üzrə | **3.1** | **İbtidai araşdırma mərhələsində olan cinayət işləri üzrə (fiziki şəxslər):** | | | | |
| | 3.1.1 | Cinayət işinin başlanılması üçün səbəblər və əsaslar | | | | |
| | 3.1.2 | Cinayətin Azərbaycan Respublikası hüdudlarından kənarda törədilməsinə dair qeyd | | | | |
| | 3.1.3 | Barəsində ittiham elan edilmiş fiziki şəxslərin sayı | | | | |
| | 3.1.4 | Başa çatmayan cinayətə dair qeyd (hazırlıq və ya cəhd) | | | | |
| | 3.1.5 | Cinayətdə iştirakçılığın növünə dair qeyd (icraçı, təşkilatçı, köməkçi, təhrikçi) | | | | |
| | 3.1.6 | Cinayətin bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsinə dair qeyd | | | | |
| | 3.1.7 | Cinayət nəticəsində dəymiş ziyanın ümumi məbləği (milli və ya xarici valyutada) | | | | |
| | 3.1.8 | Cinayət yolu ilə əldə edilmiş əmlak və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | 3.1.9 | Cinayət yolu ilə əldə edilmiş, tam və ya qismən çevrilmiş əmlak və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | 3.1.10 | Cinayət yolu ilə əldə edilmiş əmlak hesabına əldə edilmiş gəlirlər və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | 3.1.11 | Cinayətkar fəaliyyətin maliyyələşdirilməsi üçün nəzərdə tutulan və ya istifadə olunan əmlak və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | 3.1.12 | Cinayət yolu ilə əldə edilmiş və üçüncü şəxslərə bağışlanmış və ya dəyərindən ucuz satılmış əmlak və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | 3.1.13 | Əmlakı üzərinə həbs qoyulmuş fiziki şəxslərin sayı | | | | |
| | 3.1.14 | Üzərinə həbs qoyulmuş əmlak və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | 3.1.15 | Cinayət yolu ilə əldə edilmiş qanuni sahiblərinə ödənilmiş (bərpa edilmiş) məbləği (milli və ya xarici valyutada) | | | | |
| | 3.1.16 | Cinayət təqibinə Cinayət Prosessual Məcəllənin 39-cu maddəsinin tələblərinə əsasən xitam verilməsinə dair qeyd (əsası göstərilməklə) | | | | |
| | 3.1.17 | Cinayət təqibinə digər əsaslarla xitam verilməsinə dair qeyd (əsası göstərilməklə) | | | | |
| | 3.1.18 | Cinayət təqibi üzrə icraatın Cinayət Prosessual Məcəllənin 53-cü maddəsinin tələblərinə uyğun olaraq dayandırılmasına dair qeyd (əsası göstərilməklə) | | | | |
| | **3.2** | **İbtidai araşdırma mərhələsində olan cinayət işləri üzrə (hüquqi şəxslər):** | | | | |
| | 3.2.1 | Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanıldığı hüquqi şəxslərin sayı | | | | |
| | 3.2.2 | Cinayət yolu ilə əldə edilmiş əmlak və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | 3.2.3 | Cinayət yolu ilə əldə edilmiş və tam və ya qismən çevrilmiş əmlak və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | 3.2.4 | Cinayət yolu ilə əldə edilmiş əmlak hesabına əldə edilmiş gəlirlər və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | 3.2.5 | Cinayətkar fəaliyyətin maliyyələşdirilməsi üçün nəzərdə tutulan və ya istifadə olunan əmlak və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | 3.2.6 | Üçüncü şəxslərə bağışlanmış və ya dəyərindən ucuz satılmış əmlak və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | 3.2.7 | Əmlakı üzərinə həbs qoyulmuş hüquqi şəxslərin sayı | | | | |
| | 3.2.8 | Üzərinə həbs qoyulmuş əmlak və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | 3.2.9 | Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam edilməsinə dair qeyd | | | | |
| 4. Birinci instansiya məhkəmə baxışı mərhələsindəki cinayət işləri üzrə | **4.1** | **Məhkəmə istintaqı mərhələsində olan cinayət işləri üzrə (fiziki şəxslər):** | | | | |
| | 4.1.1 | Məhkəmə tərəfindən üzərinə həbs qoyulmuş əmlak və onun dəyəri (milli və ya xarici valyutada) | | | | |
| | *4.1.2* | *İttiham aktında əhatə edilmiş məsələlərin məhkəmə istintaqı (hökm) ilə təsdiqinə dair qeydlər:* | | | | |
| | 4.1.2.1 | Cinayətin Azərbaycan Respublikası hüdudlarından kənarda törədilməsinə dair qeyd | | | | |
| | 4.1.2.2 | İttiham hökmü çıxarılmış şəxslərin sayı | | | | |
| | 4.1.2.3 | Bəraət hökmü çıxarılmış şəxslərin sayı | | | | |
| | 4.1.2.4 | Tətbiq edilmiş cəzaya/cəzalara dair qeyd | | | | |
| | 4.1.2.5 | Şərti məhkum etməyə dair qeyd | | | | |
| | 4.1.2.6 | Cəzadan azad etməyə dair qeyd: | | | | |
| | *4.1.2.6.1* | *Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə* | | | | |
| | *4.1.2.6.2* | *Cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə* | | | | |
| | *4.1.2.6.3* | *Xəstəliyə görə cəzanı çəkməkdən azad etmə* | | | | |
| | *4.1.2.6.4* | *Hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması* | | | | |
| | *4.1.2.6.5* | *İttiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad etmə* | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | *4.1.2.6.5* | *İttiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad etmə* | | | | |
| | *4.1.2.6.6* | *Amnistiya* | | | | |
| | 4.1.2.7 | Başa çatmayan cinayətə dair qeyd (hazırlıq və ya cəhd) | | | | |
| | 4.1.2.8 | Cinayətdə iştirakçılığın növünə dair qeyd (icraçı, təşkilatçı, köməkçi, təhrikçi) | | | | |
| | 4.1.2.9 | Cinayətin bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsinə dair qeyd | | | | |
